RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 275 (8298) ÇƏRŞƏNBƏ, 11 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan - İordaniya qardaşlıq münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir







## Rəsmi qarşılanma mərasimi

Dekabrın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Kral II Abdullahın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verdi.

İordaniya Kralı Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Kral II Abdullah fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İordaniyanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın qarşısından keçdi.

Prezident İlham Əliyev və Kral II Abdullah rəsmi foto çəkdirdilər.



## Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır

**Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan Respublikasının qurucusudur və bu gün ölkə beynəlxalq təşkilatların qiymətləndirilmələrinə əsasən innovativ idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqinə görə dünya liderləri sırasındadır.**

Belə yüksək dəyərləndirmə ölkənin tarixi baxımdan qısa müddət ərzində iqtisadi, sosial, humanitar sahələrdə yüksək nəticələr qazanması ilə əlaqədardır. Bu gün BMT, Dünya Bankı, Davos Dünya İqtisadi Forumu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, dünyanın beynəlxalq inkişafı təhlil edən digər təşkilatlarının rəsmi hesabatlarında daim Azərbaycanın innovativ inkişaf sahəsində qazandığı yüksək nailiyyətlər barədə məlumatlar tirajlanır. Ölkənin iqtisadi, sosial və humanitar sahələrdə qazandığı nailiyyətlərinə işıq salan beynəlxalq təhlillərin sayı gündən-günə artmaqdadır.

*Ardı 3-cü səh.*

## Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uhuru Kenyattaya

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu xoş gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2019-cu il*

## Yeni Azərbaycan Partiyası Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərdə iştirakı ilə bağlı qərar qəbul edib

Yeni Azərbaycan Partiyasının İdarə Heyəti Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə partiyanın iştirakı ilə bağlı qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, YAP İdarə Heyətinin iclasında ölkəmizdə bütün sahələr üzrə yüksək inkişafın əldə olunduğu, əhalinin rifah halının daha da yüksəldiyi, regionların simasının əhəmiyyətli dərəcədə dəyişdiyi və bu dəyişikliklərin hər bir vətəndaşın həyatına müsbət təsir göstərdiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, bu gün Azərbaycanda geniş və çoxşaxəli islahatlar proqramı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev tərəfindən çox böyük uğurla həyata keçirilir. Bu siyasət xalqın mütləq əksəriyyəti tərəfindən birmənalı şəkildə müdafiə olunur. Bu baxımdan, 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilər Yeni Azərbaycan Partiyasının öz mövcud qüvvə və potensialına yeni bir baxış, siyasi sistemin mühüm qolu olan qanunverici hakimiyyətdə yeni bir enerji ilə təmsil olunma imkanı verən əhəmiyyətli fürsətdir. Çox böyük seçki təcrübəsi olan, cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən Yeni Azərbaycan Partiyasının bu mühüm siyasi kampaniyada iştirakı siyasi zərurət olmaqla yanaşı, nəhəng elektorata malik təşkilat üçün sosial sifarişdir.

Yeni Azərbaycan Partiyasının İdarə Heyəti müzakirələrin yekunu olaraq 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə iştirakla bağlı qərar qəbul edib.

İclasda, həmçinin Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə YAP-ın səlahiyyətli nümayəndələri təyin olunub.

## BTC bütün regiona xeyir-bərəkət gətirir

**İllər keçdikcə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri daha böyük əhəmiyyət kəsb edir, region ölkələrinə gətirdiyi gəlirlər getdikcə artır. BTC-nin təcrübəsinə əsaslanan yeni-yeni qlobal layihələr gerçəkləşir və onlar daha böyük dividendlər gətirəcək.**

Bu ilin əvvəlindən də BTC ahəngdar və təhlükəsiz işləyib. İlin ilk 9 ayı ərzində kəmərlə 24 milyon tona yaxın, yəni 177 milyon bareldən çox xam neft ixrac edilib.

BTC Azərbaycanın neft strategiyasının ayrılmaz hissəsidir. Bu boru xətti ilə qapalı hövzə olan Xəzər dənizindən dünya bazarlarına tamamilə yeni bir marşrut açılıb. Beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxışı təmin edən bu marşrut haqlı olaraq regionun enerji ixracının başlıca arteriyası sayılır.

Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neftin böyük hissəsi dünya bazarlarına BTC ilə çatdırılır. Kəmərə həmçinin "Şahdəniz" yatağından hasil olunan kondensat da vurulur. Bundan əlavə, BTC vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

*Ardı 6-cı səh.*



## "Bakutel-2019" - gələcəyə səyahət məkanı

İnsan əsrlər boyudur ki, zamana səyahət etmək, gələcəyi görmək, onun yenilikləri ilə təmasda olmaq arzusundadır. Bu mövzuya yüzlərlə əsər həsr edilib, fantastik filmlər çəkilsə də, bəşər övladının istəyi arzu olaraq qalır. Lakin "Bakutel-2019" sərgisinə gəlsəniz, pavilyonları gəzsəniz fantastik bir gələcəyə səyahət etmək imkanı qazanacaqsınız.

*Ardı 6-cı səh.*

## Dünya miqyasında rekord göstərici

### Qeyri-neft sənayemiz 15 faizdən çox artmışdır

**Aparılan islahatlar nəticəsində Azərbaycanda sənayenin inkişafında mühüm nailiyyətlər əldə edilib. Bunun sayəsində indiyə qədər istər ölkənin paytaxtında, istərsə də regionlarda minlərlə orta və iri sənaye müəssisələri tikilərək istifadəyə verilib. Həmin müəssisələrdə istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına da ixrac olunur, üstəlik, ölkəyə valyuta axını təmin edilir.**

Sənayeləşmədə texnoparkların və sənaye məhəllələrinin xüsusi rolu var. Dövlət xarici və yerli sahibkarlara sənaye müəssisələrinin yaradılması üçün böyük güzəştlər edir. Belə ki, texnopark və sənaye məhəllələrində bütün infrastruktur dövlət vəsaiti hesabına həyata keçirilir. Sahibkarlar yalnız məhsul istehsal edəcəkləri müəssisələrin tikintisinə vəsait qoyurlar. Üstəlik, belə müəssisələrdə istifadə ediləcək avadanlıqları idxal edərkən onlar üçün gömrük rüsumlarının və vergilərin ödənilməsində böyük güzəştlər edilir.

*Ardı 5-ci səh.*

# İordaniya Kralı II ABDULLAH: “Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram”

**Dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olub.**



AZƏRTAC xəbər verir ki, ali qonağı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Əlahəzrət, əziz qardaşım, Azərbaycana xoş gəlmisiniz. Mənim dəvətimi qəbul edib bizə səfər etdiyiniz üçün Sizə təşəkkür edirəm. Bu səfər ikitərəfli gündəliyimizdəki vacib məsələlərlə bağlı bir daha müzakirələr aparmaq üçün çox yaxşı imkandır. Bu yaxınlarda biz Soçidə görüşdük və bizim söhbət etmək imkanımız oldu. Mən bir daha Sizi ölkəmizə səfərə dəvət etdim. Şadam ki, çox məşğul olmağınıza baxmayaraq, qısa müddət ərzində bizi ziyarət etdiniz. Azərbaycanda Sizi qəbul etmək həqiqətən böyük şərəfdir. Siz burada bizim əziz qonağımızsınız. Əminəm ki, bu səfər ərzində biz qardaşlıq münasibətlərimizin daha da inkişafına birgə töhfə verəcəyik. Bu münasibətlər müxtəlif sahələri əhatə edir. Biz beynəlxalq arenada səylərimizi əlaqələndirməyə çox şadıq. Beynəlxalq təşkilatlarda bir-birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik. Siyasi təmaslar əladır. Mən iqtisadi göstəricilərə baxdım. Düşünürəm ki, biz daha gərgin çalışmalıyıq. Əlbəttə ki, biz bunu edəcəyik və bu gün bu məsələ ilə bağlı geniş müzakirə aparacağıq. Şadam ki, bu il İordaniyadan Azərbaycana gələn turistlərin sayında artım olub. Artım 20 faizdən çoxdur. Hesab edirəm ki, biz insanların bir-birilərini daha tez-tez ziyarət etmələri üçün birbaşa hava əlaqəsinin yaradılması imkanını da müzakirə edə bilərik.

Bir daha xoş gəlmisiniz və Sizə Bakıda xoş vaxt keçirməyi arzu edirəm.

**İordaniya Kralı II ABDULLAH** dedi:

- Mənim əziz qardaşım, çox sağ olun. Dediyiniz kimi, Sizi bu yaxınlarda Soçidə görmək xoş idi. Son iki onillikdə mənim buraya səfərimlə bağlı çoxlu gözəl xatirələrim olub. Mən əziz dostumla burada olmaqdan şadam. Bilirəm ki, beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Xüsusilə də bu yaxınlarda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşü ilə bağlı təbriklərimi Sizə çatdırıram.

Dediyiniz kimi, əziz qardaşım, bizim siyasi, kəşfiyyat, hərbi sahələrdə əlaqələrimiz güclüdür. İqtisadiyyat sahəsini inkişaf etdirə bilərik. Əminəm ki, bu gün müvafiq görüşlərimiz olacaq. Lakin buraya gəlmək istədim ki, Sizə regionda və dünyada oynadığınız rolunuza görə təşəkkürümü bildirim. İnanıram ki, İnşallah, regionumuzda olan çağırışların öhdəsindən gəlmək üçün daha çox məsələlərlə bağlı müzakirələr apara bilərik. Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram. Bu xoş dostluğa görə Sizə təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullah ilə işçi nahar edib



Dekabrın 10-da təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə işçi nahar edib.

## Azərbaycan-İordaniya sənədləri imzalanıb



Dekabrın 10-da İordaniya Kralı II Abdullah ibn Al Hüseynin ölkəmizə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Dəniz Komissiyası arasında dənizçilərin hazırlanması, onlara diplom verilməsi və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın 1/10-cu qaydasına uyğun olaraq sertifikatların tanınması haqqında Anlaşma Memorandumu layihəsinə edilmiş dəyişikliklərin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, sənədləri Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İordaniyanın Xarici İşlər naziri Ayman Safadi imzalayıblar.

## “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 dekabr tarixli 1835 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 dekabr tarixli 1835 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1094; 2010, № 2, maddə 80; 2012, № 2, maddə 127, № 12, maddə 1292; 2014, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası Maliyyə nazirinin müavini
Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Təhsil nazirinin müavini
Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin müavini
Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Pakistan İslam Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2019-cu il*

## “Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 609 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

“Patent haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 505; 2003, № 10, maddə 571; 2004, № 7, maddə 526; 2009, № 4, maddə 226; 2010, № 12, maddə 1064; 2012, № 7, maddə 679; 2014, № 7, maddə 798; 2019, № 3, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənddən “4.2-ci maddəsində,” sözləri çıxarılsın və həmin bənddə “39.2-ci maddəsində (birinci halda)” sözləri “39.2-ci maddəsində (birinci və ikinci hallarda)” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

“2.1-1. həmin Qanunun 39.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”.

3. 2.2-ci bənddə “39.2-ci maddəsində (ikinci halda)” sözləri “39.2-ci maddəsində (üçüncü halda)” sözləri ilə əvəz edilsin.

4. 2.4-cü bənddən “4.2-ci maddəsində,” sözləri çıxarılsın və həmin bəndə “39.2-ci maddəsində” sözlərindən sonra “(birinci halda)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2019-cu il*

## Səfər başa çatdı



İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin Azərbaycan Respublikasına rəsmi səfəri dekabrın 10-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda İordaniya Kralının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İordaniya Kralı II Abdullahı hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

*Azərbaycanın özü qədər əbədi*

# Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır

*Əvvəli 1-ci səh.*

Bu uğurların daha çox və əsasən son illərdə qazanılmasına baxmayaraq, onların əsasında Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal istedadı və yorulmaz fəaliyyəti durur.

Dərin və hərtərəfli bilik, yüksək iradə, qətiyyətlilik, ölkə və ətrafında baş verən mürəkkəb prosesləri hər zaman təhlil etmə və düzgün qiymətləndirmə bacarığı, gələcəyi aydın görə bilmək qabiliyyəti Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin uğurlarını şərtləndirən başlıca amillərdir. O həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik illərində xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Sovet dövründə Heydər Əliyev ölkə rəhbərliyini qəbul etdiyi zaman Azərbaycan Respublikası keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında ən geridə qalanlar sırasında idi. Qısa müddət ərzində Ümummilli Lider Heydər Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan Respublikası öz iqtisadiyyatının, sosial göstəricilərinin ən yüksək səviyyəyə qalxmasına nail oldu. Məhz onun müdrik siyasəti sayəsində Azərbaycan keçmiş SSRİ-nin öncül respublikasına çevrildi. Həmin illərdə Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə qalxmışdır ki, ölkə nəinki öz tələbatlarını təmin edirdi, eyni zamanda donor kimi çıxış edirdi. Keçmiş SSRİ-nin tərkibinə daxil olan 15 ölkə arasında ancaq 2 respublikada iqtisadiyyat belə yüksək səviyyədə idi. Qısa müddətdə bu irəliləyiş Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal bilik və bacarığının nəticəsi idi.

Heydər Əliyevin rəhbərliyi ilə ölkədə qazanılmış yüksək nailiyyətlərin əsasında Ümummilli Liderin fərdi liderlik istedadı ilə yanaşı, onun kadr potensialının formalaşdırılması və bu əvəzsiz sərvətin səfərbər edilməsi sahəsində xüsusi bilik və bacarığı, uzaqgörənliyi durur. Hələ Sovet dövründə Ümummilli Liderin təşəbbüsü ilə ölkənin minlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müasir biliklərin alınması və bacarıqların formalaşdırılması üçün göndərilirdi. Gənclərin təhsili həm mülki, həm də hərbi ali məktəblərdə həyata keçirilirdi. Prosesin iştirakçısı kimi, Ulu Öndər Heydər Əliyev bu prosesi daim diqqət mərkəzində saxlayırdı və səfərləri zamanı ölkədən kənarda təhsil alan tələbə və aspirantlarla şəxsən görüşürdü. O, bu görüşlər zamanı tələbələrin qayğıları ilə maraqlanır, onların problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi. Bu gün artıq müstəqil Azərbaycan Respublikasının inkişafında o zaman bu proqram çərçivəsində təhsil almış mütəxəssislərin rolu olduqca əhəmiyyətlidir. Eyni zamanda, bu proses xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması və güclənməsi baxımından böyük önəm daşımışdır.

Qeyd etmək lazımdır ki, ölkə gənclərinin hərbi məktəblərdə təhsil alması da vacib məqamlardandır. Ümummilli Lider Heydər Əliyevin hələ SSRİ dönəmində bu vacib istiqaməti diqqət mərkəzində saxlaması onun uzaqgörənliyinin təzahürüdür. Müstəqil Azərbaycanın hazırkı hərbi qüdrəti o zaman bu sahə üçün kadr hazırlığından qaynaqlanır. Bu kontekstdə eyni zamanda ölkədə C. Naxçıvanski adına hərbi liseyin açılmasını və fəaliyyətini də qeyd etmək yerinə düşər.



Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş kadr potensialının formalaşdırılması siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülmüş "qara qızılın insan qızılına çevrilməsi" konsepsiyası ölkə gəncləri üçün aparıcı xarici dövlətlərdə təhsil almaq imkanı yaratmışdır. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkənin kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi sahəsində fəaliyyəti də olduqca əhəmiyyətli və məhsuldardır. Onun təşəbbüsü ilə həyata keçirilən yeni məktəblərin inşası, tədris proqramlarının muasirləşdirilməsi, təhsilin inklüzivliyinə yönəldilmiş fəaliyyət, rəhbərlik etdiyi qurumlarda müasir kadrların hazırlanması və imkanlarının genişləndirilməsi yeni nəsil peşəkarlar ordusunun formalaşmasına xidmət edir. Müstəqil Azərbaycanda müasir tələblərə cavab verən kadr potensialının formalaşması sahəsində qazanılan nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin vaxtilə bu prosesi düzgün təməllər əsasında qurmasının nəticəsidir.

Ümummilli Lider Heydər Əliyev fenomeninin bir təqdirəlayiq cəhəti də gələcək perspektivləri düzgün müəyyənləşdirməsi və hərtərəfli inkişaf, o cümlədən insan potensialının inkişafına yönəlik yeni istiqamətlərdə qabaqlayıcı tədbirlərin reallaşdırılması ilə bağlı idi. Məsələn, hazırkı nəsillərin rifahını təmin edən və gələcək nəsillərin inkişaf imkanlarını məhdudlaşdırmayan davamlı inkişaf XXI əsrdə dünya üçün qlobal prioritetdir. 2015-ci ilin sentyabr ayında ABŞ-ın Nyu York şəhərində keçirilmiş dünya sammiti və BMT-nin 70-ci yubiley sessiyası davamlı inkişafın təmininin Yer kürəsində həyatın qorunması baxımından həlledici önəmini elan etmiş və bu sahədə 2030-cu ilə qədər bəşəriyyət qarşısında duran məqsədləri müəyyənləşdirmişdir. Həmin məqsədlərə nail olmaq üçün dünya əhalisi davamlı və insan potensialına əsaslanan inkişaf sahəsində müvafiq bilik və bacarıqlara malik olmalı idi. Göstərilən sahədə bilik və bacarıqların formalaşması üçün BMT və UNESKO 2005-2014-cü illəri dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan etmişdir. Sözügedən beynəlxalq təşkilatlar tərəfindən belə bir qərarın verilməsi məntiqi çox anlaşılan idi: 2005-2014-ci illərdə dünya əhalisi davamlı insan potensialına əsaslanan inkişaf, onun mahiyyəti və metodları barədə bilikləndirilir və 2015-ci ildən başlayaraq, göstərilən sahədə praktiki fəaliyyətə start verilir. Bu barədə sənəd 2005-ci il martın 1-də Nyu Yorkda, BMT-nin ozamankı baş katibi Koffi Annan və UNESKO-nun baş direktoru Koichiro Matsuura tərəfindən imzalanmışdır.

Davamlı inkişafın bəşəriyyət üçün prioritet əhəmiyyətini Ümummilli Lider Heydər Əliyev daha tez müəyyən edə bilmişdir. Onun təsdiq etdiyi Milli Təhsil Strategiyası artıq 2000-ci ildə orta ümumtəhsil məktəbləri və ali məktəblərdə davamlı insan inkişafının tədrisini nəzərdə tuturdu (şəkil 1).




*Şəkil 1. Azərbaycanda və dünyada davamlı insan potensialına əsaslanan inkişafın tədrisi xronologiyası.*

Təqdim olunmuş məlumatlardan aydın olur ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan Respublikasında davamlı inkişaf sahəsində biliklərin tədris prosesinə daxil edilməsi və bu sahədə kadr potensialının formalaşdırılmasına BMT və UNESKO tərəfindən qəbul olunmuş qərardan 4 il qabaq başlanılmışdı. Azərbaycanın bu qabaqlayıcı fəaliyyəti barədə məlumatı BMT Baş Qərargahı (Nyu York) 19 dekabr 2005-ci ildə "İdeyalar, innovasiyalar və təsirlər" başlığı altında dünyaya yayılmışdır. Azərbaycanın bugünkü uğurları məhz kadr potensialının hazırlanması və daimi təkmilləşdirilməsi ilə əlaqədardır. Bu prosesin əsası isə Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və bu unikal xüsusiyyətin inkişaf prosesinə təsirinə dair çox misallar gətirilə bilər. Bu misallardan biri Azərbaycan üçün önəmli sayılan neft sahəsi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının bünövrəsinin əsasən 1994-ci ildə imzalanmış "Əsrin müqaviləsi" kimi tanınan, dünyanın aparıcı neft şirkətləri ilə bağlanmış müştərək fəaliyyətə dair müqavilələrlə qoyulduğunu vurğulayırlar. Lakin bu strategiyanın formalaşma tarixini Bakıda dərin özüllər zavodunun inşası dövrü ilə əlaqələndirmək daha doğru olar. Hazırda Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu müəssisənin təməli 1978-ci ildə qoyulmuş və zavod istismara 1984-ci ildə verilmişdir. Bakıda qurulmuş dərin özüllər zavodu o zaman keçmiş SSRİ-də bu tipli avadanlığı istehsal edən yeganə müəssisə idi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində bu müəssisənin Sovet dönəmində Bakıda qurulması müstəqillik dövründə ölkədə həyata keçirilən neft və qaz layihələrini sürətləndirdi və onların iqtisadi səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəltdi. Şübhəsiz ki, bu, Ulu Öndər Heydər Əliyevin eyni zamanda bu sahədə də dərin biliklərə malik olmasından xəbər verir.

Ulu Öndər Heydər Əliyev ömrü boyu ölkənin inkişafı üçün çalışmışdır. Onun bilik və bacarığı, cəsarəti, qətiyyətli və prinsipial fəaliyyəti ölkənin müstəqillik qazanmasının vacib şərtidir. Bakıda baş vermiş 20 Yanvar faciəsi zamanı Moskvada böyük təzyiqlər altında olan Ulu Öndər Azərbaycan Respublikasının daimi nümayəndəliyinə gəlmiş və bu cinayətlə bağlı prinsipial mövqeyini ortaya qoymuşdur. Belə qətiyyətli hərəkət eyni zamanda özü, onunla birgə həmin tədbirdə iştirak edən ailə üzvü, hazırda ölkə Prezidenti İlham Əliyev üçün olduqca böyük risk idi. Ümumiyyətlə, qeyd edilməlidir ki, ölkənin ən çətin anlarında Ümummilli Lider misilsiz cəsarət örnəyi nümayiş etdirmişdir. Bu, özünü həm Xalq Cəbhəsinin ölkədə yarıtmaz fəaliyyəti dövründə, həmçinin bu yarıtmaz fəaliyyətin ağır fəsadlarının aradan qaldırılması zamanı da biruzə vermişdir. Dövlət idarəçiliyindən xəbəri olmayan, tutduqları vəzifələrin məsuliyyətlərini dərk etməyən həmin dövrdəki hakimiyyət təmsilçiləri ara-sıra işlərini qoyub paytaxtdan köç edir, vəzifələrini dondurur və digər yolverilməz məsuliyyətsizlik nümunələri ortaya qoyurdular. Bu ona bənzəyirdi ki, gəmini idarə edə bilməyən kapitan öz bacarıqsızlığı nəticəsində gəmini çox mürəkkəb, praktiki olaraq çıxılmaz vəziyyətə salır, sonra isə çarəsiz sərnişinləri idarə olunmayan gəmidə qoyub sahilə çıxır və elan edir ki, mən bu gəmini sahildən idarə edəcəyəm. Belə bir şəraitdə xalq yalnız Heydər Əliyevi xilaskar simasında görürdü. Xalq anlayırdı ki, Ümummilli Liderin Naxçıvan Respublikasında həyata keçirdiyi dərin düşünülmüş strateji dövlət idarəçilik təcrübəsi Azərbaycanın müstəqilliyini qorumaq baxımından həlledici əhəmiyyətə malikdir. O dönəmdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, respublikamızın SSRİ-nin tərkibində qalmasına dair referendumda iştiraka qarşı çıxması, dövlət simvollarının qəbulu və digər xidmətlər tarixi önəm daşıyırdı. Xalqın təkidli tələbləri ilə rəhbərliyə gəlmiş Ümummilli Lider ölkəni parçalanma, suverenliyin itirilməsi riskindən xilas etdi. Onun cəsarəti və müdrikliyi ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. Silahlı separatçılarla silahsız Ümummilli Liderin görüşləri respublikada vətəndaş qarşıdurmasının aradan qalxmasını təmin etdi.

Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin miqyası onun qurucusu olduğu Azərbaycan Respublikasının bugünkü nailiyyətlərində özünü biruzə verir. Beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə, bu gün Azərbaycan Respublikası iqtisadi imkanlarını ölkənin hərtərəfli inkişafı və insanların rifahının artırılması məqsədi ilə daha səmərəli istifadə edən dünya dövlətləri sırasındadır. Azərbaycan Respublikasının bu göstəricilərinin "böyük yeddilik" (G7) ölkələri ilə müqayisəsi şəkil 2-də nümayiş etdirilir.




*Şəkil 2. İnklüziv inkişaf indeksinin hər vahidinə sərf edilən ÜDM-in (ümumi daxili məhsulun) dəyəri (ABŞ dolları AQP (alıcılıq qabiliyyəti pariteti) nəzərə alınmaqla). Mənbə: Dünya Bankı 2019, Davos Dünya İqtisadi Forumu, 2019.*

Şəkil 2-dən aydın görünür ki, ölkənin hərtərəfli inkişafı və bu prosesin bütün əhalinin rifahının yüksəlməsinə xidmət edən inklüziv inkişafın məqsədlərinə nail olmaq üçün Azərbaycan G7 ölkələri ilə müqayisədə daha az vəsait sərf edir. Buna baxmayaraq, Davos Dünya Forumunun hesabatına əsasən, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 təşkil etdiyi halda, "böyük yeddiliyə" daxil olan ABŞ-da eyni göstərici 4,60, Yaponiyada 4,53, İtaliyada isə 4,31-dir. Az vəsait hesabına daha yüksək nəticələrin əldə edilməsi ilk növbədə dövlətin yüksək səviyyədə idarə edilməsi, yeni, daha optimal idarəetmə texnologiyalarının istifadəsindən xəbər verir. Bu idarəetmə texnologiyalarının işlənməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu texnologiyaların ölkə Prezidenti İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun inkişaf etdirilməsi və təkmilləşdirilməsi Azərbaycanı davamlı inklüziv inkişafın idarə edilməsində dünya liderləri səviyyəsinə yüksəltmişdir. Göründüyü kimi, Ulu Öndərin irsi bu gün də Azərbaycanın innovativ inkişafına xidmət edir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dünyada tanıdılması üçün hər zaman böyük əzmlə çalışmışdır. Hazırda bu sahədə olduqca əhəmiyyətli fəaliyyəti onun adını daşıyan fond həyata keçirir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə fəaliyyətini inkişaf etdirərək, UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına 2003-2017-ci illərdə Azərbaycanın 13 milli nominasiyasının daxil edilməsinə nail olmuşdur. Bu nominasiyalar sırasında muğam, Novruz, aşıq sənəti, tar və tar ifaçılığı, kəlağayı, çovqan - atüstü ənənəvi Qarabağ oyunu və digərləri yer alıb. Təbliğ edilən mədəni irslə bağlı bilgilər yüz və minillərlə məlumdur. Lakin onların UNESKO-nun siyahısında populyarlaşdırılmasına 2003-cü ildən sonra ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyi nəticəsində nail olunmuşdur. Bu fakt bir daha göstərir ki, Ümummilli Liderin kadr siyasəti bu gün də işləyir və Azərbaycanın inkişafına töhfələrini verməkdədir. Heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin özünün təbirincə desək, zamanında düzgün müəyyənləşdirilən strategiyanın nəticəsi olaraq, "Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Heydər Əliyevin xalq və dövlət qarşısında xidmətləri misilsizdir

**Ölkənin ictimai-siyasi tarixində böyük xidmətlər göstərmiş şəxsiyyətlər və liderlər az olmayıb. Azərbaycana uzun müddət rəhbərlik edən, daha doğrusu, onu tənəzzüldən tərəqqi yoluna çıxaran, xalqın tarixində və taleyində əvəzedilməz xidmətlər göstərən, müstəqillik əldə etdikdən sonra isə demokratik dövlət quruculuğunun memarı olan Ulu Öndər Heydər Əliyevin ömrünün hər anı Vətəninə bağlı olduğu üçün əbədiyaşarlıq qazanmışdır. Onun Azərbaycanın hərtərəfli - ictimai-siyasi, iqtisadi-sosial və mədəni inkişafındakı xidmətləri unudulmazdır.**

Hər bir dövlətin möhkəmliyi, sosial-iqtisadi qüdrəti onun vətəndaşlarının torpağa, vətənə olan sevgisindən, ən əsası isə, geniş elmi təfəkkürə, yüksək dünyagörüşünə, dərin biliyə, siyasi iradəsinə, idarəçilik bacarığına, işgüzarlıq qabiliyyətinə və s. ali insani keyfiyyətlərə malik olan rəhbərdən çox asılıdır. Məhz Ulu Öndərin bu keyfiyyətləri, uğurlu siyasəti sayəsində Azərbaycan xalqı özünün xoşbəxt günlərini yaşayır, qurub-yaratmaq əzmi ilə çalışır.

Azərbaycanı regionda inkişafına görə lider dövlətə çevirən də məhz Ümummilli Lider Heydər Əliyevin siyasətinin özündən sonra dövlət başçısı İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsidir. Azərbaycan Prezidenti Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli yığıncaqda bir daha uzaq-yaxın tariximizə nəzər salaraq, bugünkü inkişafa gələn yolun başlanğıcında xalqımızın və müstəqilliyini bərpa etmiş dövlətimizin o ağır günlərdə üzləşdiyi problemlərdən bəhs etdi və həmin problemləri yaradanların iç üzünü açaraq, gəncliyi hər zaman ayıq-sayıq olmağa səslədi: "...Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər... Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir. Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi".

Xalqına misilsiz xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin hər iki dövründə Azərbaycanın taleyüklü məsələləri ilə məşğul olduğu danılmaz faktlarla sübut olunub. Təkcə bu faktı qeyd edək ki, 1987-ci ildə Heydər Əliyev Kremldən uzaqlaşdırıldıqdan dərhal sonra ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi haqqında beynəlxalq və sovet mətbuatında çıxışlar etməyə başladılar. Ümummilli Liderin siyasi hakimiyyətdən uzaqlaşdırılmasının səbəblərindən biri də məhz Azərbaycan ərazilərinin Ermənistana verilməsi ssenarisini həyata keçirmək idi. Buna Prezident İlham Əliyev belə münasibət bildirdi: "...Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar..."

Dünyanın böyük siyasət korifeylərindən biri olan Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrlərə nəzər salsaq görərik ki, hər iki halda Azərbaycan necə ağır, böhranlı vəziyyətə düşmüşdür. Doğrudur, 1969-cu ildə Ulu Öndər respublikamıza rəhbərliyə gələndə 1993-cü ildə olduğu kimi, Azərbaycan erməni təcavüzünə məruz qalmamış, torpaqlarımızın 20 faizi işğal altında olmamışdır. Lakin həmin dövrün böhranlı vəziyyəti tamamilə başqa cür idi. Azərbaycan ittifaqda ən geridə qalan respublika idi. Çox keçmədi ki, Ulu Öndərin sayəsində Azərbaycan öndə gedənlərdən oldu.

Qətiyyətlə deyə bilərik ki, Heydər Əliyevin şəxsiyyəti SSRİ-nin çərçivəsinə sığışmırdı. Siyasi istedadı, fitri qabiliyyəti və güclü təşkilatçılığı çoxlarını heyran qoyur, onu İttifaq rəhbəri kimi görmək istəyirdilər. Təəssüf ki, bəzilərində bu fəallıq qısqanclıq hissi yaradırdı.

"Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycanı təmsil etdiyimə görə özümü çox xoşbəxt sayıram" fikrinin müəllifi olan Heydər Əliyev bu münasibətdən kədərlənmədi, milli mənsubiyyətindən heyifsilənmədi, əksinə, qürur duydu. Ulu Öndər ikinci dəfə hakimiyyətə qayıdışından sonra fəxrlə deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"

Ulu Öndər Azərbaycanın ən ucqar dağ rayonunun inkişafına belə xüsusi diqqət və qayğı göstərərdi. 1996-1997-ci illərdə kəlbəcərlilərlə keçirdiyi görüşlərində bunu xüsusi olaraq qeyd edirdi: "...Kəlbəcərin işğalı bizim üçün böyük itkidir. Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər yataqlarına, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox səylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə edilməsi ilə məşğul olmamışdılar. Hələ o sakit dövrdə ermənilər gəlib bizim qızıl yataqlarımızı zəbt etmək istəyirdilər. Xatirimdədir, biz o barədə çox ciddi tədbirlər gördük. Dağ rayonu kimi Kəlbəcərin inkişafı üçün xüsusi qərarlar qəbul olunmuşdu və bunların həyata keçirilməsindən Kəlbəcərin əhalisi, hesab edirəm ki, çox bəhrələnmişdir..."

Yeri gəlmişkən, Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik edən Heydər Əliyevin böyük səyləri nəticəsində respublikamızın hərtərəfli inkişafı, onun güclü iqtisadi, sənaye potensialının formalaşdırılması, SSRİ miqyasında ön sıralara çıxması, təhsilin və elmin inkişaf etdirilməsi, gənclərimizin sovetlər ölkəsinin ən aparıcı ali məktəblərində oxumalarına şərait yaradılması nəticəsində mütəxəssis kadrların yetişdirilməsi, cəmiyyət həyatının bütün sahələrində mütərəqqi dəyişikliklərin baş verməsi danılmaz faktlardır.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində müstəqilliyə gedən yolun Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olması, bu istiqamətdə əməli fəaliyyəti, o cümlədən imperiyanın 20 Yanvarda törətdiyi faciədə öz səsini ucaltması və bunun ardınca Kommunist Partiyasının sıralarını tərk etməsi, müstəqil Azərbaycanın dövlət atributlarının bərpa edilməsi, Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, respublikamızın SSRİ-nin tərkibində qalması ilə bağlı referenduma qarşı olması və digər məsələlər aydın şəkildə göstərir ki, Azərbaycanı müstəqilliyə aparan yol məhz Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə AXC-Müsavat cütlüyünün xəyanətini, yarıtmaz, cinayətkar fəaliyyətini də xatırlatmaq yerinə düşərdi. Məhz xalq bu xəyanətə görə onları hakimiyyətdən uzaqlaşdırdı.

Beləliklə, bu xalqın haqqı var desin: Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının banisidir. 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda müstəqil dövlət quruculuğu prosesləri getdi və bugünkü inkişafa zəmin yaradıldı. Heydər Əliyevin həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də ondan sonrakı illərdə xalq və dövlət qarşısında xidmətləri misilsizdir.

Azərbaycanın hər bir guşəsində Ümummilli Liderin şərəfinə abidələrin ucaldılması, adının əbədiləşdirilməsi də bax buna görə təbiidir. Çünki Heydər Əliyev zirvə ömrü yaşamışdır.

Ulu Öndərin həyat və fəaliyyətinin Azərbaycan xalqının və müstəqil dövlətimizin tarixində misilsiz rolu barədə elmi-siyasi, publisistik, faktlarla dolğun əsərlərin, topluların geniş oxucu, daha doğrusu, xalq auditoriyasına çıxarılması ilk növbədə mənəvi borcdan irəli gəlirsə, ikinci tərəfdən bu həm də zəngin irsin gələcək nəsillərə çatdırılması istiqamətində vacib amillərdən biridir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Azərbaycanın özü qədər əbədi

**Ümummilli Lider Heydər Əliyev bu gün bizimlə olmasa da, zaman bizi o ağır gündən sürətlə uzaqlaşdırsa da, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri yaddaşlara dərindən hopmuş, hər bir azərbaycanlının qəlbində silinməz iz qoyaraq tariximizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Onun həyat yolunun möhtəşəm salnaməsini vərəqləyərkən göz önündə Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük.**



*“Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur”*

***Heydər ƏLİYEV***

# Sahibkarlıq strategiyasının banisi

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın bütün sahələrində tamamilə yeni dövr başladı, böyük intibahın təməli qoyuldu. Ulu Öndərin təşəbbüskarlığı, əzmkar fəaliyyəti tezliklə Azərbaycanı keçmiş ittifaqın inkişaf etmiş respublikaları sırasına çıxartdı. Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək əslində gələcəyin təməlini qoydu.

1993-cü ildə ölkəmiz çətin sınaqlarla üz-üzə qalanda da xalq yeganə xilaskar kimi Heydər Əliyevi rəhbərlikdə görmək istədi. 26 il əvvəl, iyun ayında Naxçıvandan Bakıya gələn Heydər Əliyev öz zəkası, müdrikliyi və qətiyyəti ilə respublikamızı məhvolmadan xilas etdi, müstəqilliyimizi qorudu və müasir Azərbaycan dövlətinin müəllifinə çevrildi.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

On illik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Heydər Əliyev hakimiyyətə praqmatik və balanslaşdırılmış xarici siyasət kursu ilə gəlmişdi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

Heydər Əliyevin müəyyənləşdirdiyi yeni neft strategiyası nəticəsində Azərbaycanın karbohidrogen ehtiyatlarının dünyanın ən qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında müqavilə imzalandı. “Əsrin müqaviləsi” bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. “Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur” deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını, intellektual resurslarını insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla, sahibkarlığın inkişafına güclü təkan verir.

Ölkə iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, habelə cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda “Sahibkarlar günü” kimi təsis edilmişdir.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Elmi-texniki inqilabın məhsulu olan müasir informasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, insanlar arasında olan mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən də yüksək qiymətləndirilir.

Yaxın günlərdə Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri zamanı Heydər Əliyev Fondu tərəfindən bərpa olunmuş Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yerləşən “Azərbaycan” pavilyonunun onun iştirakı ilə açılışı ölkəmiz üçün tarixi əhəmiyyətə malikdir.

23 noyabr 2019-cu il tarixində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş X Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri də iştirak etmişlər.

Forum çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyası ilə “Opora Rosii” Ümumrusiya Kiçik və Orta Sahibkarlıq İctimai Təşkilatı arasında əməkdaşlığa dair memorandum imzalanıb. Həmçinin Rusiyanın tanınmış mətbuat kommunikasiya qurumu olan “Biznes-Dialoq Media” ilə əməkdaşlıq sazişi də rəsmiləşdirilib.

Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərdə konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr fəal iştirak ediblər.

Tədbir zamanı “Delovaya Rosiya” Ümumrusiya İctimai Birliyi ilə görüş keçirilib və qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub, eyni zamanda Rusiya Federasiyasının Omsk vilayətindən Azərbaycana biznes-missiyanın səfəri barədə razılıq əldə edilibdir.

Konfederasiya üzvləri inanırlar ki, “Azərbaycan” pavilyonunun açılışı çərçivəsində Moskvada keçirilmiş X Azərbaycan-Rusiya Regionlararası Forumu Azərbaycan sahibkarlarına münbit şərait yaratmaqla hər iki ölkənin iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Prezident İlham Əliyev öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: “Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz”. Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

2019-cu il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə ölkə Prezidentinin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur. Ölkə Prezidenti iclasda bildirdi ki, “Bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır”.

Prezident İlham Əliyevin uğurlu il kimi qiymətləndirdiyi 2019-cu ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilir.

Bu ilin on ayı ərzində ümumi daxili məhsulun 3 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 15,0 faiz artması dövlətin apardığı mütərəqqi iqtisadi-siyasətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm addımlardır.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: “Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”.

Görülən işlərə əsasən deyə bilərik ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından əvvəlki illərdən fərqlənən il olacaq. Prezidentin söylədiyi kimi, Azərbaycan bu il də inkişaf yolu ilə gedir.

Aparılmış islahatların nəticələri beynəlxalq hesabatlarda da öz əksini tapmışdır, “Doing Business 2020” hesabatında Azərbaycan ümumilikdə 190 ölkə arasında 34-cü mövqedə qərarlaşıb. Belə ki, Azərbaycan kreditlərin alınması üzrə 1-ci, biznesə başlama üzrə 9-cu, müqavilələrin icrası üzrə 28-ci, vergilərin ödənilməsi üzrə 40-cı, əmlakın qeydiyyatı üzrə 44-cü, müflisləşmənin həlli indikatoru üzrə 47-ci, tikinti üçün icazələrin alınması üzrə 59-cudur. Göründüyü kimi, Azərbaycanın “Doing Business 2020” hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində “Daşınar əmlakın yüklülüyü haqqında” qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklərlə uyğunlaşdırmaların aparılması daha çox səmərə verib.

Bu hesabata görə, Azərbaycan ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasındadır. Üstəlik, Azərbaycandan başqa ilk 25-likdə olan heç bir ölkə top-20 siyahısına daxil edilməyib. Çünki etalona yaxınlaşdıqca ən çox islahat aparan ölkə statusunu qorumaq da çətinləşir.

Aparılan kompleks islahatlar nəticəsində “Doing Business” və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla qeyri-neft sektoruna sərmayə qoyuluşunu asanlaşdırır. Azərbaycan 270 milyard dollardan çox sərmayə cəlb etməklə hər nəfərə düşən sərmayə həcminə görə regionun lider ölkəsidir. Bu ilin ilk 9 ayında da qeyri-neft sektorunda əsas kapitala yönəldilən vəsaitlər 8,9 faiz artaraq 6,3 milyard manatı üstələyib. Sərmayə cəlbinin artması isə həm yeni iş yerlərinin yaradılması, həm də əhalinin sosial rifah halının yaxşılaşdırılması deməkdir.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə çoxalması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Bu tədbirlərdən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. Belə ki, fondun fəaliyyəti dövründə 36 min sahibkara 2,2 milyard manat güzəştli şərtlərlə kreditlər verilmişdir ki, bundan istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minədək yeni iş yerinin açılmasına imkan yaradılmışdır. 2019-cu ilin əvvəlindən bugünədək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 450 milyon manat olan 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən 857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 3800-dək yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye istehsalı və digər sahələrin, 66 faizi regionların, 34 faizi isə Bakı qəsəbələrinin payına düşür.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə edilən uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini quraraq, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi, kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir. Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, İlham Əliyev xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıracaq. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərllik etdiyi 16 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzindədir və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Azərbaycanın tərəqqisi üçün geniş imkanlar açan, həm də bölgəmizin və ümumən Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan “Əsrin müqaviləsi” sazişinin müddətinin 2050-ci ilə uzadılmasına nail olan cənab Prezident İlham Əliyev möhtəşəm bir tarix yazdı.

Bütün yuxarıda göstərilənləri təhlil edərək belə bir məntiqi nəticəyə gəlmək olar ki, Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir. Ulu Öndərin formalaşdırdığı milli dövlətçilik ənənələri qorunur. Onun müdrik ideyaları ölkəmizin gələcəyə yönəlmiş strateji hədəflərini müəyyən edir. Ulu Öndərin Azərbaycanın gələcəyi ilə bağlı böyük ideallarının həyata keçirilməsi indi İlham Əliyevin missiyasıdır. Dövlət rəhbəri öz tarixi missiyasını əzmlə həyata keçirir. Dövlət başçımızın, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında Azərbaycan bəşəriyyətə sevgini, şəfqəti, xeyirxahlığı, maarifi, mədəniyyətlərarası dialoqu, sülh və tolerantlığı aşılayır, ölkələr və cəmiyyətlər arasında mənəvi körpüyə çevrilir.

Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir, bunun təzahürünü daha aydın və dərindən dərk edir. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, əsrlər boyu bu mövzuya müraciət olunacaq və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu Öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycan torpağının adını bütün dünyada uca zirvələrə qaldırmış və özünün şəxsiyyət bütövlüyü ilə doğma vətəni Azərbaycanı bütövləşdirmiş və hər yerdə onu layiqincə təmsil etmişdir.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gercəkliyə cevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub, əsrlər boyu qalacaq və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: “Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır”.

*Ulu Öndərin xatirəsinə ən böyük abidə də elə çiçəklənən, güclənən, qüdrətlənən müstəqil Azərbaycandır!*

*Unudulmaz liderimiz Heydər Əliyevin qoyduğu zəngin irs, ölməz ideyalar bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Ulu Öndərin özünün də dediyi kimi, nə qədər ki, Azərbaycan var, o da olacaqdır. Əminliklə demək olar ki, hazırda Azərbaycanın taleyi etibarlı əllərdədir. Ölkəmiz Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf tariximizin yeni salnaməsi yaranır.*

*Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız və Sahibkarlar Konfederasiyası Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində səlahiyyətləri daxilində əlindən gələni əsirgəməyəcək.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti***

# Heydər Əliyev Fondunun dəstəyi ilə "İncəsənətlə şəfa" rəqs və musiqi qala tədbiri keçirilib





Dekabrın 9-da Heydər Əliyev Mərkəzində əlilliyi olan və olmayan sənətkarların iştirakı ilə "İncəsənətlə şəfa" rəqs və musiqi qala tədbiri keçirilib. Qala tədbir Heydər Əliyev Fondu, UNİSEF və İtaliyanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunub. Tədbirin məqsədi ictimaiyyətə əlilliyi olan və olmayan şəxslər üçün bərabər imkanların yaradılması və inklüziv cəmiyyətin qurulmasının əhəmiyyətini çatdırmaqdır.

AZƏRTAC xəbər verir ki, İtaliyanın "Nazareno" Sosial Kooperativi və "DanceAbility Azərbaycan" İnklüziv Rəqs Şirkəti layihədə iki ölkənin əlilliyi olan və olmayan sənətkarlarını bir araya gətirib. Sənətkarlar özlərini ifadə etməyə imkan yaradan incəsənəti şəfa mənbəyi seçiblər.

Qala tədbirində "Nazareno" Sosial Kooperativi "Scia Scia" orkestrinin çıxışını, "EgoMuto kollektivinin xoreoqrafı İren Straççiatinin quruluşunda "Səyyahlar", "DanzaMobiles" komandasının xoreoqraf Manuel Kanadasın quruluşunda "Sara və Manuel: iki vücud fəzada uzaqlaşma yollarını axtarır" rəqsini, müğənni və pianoçu Silvia Zarunun ifasını təqdim edib.

"DanceAbility Azərbaycan" İnklüziv Rəqs Şirkəti isə xoreoqraf Nigar İbrahimbəylinin quruluşu və rəssam Vüsal Rəhimin tərtibatında "Addım" tamaşasını, həmçinin şirkətin direktoru Nigar Sultanovanın "Əlaqə" meditasiyasını nümayiş etdirib.

"DanceAbility Azərbaycan" İnklüziv Rəqs Şirkətinin direktoru Nigar Sultanova və "Nazareno" Sosial Kooperativinin prezidenti Serxio Vini hər kəsin cəmiyyətdə bərabər hüququ olduğunu qeyd edib, tədbirin əlilliyi olan və olmayan şəxslərin birgə fəaliyyəti üçün faydalı olacağına inandıqlarını bildiriblər.

Layihə çərçivəsində iki ölkənin sənət adamlarının təcrübə mübadiləsi nəticəsində ərsəyə gələn birgə rəqs nömrəsi də təqdim olunub.

# Azərbaycan tələbə-könüllülərinin forumu






Dekabrın 10-da Bakı Dövlət Universitetində (BDU) Beynəlxalq Könüllülər Günü münasibətilə Azərbaycan tələbə-könüllülərinin forumu keçirilib.

Əvvəlcə Təhsil Nazirliyinin tələbə-könüllüləri Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.

Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunan forumun keçirilməsində məqsəd tələbələr arasında könüllülük hərəkatının inkişafına, onların ictimai həyatda fəal iştirakının stimullaşdırılmasına dəstək göstərməkdən ibarətdir.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə tələbələrin könüllülük fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Forumda çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev müasir dünyada təhsilin mühüm rolunu qeyd edib, Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə daim xüsusi önəm verdiyini vurğulayıb.

Rektor könüllülük fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, rəhbərlik etdiyi ali təhsil müəssisəsinin tələbələri də könüllülük proqramının üzvüdürlər. E.Babayev deyib ki, könüllülər arasında formalaşmış münasibət ancaq uğurlu gələcəyə istiqamətlənib.

Təhsil naziri Ceyhun Bayramov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edib, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini deyib.

Nazir bu gün savadlı və hazırlıqlı, innovativ texnologiyalara dərindən yiyələnən, milli dəyərlərə sahib, qloballaşan dünyanın çağırışlarına hazır olan gənc nəslin yetişdirilməsinin Azərbaycan təhsilinin başlıca hədəfi olduğunu vurğulayıb.

Təhsil Nazirliyi tərəfindən reallaşdırılan çoxsaylı layihələr içərisində "Bir" Tələbə-Könüllü Proqramının mühüm yer tutduğunu bildirən nazir qeyd edib ki, son illərdə ölkəmizdə keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin təşkilində tələbə-könüllülərin fəaliyyəti danılmazdır. "Bir" tələbə-könüllüləri beynəlxalq tədbirlərin uğurla keçirilməsinə öz töhfələrini verirlər. Bu isə öz növbəsində növbəti illərdə Azərbaycanda keçiriləcək ölkə və beynəlxalq miqyaslı tədbirlər üçün keyfiyyətli və təcrübəli könüllülər ordusu deməkdir.

C.Bayramov Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində gənclərlə bağlı söylədiyi fikirlərə xüsusi diqqət çəkib və bildirib ki, hər bir gənc vətənpərvərlik dəyərlərinə önəm verməli, rəqabətqabiliyyətli peşəyə yiyələnməyi özünə əsas prioritet olaraq müəyyənləşdirməlidir.

Təhsil naziri tələbə-könüllülərə uğurlar arzulayıb.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti könüllülərin fəaliyyətini yüksək dəyərləndirib.

"Bir" Tələbə-Könüllü Proqramı BMT-nin İnkişaf Proqramının Dayanıqlı İnkişaf Məqsədlərini dəstəkləyən və könüllülüyü uğurla təbliğ edən ən böyük tələbə-könüllü platforması olduğuna görə Alessandro Frakassetti tərəfindən mükafatlandırılıb.

Tədbir çərçivəsində "Bir" Tələbə-Könüllü Proqramının hesabatı təqdim olunub, həmçinin ilin ən fəal tələbə-könüllüləri mükafata layiq görülüblər.

Tədbir könüllülərin himninin ifası ilə başa çatıb.

Forum Təhsil Nazirliyi və "Bir" Tələbə-Könüllü Proqramının təşkilatçılığı, BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin tərəfdaşlığı ilə keçirilib.

"Bir" Tələbə-Könüllü Proqramı ölkəmizin inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, müvafiq fəaliyyəti stimullaşdırmaq üçün yaradılan uzunmüddətli proqramdır. Hazırda 26 ali və 18 orta ixtisas təhsili müəssisəsini əhatə edən proqram 23 mindən artıq könüllü bazasına sahibdir.

***AZƏRTAC***

# DSX-nin hərbi hissə və bölmələrində Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb





Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində xalqımızın xilaskarı, müasir müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbirlər keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev İdeoloji mərkəzlərində dahi şəxsiyyətin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən çoxsaylı foto-ekspozisiya ilə tanış olub və büstü önünə gül dəstələri qoyublar.

Tədbirlərdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açıb, tarixə öz adını əbədi həkk etmiş fenomen şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilən, vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən bəhs ediblər.

Dahi Öndərin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirlərdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanıb. Ulu Öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissilə vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu xüsusi qeyd edilib. Tədbirlərin sonunda Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.



## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Bələdiyyə seçkiləri ilə əlaqədar dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara başlanılıb

Mərkəzi Seçki Komissiyası qarşıdan gələn 23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində müxtəlif istiqamətli layihələri davam etdirir.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 10-dan etibarən növbəti mühüm layihəyə - dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara start verilib. Tədbir dairə seçki komissiyalarının İT mütəxəssislərini Dövlət Avtomatlaşdırılmış İnformasiya




Sistemi və onun yenilənərək daha da təkmilləşdirilən imkanları barədə ətraflı məlumatlandırmaq, sistemin proqram təminatlarından praktiki istifadə etmək, həmçinin İT mütəxəssislərini maraqlandıran məsələlərə əyani şəkildə aydınlıq gətirmək məqsədi daşıyır. Seminarlar zamanı dairə seçki komissiyalarının İT mütəxəssislərinə bələdiyyə seçkiləri günü seçicilərin fəallığı və səsvermənin nəticələrinə dair protokol məlumatlarının birbaşa MSK-ya ötürülməsi üçün hazırlanan xüsusi proqram modullarından test rejimində istifadə etməyə imkan yaradılacaq ki, bu da onların praktiki biliklərini, peşəkar vərdişlərini və iş təcrübələrini daha da artıraraq, səsvermə günü sistemdən dəqiq və rahat istifadəni təmin edəcək.

Bələdiyyə seçkilərinin yüksək səviyyədə hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində son maarifləndirmə layihələrindən olan dairə seçki komissiyalarının İT mütəxəssisləri üçün seminarlar dekabrın 11-də başa çatacaq.

# Dünya miqyasında rekord göstərici

*Əvvəli 1-ci səh.*

Məqsəd özəl sektoru ölkənin sənayeləşməsinə cəlb etməklə uğurları daha da artırmaqdır. Cari ilin yanvar-oktyabr aylarında əsas kapitala yönəldilən ümumi vəsaitin 49,4 faizinin sənaye müəssisələrinin qurulmasına sərf edilməsi də bununla bağlıdır.

Prezident İlham Əliyev ölkədə həyata keçirilən islahatlar sayəsində qeyri-neft sənayesində əldə edilən nailiyyətləri dəyərləndirərək demişdir: "Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər".

Bu ilin yanvar-oktyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan malların və göstərilən xidmətlərin həcmi 1,4 faiz artaraq 38,1 milyard manat təşkil edib. Dövlətin bu sektorda sahibkarlığın inkişafına verdiyi dəstək sayəsində sənayedə qeyri-dövlət sektorunun payı 82,3 faiz olub. Ümumi istehsalın 88,8 faizi sənaye məhsullarının istehsalı, 11,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.



Mədənçıxarma sənayesinin əsas məhsulu olan xam neftin əmtəəlik hasilatı 31,1 milyon ton, əmtəəlik təbii qazın hasilatı 19,9 milyard kubmetr təşkil edib. Bu dövrdə neft hasilatı 3,3 faiz azalsa da, qaz hasilatı 27,8 faiz artıb.

Emal sənayesində hesabat dövründə 9452,6 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib. Ötən ilin eyni dövrü ilə müqayisədə tütün məmulatları istehsalında 67,6, içki istehsalında 39,5, qida məhsullarının istehsalında 13,9 faiz artım müşahidə edilib.

Hesabat dövründə ötən ilin müvafiq dövrü ilə müqayisədə toxuculuq sənayesində 37, geyim istehsalında 12 faiz artım, ayaqqabı istehsalında azalma olub.

Ölkə sənayesində mühüm yer tutan kimya sənayesi 10 ay ərzində özünün istehsal tempinə görə fərqlənir. Bu sahədə hesabat dövründə 826,7 milyon manatlıq məhsul istehsal edilib ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 26,5 faiz çoxdur. Bununla yanaşı, rezin və plastik kütlə məmulatları istehsalında 22,7, əczaçılıq məhsulları istehsalında 20,8 faiz artım qeydə alınıb.

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 203,8 milyon manatlıq məhsul istehsal olunub. Bu, keçən ilin yanvar-oktyabr ayları ilə müqayisədə elektrik avadanlıqları istehsalının 6,8 faiz artması deməkdir. Bununla yanaşı, kompüter, elektron və optik məhsullarının istehsalı 37,1, avtomatik tənzimlənmə və idarəetmə üçün cihaz və aparatların istehsalı 71,6, məişət soyuducularının istehsalı 25,2 faiz artıb.

Hesabat dövründə maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahəsində 227,5 milyon manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 4,5, sair nəqliyyat vasitələrinin istehsalı 10,8, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 30,7 faiz artıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalının gəlmə zalında 2 elektron qapı quraşdırılıb

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 20 fevral tarixli 2677 nömrəli sərəncamına əsasən dövlət sərhədindən hərəkət edən şəxslərin sənədlərinin daha operativ və sürətlə rəsmiləşdirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrində yeni texnologiyaların tətbiqi davam etdirilir.

Bu məqsədlə Dövlət Sərhəd Xidmətinin (DSX) təşəbbüsü ilə pilot layihə olaraq Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalının gəlmə zalında yeni 2 ədəd elektron qapı (e-gates) quraşdırılıb.

Bir sıra inkişaf etmiş ölkələrin dövlət sərhədindən buraxılış məntəqələrində istifadə olunan elektron qapılar sərhəd nəzarətində tətbiq olunan qabaqcıl tex-



nologiyaların ən effektiv nümunələrindəndir.

Elektron qapıdan yalnız 16 yaşı tamam olan, biometrik sənədlərə malik Azərbaycan vətəndaşları istifadə edə biləcəklər.

Vətəndaşlar elektron qapılar vasitəsilə sərhəd nəzarətindən aşağıdakı ardıcıllıqla keçə biləcəklər:

- dövlət sərhədindən hərəkət edən vətəndaş sənədlərini elektron qapının skan yerinə daxil edir.
- sənədin məlumatları və vətəndaşın elektron qapıda çəkilmiş biometrik fotoşəkli avtomatik məlumat bazasına daxil olur, məhdudiyyət siyahıları ilə yoxlanılır və pozuntu olmadığı halda vətəndaş 30 saniyə ərzində dövlət sərhədindən avtomatik buraxılır.
- vətəndaşın sənədi və ya məhdudiyyəti ilə bağlı pozuntu aşkarlandıqda sistem siqnal verir.

206 ölkənin 2897 növ biometrik sənədini yoxlaya bilən elektron qapılar şəxslərin dövlət sərhədindən sürətli keçidini, sərhəd nəzarətinin daha effektiv həyata keçirilməsini təmin etməyə imkan verəcək.

***"Azərbaycan"***

# BTC bütün regiona xeyir-bərəkət gətirir

Əvvəli 1-ci səh.

2006-cı ilin ortalarında tam sistem kimi istifadəyə veriləndən bu il oktyabrın əvvəlinədək BTC ilə ümumilikdə 3,3 milyard barel (440 milyon tona yaxın) xam neft ixrac edilib. Bu neft Ceyhanda 4307 tankerə yüklənərək dünya bazarlarına yola salınıb.

Bu günə qədər isə boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql olunub. Bu həcmin böyük hissəsini - 400 milyon tondan çoxunu təbii ki, Azərbaycan nefti təşkil edir. Kəmər eləcə də 27 milyon ton Türkmənistan, 12 milyon ton Qazaxıstan və 7 milyon ton Rusiya nefti daşıyıb.

Hazırda Azərbaycanda, Gürcüstanda və Türkiyədə BTC-nin keçdiyi ərazilərdə şaxta hökm sürür və onların çox hissəsi qarla, buzla örtülüb. Buna baxmayaraq, kəmərin bütün yerüstü obyektləri maneəsiz işləyir. BTC-nin boruları torpağın altında basdırıldığından və möhkəm izolyasiya olunduğundan onların da qışdan qorxusu yoxdur.



Xatırladaq ki, üç tranzit ölkə boyu BTC-nin 8 nasos stansiyası (2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü Türkiyədədir) və 98 siyirtmə məntəqəsi var. Boru xətti Ceyhanda dəniz səviyyəsinə enməzdən əvvəl dağlarda 2830 metrlik ən yüksək nöqtəsinə qalxır. Kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsindən keçir, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətləri ilə, yüzlərlə su hövzəsi ilə kəsişir.

Uzunluğu 1768 kilometr olan BTC-nin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Kəmərin boruları əsasən 42 düymdür. Coğrafi vəziyyətdən asılı olaraq xəttin bəzi hissələri 46 və 34 düymlük borularla çəkilib.

BTC həm də Azərbaycanın enerji ixracı marşrutlarının dünyaya şaxələnən yollarının başlanğıcında dayanan layihədir. İstər 13 il əvvəl fəaliyyətə başlayan Bakı-Tbilisi-Ərzurum qaz kəməri, istərsə də gələn il çəkilişi tam başa çatacaq "Cənub qaz dəhlizi" məhz BTC-də toplanmış təcrübəyə əsaslanır.

Prezident İlham Əliyev bütün bunları dəfələrlə vurğulayıb. Bu yaxınlarda TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) Avropa ilə birləşən hissəsinin açılış mərasimində dövlət başçısı BTC-nin əhəmiyyətini bir daha qeyd edib: "2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft boru xəttini istismara verdik... Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir".

BTC fəaliyyət göstərdiyi 13 ildən çox müddət ərzində bilavasitə gətirdiyi gəlirlərlə və tikintisinə başlandığı vaxtdan indiyədək dolayısı ilə, yəni keçdiyi ərazilərdə yönəldilən sosial sərmayələrlə bütün regiona xeyir-bərəkət bəxş edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Port Baku Mall"da "Gingerbread City" adlı sərgi açılıb



"Port Baku Mall"da un məmulatlarından hazırlanmış şirin zəncəfilli şəhərcik təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Bakının əsas görməli yerlərinin miniatür versiyaları, o cümlədən Heydər Əliyev Mərkəzi, Qoşa Qala qapısı, "Flame Towers", Qız qalası, "Şeytan çarxı", Teleqüllə, Azərbaycan Milli Xalça Muzeyi, həmçinin kiçik evlər, karusel və hətta ədvalı xəmirdən hazırlanmış təyyarə və gəmi də yer alıb. Hər il Avropanın müxtəlif şəhərlərində zəncəfilli pryaniklərdən evlər ucaldılır, Azərbaycanda "Gingerbread City" isə ilk dəfədir sərgilənir. Layihənin ideyası "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudovaya məxsusdur.

Şirniyyat inşaat sənayesi şəhərcikdə qənnadı məmulatlarından hazırlanmış "Gingerbread" insanların Yeni il alış-verişi etmələri üçün işıqlı oyuncaq mağazaları və kiçik şirniyyat dükanlarına qədər real sosial infrastrukturu yaradıb. Şirniyyat şəhərciyinin əsas arxitektoru isə Rəşad Ələkbərovdur. Şəhərçikdə 80 ev, 77 marsipandan şam ağacı, 43 pryanik şam ağacı və 17 bayram xizəyi yerləşdirilib, küçələrdə isə yüzlərlə qənnadı məmulatlarından hazırlanmış insanlar gəzişir - şəhərciyin inşasında 50 kq un və 10 kq şəkərdən hazırlanmış 100 kq xəmir istifadə olunub. Bir ay ərzində "Le Plaisir"in on şirniyyatçısı yorulmadan işləyib və pryanikləri bəzəyiblər. Ədvalı şəhərciyin tərtibatına 200 kq marsipan, çoxlu şokolad, makarun, şirə, marmelad və rəngbərəng M&Ms konfetləri istifadə olunub.

Layihə "Nargis" nəşriyyat evi tərəfindən "Formula 1", "Azərbaycan Hava Yolları" (AZAL), "Chenot Palace Hotel", "Qafqaz Tufandag Mountain Resort Hotel", "Bee Goddess", "Caspian International Hospital", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO), "iTicket", "Berg", "150 Bar & Grill", Ay Qonşu, Bank Respublika, Coca-Cola, "Etage Celebrity Point by Elnur Həsənov", "Pasha Travel", "Le Plaisir", Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası (ANiiA), "ANC GROUP MMC" - "Rahat" supermarket, Aytən Səfərova Sonsuzluq Mərkəzi, "Soyuq əllər, isti ürək", "Elux Events Hall", "Port Baku Mall" və "Gazelli House Baku"nun dəstəyi ilə həyata keçirilib.

Sərgidə sponsorlar və "Nargis" nəşriyyat evinin dostları iştirak edib. Dadlı miniatürlərin hazırlanma prosesi "time-lapse" formatlı videoda müşahidə olunub . Sərgi yanvarın 13-nə qədər açıq olacaq, səhər saat 10-dan axşam saat 10-a qədər onu ziyarət etmək mümkündür. Giriş sərbəstdir. Şəkərli küçələrin fotolarını sərbəst olaraq çəkib sosial şəbəkələrdə #nargisgingerbreadcity həştəqi ilə paylaşmaq olar.



# "Bakutel-2019" - gələcəyə səyahət məkanı

Əvvəli 1-ci səh.

Sərgidə Las-Veqasdan Pepper humanoid robotu görəcək, robot balıqlara heyran qalacaq, dünyaca məşhur Robot rəssamla görüşəcək, müxtəlif Sumo, Güləş və Dron yarışlarına aludə olacaq, kosmozonaya ayaq basacaq, 6 metrlik uçan astronavtı gələcəyin sürprizi kimi qəbul edəcəksiniz.

Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaonun dünya liderlərinin hamısından çox Azərbayan Prezidenti ilə görüşməsi onu təsdiq edir ki, ölkəmiz innovasiyalara, yeni texnologiyalara açıqdır. Qısa zaman kəsimində Azərbaycanın möhtəşəm islahatlar keçirərək kosmik sənayeni qurması nadir ölkələrin qismətinə yazılan uğurdur. Bu baxımdan "Bakutel-2019" Azərbaycanın müasir dünyaya, yeni texnologiyalara və beynəlxalq iqtisadi əməkdaşlığa açıq ölkə olduğunu sübut edən mühüm amildir.

Prezident İlham Əliyev "Bakutel"i beynəlxalq iqtisadi əməkdaşlığın yaxşı göstəricisi sayır və qeyd edir ki, sərgiyə ildən-ilə maraq artır: "Düşünürəm ki, biz İKT sektorunda çox yaxşı inkişafa nail olmuşuq və bu sektor bizim ölkənin əsas prioritetlərindən biri olaraq qalır. Çünki o, çoxlu yeni ideyalar yaradır, yeni texnologiyalar gətirir, ölkəmizi müasirləşdirməyə yardım edir".

Haulin Jao Azərbaycanda İKT-nin sürətli inkişafını etiraf etmişdir: "Bütün digər ekosistemləri əhatə etmək üçün çoxlu yeni İKT tətbiqləri artıq var və onlar bütün ekosistemlər üzrə geniş yayılıb. Təkcə bu il "Bakutel"də nəinki daha çoxsaylı ölkələrin iştirak etdiyini, həmçinin çoxlu yeni məhsulları və yeni tətbiqləri görürəm. Məsələn, mən sərgidə gördüm ki, "məlumatların böyük həcmi" haqqında geniş söhbət gedirdi, süni intellekt məhsulları haqqında çoxlu danışdılar. Bunlar bir-birindən fərqlənir. Həmçinin bu gün buraya gəlməzdən əvvəl mən gənclərin hazırladıqları stendlərlə tanış oldum. Onlarla müəyyən ünsiyyətim oldu və bu uşaqların çox istedadlı olduqlarını aşkar etdim".

Rusiyadan Nikolay Yakovlev "Arrow Electronics" (Rusiya) şirkətinin meneceri sərginin maraqlı və dolğun olduğunu etiraf edir: "Burada komponent və həll variantlarının ən müxtəlif istehsalçı və distribütorları təmsil olunub. Sevindirici haldır ki, Azərbaycanda İKT üzrə xeyli xidmət və həll variantları mövcuddur. Təmsil etdiyim şirkət dünyada aparıcı yerlərdən birini tutur və mən Azərbaycan bazarındakı vəziyyəti və aparıcı istehsalçılar, yerli şirkətlər, mobil rabitə operatorları, baza stansiyaları və kosmik sahədə fəaliyyət göstərən şirkətlərlə mümkün əməkdaşlıq yollarını öyrənmək məqsədi ilə "Bakutel-2019" sərgisinə gəlmişəm... Sərgi bu baxımdan mənə kifayət qədər faydalı məlumat verdi".

Əhməd Eyyubov "E-gov" layihəsini təmsil edən informasiya texnologiyaları üzrə mütəxəssis kimi sərginin üstünlüyünü peşəkarları bir araya gətirməsində görür: "Robotlar sərgisini çox bəyəndim, onların həyatımızda və cəmiyyətdə tətbiqi ilə maraqlandım. Təqdim edilən 5-ci nəsil texnologiyalar böyük maraq doğurur. Mən iştirakçılar arasında yeni nəsil avadanlıq və texnologiyaları təqdim edən daha çox şirkəti görmək istərdim".

Niderland Krallığından "Irdeto" şirkətinin təmsilçisi Konstantin Burıkin kibertəhlükəsizlik və "ağıllı ev" sahəsində layihələndirmə, tətbiq və həll variantları ilə məşğul olduqlarını deyir: "Biz telekommunikasiya sahəsi üçün məlumatların qorunması üzrə həll variantının satışını da həyata keçiririk. Sərgini ziyarətimin əsas məqsədi cari sifarişçilərlə görüşməkdir. Sərgi işgüzar ünsiyyət üçün ən yaxşı məkandır. Bir platformada xeyli insanla görüşmək mümkündür. Bu da hazırkı tədbiri iş adamları üçün vacib və maraqlı edir. Mən "Bakutel-2019" sərgisində konkret zonalara düşünülmüş şəkildə diqqət yetirilməsini bəyəndim. İnsanlar və şirkətlər kateqoriya formalaşdırır və maraq zonası yaradır. Buna görə də iştirakçılar tərəfdaş, sifarişçi və uğurlu müştəri olmaq fürsətinə malikdirlər".

"Oracle" şirkətinin Mərkəzi Asiya və Qafqaz üzrə regional direktoru Dmitri Smirnov məlumatların emalı və saxlanması üzrə kompleks məlumat bazalarının aparıcı istehsalçısı olduqlarını, Azərbaycan bazarında uzun müddət fəaliyyət göstərdiklərini və sərgidə bir sıra yeniliklərlə yanaşı, "ağıllı şəhər" üzrə idarəetmə sisteminin robotlaşdırılmış modelini nümayiş etdirdiklərini bildirdi: "Sərgi populyarlığa və əhəmiyyətli nəticələrə nail olub. Mən yaxşı təşkilatçılığı və Ekspo Mərkəzin pavilyonlarında hakim olan ümumi isti ab-havanı qeyd etmək istəyirəm. Biz burada aparıcı qlobal və yerli şirkətlərin nümayəndələrini görürük. Ən əsası isə ziyarətçilərin marağı bizi sevindirir. İKT cəlbedici istiqamətdir və gələcək onunla bağlıdır".

Bir sözlə, "Bakutel-2019" sərgisi ölkə iqtisadiyyatının inkişafına təkan verə bilən intellektual tutuma malikdir. Burada sərgilənən yeni texnologiyaların, ağlasığmaz ideyaların, innovativ layihələrin xeyli sayda insana, o cümlədən iş adamlarına və sektorun peşəkarlarına verə biləcəyi töhfələr sonsuzdur. Bu o deməkdir ki, "Bakutel-2019" həm iştirakçı şirkətlərin, həm də sərginin inkişaf perspektivlərini nümayiş etdirən əla platformadır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "mətbəə və çap məhsullarının" kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 10 dekabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Nur-SS" MMC qalib elan edilmiş və 10 dekabr 2019-cu il tarixində müqavilə imzalanmışdır.

Ünvan: AZ1005, Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "İdarədə işlənən digər malların" kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 10 dekabr 2019-cu il tarixli yekun protokoluna əsasən "Kəmər-Qaya" MMC qalib elan edilmiş və 10 dekabr 2019-cu il tarixində müqavilə imzalanmışdır.

Ünvan: AZ1005, Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Firudin Məsməliyev.Telefon: (+99412) 497-41-66

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi digər maşın və avadanlıqların və azqiymətli avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 2019-cu il 13 dekabr saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən " Azərbaycan" qəzetinin 03 oktyabr 2019-cu il tarixdə dərc edilmiş elanlar ilə əlaqədar bildiririk ki, 04 noyabr 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə "Əmək müqaviləsi bildirişləri altsisteminin təkmilləşdirilməsi" üzrə xidmətlərin satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "AISTGROUP" MMC elan edilmiş və 02 dekabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsi reklam lövhələrinin satın alınması üçün *kotirovka sorğusu elan edir*

Təkliflər 13 dekabr 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 43 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsinə təqdim olunmalıdır. Zərflər 16 dekabr 2019-cu il saat 10:00-da Z. Bünyadov prospekti, 43 ünvanında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsinin binasında açılacaqdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu: 012-563-55-28**

***Tender komissiyası***


# İngilislərin Bakıdakı monitorinqləri davam edir

Bu ilin iyul ayından paytaxtın Nərimanov rayonunda Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən Böyük Britaniyanın Mott MacDonald şirkəti ilə birgə hazırlanmış yeni pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin icrası həyata keçirilir.

Görülən işlərin yüksək səviyyədə aparılması nəticəsində bu sahədə keçən müddət ərzində xeyli irəliləyişlər əldə olunub. Vətəndaşlarla aparılan maarifləndirici tədbirlər öz bəhrəsini verməkdədir. Nərimanov rayonunda yaradılan 400 ədəd konteyner meydançasında tələbata uyğun miqdarda yeni, müasir konteynerlər yerləşdirilrb. Sanitar-gigiyena tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.



Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən yaradılan Monitorinq Mərkəzində növbəti dəfə Bakıya ezam olunmuş Mott MacDonald şirkətinın nümayəndəsi - Tullantı Menecmenti məsləhətçisi Nik Wilson ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya çərçivəsində indiyədək görülən və nəzərdə tutulan işlər barədə ətraflı məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

Bildirildi ki, tullantıların kompozisiyasının araşdırılmasının təkrarlanması əldə edilən təkrar emal tullantılarının nisbətinin dəqiq öyrənilməsi üçün vacibdir. Kompozisiya araşdırılmasının təkrarlanması hər dəfə nəticələrin dəqiqləşdirilməsi üçündür və hər 2-3 aydan bir təkrarlanması nəzərdə tutulub. Onların bu gəlişi də nəticələri araşdırmaq, növbəti mərhələyə hazırlıq məqsədi daşıyır. Hər gün konteynerlər yoxlanılır, onların yerləşmə strukturu müzakirə olunaraq optimal variant tapılır, ümumi planda dəyişiklik edilərək mövcud vəziyyətə uyğunlaşdırılır.

Mott MacDonald şirkətinin nümayəndəsi kommunal xidmətlərin işini yüksək qiymətləndirərək layihənin müvəffəqiyyətlə həyata keçirilməsini qeyd etdi və yaxın vaxtlatda digər rayonların da bu layihəyə qoşulacağını bildirdi.

Layihənin həyata keçirildiyi Nərimanov rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Elçin Həşimov bildirmişdir ki, əgər layihənin icrasinin ilk vaxtlarında gündəlik olaraq 6-7 ton təkrar emala gedən tullantı yığılırdısa, hazırda bu rəqəm 25 tona çatıb. İyul ayından bugünə kimi artıq 10 monitorinq keçirilmiş və hər dəfə müsbət irəliləyişlər qeydə alınmışdır. Gələn ilin aprelindən mərhələli qaydada daha 3 rayonun - Nizami, Yasamal və Nəsimi, sonrakı illərdə isə digər rayonların da mərhələli şəkildə bu layihəyə cəlb olunması nəzərdə tutulur.

Bildirildi ki, bu gün ətraf mühitin çirklənmədən qorunması çox mühüm əhəmiyyət kəsb edir və bizim layihə onun tərkib hissəsidir. Nəzərdə tutulan işlərin uğurla həyata keçirilməsi Bakı şəhərini aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdıracaq, həm ətraf mühitə böyük müsbət təsir göstərərək, həm də Bakı şəhəri üçün iqtisadi faydalar verəcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider



**Ramiz MEHDİYEV,**
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Mənim üçün müasir Azərbaycanın inkişaf tarixi ilə bağlı açıq suallar qalmayıb. Ölkənin ümdə problemlərinin həllində iştirak etməli olanlar qeyri-ordinar transformasiyaların şahidlərinə çevrilir, ən mühüm məqamları gözləri ilə görmək və onun həqiqi miqyasını real zaman rejimində qiymətləndirmək imkanı əldə edirlər. O zaman istər-istəməz inanırsan ki, insanın quruculuq istedadının bənzərsizliyi mahiyyət etibarilə heç də təsadüfi deyil.

Quruculuq istedadı özünü həmişə göstərir - gündəlik münaqişələr, böhranlar, hadisələrin mürəkkəb gedişi burulğanında da, həyati məsələlərdə də. Labüd olaraq adilik mənzərəsi yaradan ilk təəssüratların effekti göz qabağında geri çəkilir, realist idraka geniş meydan verir.

Həssas və mahir loğman adlandırılan zaman keçmişə nəzər salmağa məcbur edir. Ötən günlərin səciyyəvi xüsusiyyətlərinin hərtərəfli təhlili həmvətənlərimizin hər birini olub-keçənlərə bir növ yekun vurmağa, ibrətamiz mübarizə praktikasına və qalib gəlmək məharətinə sövq edir.

Bu material Azərbaycanın dövlət başçısı vəzifəsində böyük siyasi xadim və görkəmli dövlət xadimi Heydər Əliyevi əvəz etmiş Prezident İlham Əliyev haqqında kitabın bir fəslidir. 2003-cü ilin oktyabr ayında növbəti prezident seçkilərindən bir qədər əvvəl Ümummilli Lider öz namizədliyini varisi İlham Əliyevin xeyrinə geri götürdü.

İnkişafın yüksək tempi və innovasiyalılıq ilə səciyyəvi olan XXI əsrin post-sənaye dövrü səhv etməyə şans vermir. Buna görə də Azərbaycan xalqı müstəsna düzgün seçim etməli idi. Bu seçim yeni, dünyada bərqərar olmamış şəraitdə Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanmış işi davam etdirməyə imkan verməli idi.

2003-cü il oktyabrın 15-də belə bir seçim edildi - İlham Əliyev Azərbaycan Prezidenti seçildi.

İlham Əliyevin həll etməli olduğu məsələlər çox genişmiqyaslı idi. Onlar Heydər Əliyevin fəaliyyətinin yekunları ilə müəyyən olunurdu - dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi artımın yüksək sürətinin təmin edilməsi və yeni iş yerlərinin yaradılması, xalqın sosial rifah səviyyəsinin yüksəldilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi yolu ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, xarici siyasət sahəsində milli maraqların təmin edilməsi və heç şübhəsiz, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və s.

Qarşıya qoyulmuş hədəflərə nail olmağa şərait yaradılması üçün dövlət başçısı, ilk növbədə, həm onun həmməsləklərinə, həm də ölkənin bütün vətəndaşlarına aydın olan müvafiq dövlət idarəçilik sistemi formalaşdırmalı idi.

Yeni dövlət başçısının qarşısında labüd olaraq Azərbaycanın gələcək inkişaf vektorunun müəyyən edilməsi, ölkəni inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmalı olan müvafiq məsələlərin formalaşması kimi mürəkkəb vəzifələr dururdu. Nəzərdə tutulan planların icrası üçün kreativ komanda formalaşdırmaq tələb olunurdu. Bu komanda idarəetmə sistemində innovasiyalı texnologiyalar tətbiq etməklə ölkədə “informasiya cəmiyyəti”nin inkişafına güclü təkan verməli idi. Bu o demək deyildir ki, yeni Prezident əvvəlki Prezident Heydər Əliyevin kadrları ilə işləmək istəmirdi. Ağıllı dövlət başçısı bu fürsəti əldən verməz və məhz təhsilli, təcrübəli, istedadlı, xalqın həqiqi mənafelərini müdafiə edən kadrları öz tərəfinə çəkər. Buna görə də Heydər Əliyevdən sonra kim prezident olsa, onun taleyi əvvəlki dövlət başçısının kadrlarına münasibətdən asılı olacaqdı.

Etiraf etmək lazımdır ki, yeni minilliyin əvvəlində Azərbaycanın üzləşdiyi təhdidlər İlham Əliyevdən Ümummilli Lider Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursunu davam etdirmək üçün zəruri olan xüsusi, demək olar ki, müstəsna qabiliyyətlər tələb edirdi. Heydər Əliyevin prezidentlik dövrünün tarixi göstərir ki, Azərbaycan şəraitində transformasiyalar təkamül yolu ilə və dərk edilmiş inkişafa əsaslananda səmərəli olur.

Qloballaşma proseslərinin fəallaşdığı şəraitdə Azərbaycanın inkişafı ilə bağlı genişmiqyaslı planları yalnız həqiqi siyasi liderlər həyata keçirməyə qadir idi. Bununla bərabər, siyasət olimpinə təsadüfən gəlib çıxmış insanların özlərindən sonra xarabalıqlar qoyub getməsi nümunələri tarixdə çox olub. Bu baxımdan, özlərindən sonra yalnız dağıntı və qanlı izlər qoyub getmiş Neron, İdi Amin, Pol Pot və bir sıra başqa tiranları xatırlamaq kifayətdir.

Bu və ya digər səbəblər üzündən peşəkarlıq baxımından yararsız insanlar dövlət sükanı arxasına keçəndə nələr baş verdiyini yəqin etmək üçün XX əsrin 80-ci illərinin sonunda və 90-cı illərinin əvvəlində Azərbaycan xalqının da imkanı olub. O vaxt məsuliyyətsiz və avantürist rəhbərlərin əməlləri nəticəsində ölkə dərin siyasi və sosial-iqtisadi böhranla üzləşdi, uçurum qarşısında qaldı.

XXI əsrin əvvəlinin reallıqları, dövlətin inkişafının yeni mərhələsində onun qarşısında duran mürəkkəb məsələlər tamam başqa tipli siyasi lider tələb edirdi. Müasir cəmiyyətin və yeni tipli siyasi liderin dialektikasını əvvəlki dünyabaxışı yanaşmaları və köhnə nəzəriyyələr əsasında anlamaq mümkün deyil. Müasir siyasi lider əvvəlki dövrlə müqayisədə daha incə və mürəkkəb məsələləri həll etməlidir. O, insanların psixikasından daha çox onların zəkasına təsir göstərməli və onları təkcə praktiki məsələlərin həlli üçün səfərbər etməklə kifayətlənməməlidir. O, xalq kütlələrinin mənafelərini demokratiya ilə birləşdirmək, öz nümunəsi və sözü ilə milləti birləşdirmək, onda quruculuq və vətənpərvərlik ruhu formalaşdırmaq qabiliyyətinə malik olmalıdır. Yeni siyasi lider irəli çəkiləndə deyil, əhalinin əksəriyyəti tərəfindən qəbul ediləndə sosial dəyər kəsb edir, əmin olur ki, dövlətin mənafeləri onun praktiki işi olacaq. Bu isə siyasi liderin dünyagörüşündən, zehni qabiliyyətindən və praktiki fəaliyyətindən, Vətənin taleyi üçün məsuliyyətindən, onun praktiki ideyalarının insanların qəlbinə nə dərəcədə yol tapmasından asılıdır.

İlham Əliyevin 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqi hələ yaddaşlardan silinməyib. O, həmin nitqində demişdi: “Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”. [1]

Ötən 16 il göstərdi ki, İlham Əliyev siyasi-iqtisadi varislik yolunu, əvvəlki onillikdə Heydər Əliyevin nail olduqlarını rəvan, sabit şəkildə inkişaf etdirmək və artırmaq yolunu seçib.

Azərbaycan xalqı öz xilaskarı Heydər Əliyevə sadiq qaldı. Ölkə dinamik inkişafını davam etdirdi. Əlavə tədbirlər sayəsində prezidentlik institutu möhkəmləndi, daxili siyasət və ictimai həyat sahəsində ölkə vətəndaşları tərəfindən yüksək etimad əldə edildi. İctimai təsisatların hüquqi və təşkilati baxımdan təsbit olunması ölkədə sabitliyin bərqərar olmasını təmin etdi. Pozucu müxalifətin ölkədə xaos, hərc-mərclik yaratmaq, bununla da respublikada normal əmək ritmini pozmaq cəhdləri tamamilə puç oldu, bu cəhdlərin gələcəkdə dirçəlməsinə heç bir ümidi qalmadı. Ölkə ümumi inkişafa doğru aparan yola inamla qədəm qoydu.

Yeni minilliyin ikinci onilliyi xalqların həyatının bütün sahələrini əhatə edən ciddi transformasiyalarla əlamətdardır. Yeni tipli cəmiyyət formalaşdırmaq problemlərinin həllinə əvvəlki yanaşmaların potensialı tükənib. İndi güclü inkişaf üçün stimul yaradan yeni, innovasiyalı metodlar və mənbələr tələb olunur. Baş verən qlobal dəyişikliklər əhalidən və ölkənin ayrı-ayrı vətəndaşlarından mütəşəkkillik, intizam və səmərəli iqtisadi forma və dəyərlər axtarışını tələb edir. Bu dəyərlər dövlətin rəqabət qabiliyyətini təmin etməlidir.

Bu hədəflərə nail olmağın lokomotivi qismində vətəndaşlar özləri çıxış edirlər. Onların intellektual səviyyəsi və yaradıcılıq qabiliyyəti yeni dəyişikliklərə uyğun olaraq təkmilləşməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycan müasir dövrün diktə etdiyi məsələlərin həlli üçün nadir imkanlara malikdir.

İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın həyatında keyfiyyətcə yeni mərhələ başlanır. Prezident İlham Əliyev öz vəzifələrinin icrasına başlayanda “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” (noyabr 2003), “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının dövlət proqramının təsdiq edilməsi haqqında (2004-2008)” (fevral 2004) fərmanları ilə ölkənin sosial-iqtisadi inkişafının sürətini müəyyən etdi. Məhz bu fərmanlar ölkənin inkişafı ilə bağlı problemlərin yeni, innovasiyalı dərkinə keçməyə təkan verdi. Cəmiyyət həyatının bütün tərəflərinin modernləşdirilməsi prioritetə çevrilir.

Beləliklə, Azərbaycanın inkişafında 2003-cü ilin oktyabrından başlanan yeni mərhələnin mahiyyəti ondan ibarətdir ki, Prezident İlham Əliyev ölkənin innovasiya texnologiyaları əsasında ümumi modernləşdirilməsinə yönəlmiş dövlət idarəçilik sistemini reallaşdırmağa başladı.

2019-cu ilin əvvəlində hərtərəfli düşünülmüş iqtisadi siyasət sayəsində Azərbaycan xeyli irəliləyib, neft amilindən asılılıq əhəmiyyətli dərəcədə azalıb. “Neftdən asılı dövlət” modeli keçmişdə qalıb. İqtisadiyyatın şaxələndirilməsində ciddi uğurlar qazanılıb. Dövlət sahibkarlığa və aqrar sənaye kompleksinə ciddi kömək göstərir. Ən başlıcası, Azərbaycan ərzaq mallarının əksəriyyəti üzrə özünü təmin etmək səviyyəsinə çatıb.

Prezident İlham Əliyevin idarəçilik istedadı sayəsində Azərbaycan özünün sosial dövlət mövqelərini xeyli möhkəmlədib. Mahiyyət etibarilə Azərbaycan güclü ordusu və güclü xarici siyasəti olan qüdrətli dövlətdir. Bu gün Azərbaycan dünya kosmik klubunun üzvüdür. Azərbaycanın müasir panoramı böyük inkişafın geniş məkanıdır.

Bununla belə, ictimai-siyasi sabitlik təmin edilmədən bu cür nəticələrə nail olmaq çətin olardı. Analitiklərin hesablamalarına görə, Azərbaycanın ümumi inkişafı məhz bu amillə müəyyən olunur.

Uğur qazanmağın digər şərtləri icra intizamının təmin edilməsi, vətəndaşların hər sahədə məsuliyyətinin artırılması, həmçinin ölkə rəhbərliyinin ölçülüb-biçilmiş hərəkətləridir. Bunlar bütün islahatların əsasıdır. Prezident İlham Əliyev bilir ki, ümumi modernləşdirmə olmadan tərəqqi də olmayacaq, ölkə əvvəlki vəziyyətdə ilişib qalacaq. O, rəqəmsal texnologiyaların geniş tətbiqinə, infrastrukturun inkişafına üstünlük verdi. Ölkədə tikinti işləri, məktəblərin və tibb müəssisələrinin təmiri, şəhərlərin və kəndlərin yeniləşməsi, yolların, yeni nəqliyyat qovşaqlarının və körpülərin inşası, müasir rabitə sistemlərinin yaradılması və yeni kommunikasiya texnologiyalarının tətbiqi geniş miqyas alıb.

Prezident ölkənin dünyada nüfuzunu artırmağa, başqa ölkələrlə iqtisadi tərəfdaşlığı genişləndirməyə nail olub. Nəticədə respublikada keyfiyyətcə yeni sosial-iqtisadi və siyasi mühit yaranıb. Prezident İlham Əliyevin uzaqgörən sosial-iqtisadi siyasəti və onun yaratdığı siyasi sabitlik sayəsində Azərbaycan gələcəyə doğru inamla irəliləyir.

Bir qədər irəli gedərək qeyd etməliyəm ki, Prezident İlham Əliyevin qurucu fəaliyyətinin nəticələrini çox gözləməyə ehtiyac qalmadı. Belə ki, 2005-ci ilin məlumatına görə, ümumi daxili məhsul 1990-cı illərin səviyyəsindən 11 faiz çox olub. 2004-2013-cü illərdə isə, Azərbaycan iqtisadi artım sürətinə görə (orta hesabla ildə 13 faiz) dünyada liderdir.

Bu illər ərzində vergi-büdcə siyasəti iqtisadi artımın ən mühüm amili olub. Bu dövrdə büdcənin xərcləri 12,7 dəfə, əsaslı xərclər isə 47 dəfə artıb. Neft sektorundan əldə edilmiş mənfəətin təqribən yarısı ölkənin sosial-iqtisadi inkişafına sərf edilib. Dövlətin zəruri maliyyə resurslarından istifadə olunması keyfiyyətli sosial-iqtisadi infrastrukturun yaradılmasına kömək edib, respublikada iqtisadi-istehsal fəallığı əhəmiyyətli dərəcədə artıb.

İlham Əliyev Ümummilli Liderin siyasi xəttini yeni şəraitdə həyata keçirərək bütün sosial proqramları, iqtisadi və ictimai-siyasi, kadr islahatlarını həqiqətən inqilabi inadkarlıqla həyata keçirir. Bu islahatlar sayəsində ölkənin siması kökündən dəyişir. Bu gün hətta ən ucqar regionlar sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə, abadlığa, memarlıq və bədii simanın gözəlliyinə görə respublikanın paytaxtından heç də geri qalmır. Etiraf etmək lazımdır ki, Azərbaycanda baş verən genişmiqyaslı dəyişikliklərin sürəti dünyada ən yaxşı nümunələrlə müqayisə edilə bilər.

İnformasiya-kommunikasiya, müasir texnologiya və idarəçilik sahələrində nailiyyətlər Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatına fəal tətbiq edilir. Çoxsaylı genişmiqyaslı transmilli layihələr uğurla həyata keçirilib. Bütün bunlara bilavasitə Prezident İlham Əliyev rəhbərlik edir. Ölkənin hərtərəfli dəyişməsinə yönəlmiş və reallığa çevrilmiş yeni ideya və layihələrin müəllifi başqası deyil, Prezident özüdür. Onun sabit yeniləşmə siyasəti həm dövlət sektorunun, həm də özəl sektorun işçilərini ölkədə tarixi dəyişikliklərə ruhlandırır.

İlham Əliyev ölkə həyatının bütün sahələrində islahatlar strategiyasını seçib. Onun fundamental islahatlar yolu ilə dəyişikliklər etmək enerjisi aşıb-daşır və bu enerji iqtidarda onun məsləkdaşlarına da sirayət edir.

Hələ 2005-ci il iyulun axırlarında ABŞ dövlət katibinin Avrasiya regionunda münaqişələr və Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Stiven Mann Türkiyənin NTV telekanalına müsahibəsində Azərbaycan Prezidentinin fəaliyyətini çox yüksək qiymətləndirib. İlham Əliyevin əsl siyasətçi olduğunu deyən S.Mann onu da vurğulayıb ki, Azərbaycan xalqının İlham Əliyev timsalında çox yaxşı Prezidenti var. O, daha sonra deyib: “Hesab edirəm ki, ölkədə siyasi islahatlar davam etdiriləcək, neftdən alınan gəlirlər sıravi vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldiləcək”. [2]

Təbii ki, S.Mannın bu fikirlərini Vaşinqtonun Azərbaycan rəhbərliyinə münasibəti kimi qiymətləndirmək olar.

Bir məsələni də qeyd etmək lazımdır - Stiven Mann bu uzaqgörənliyində yanılmayıb. Məsələ burasındadır ki, son 16 ildə ölkədə islahatlar davam etdirilib və 2019-cu ilin əvvəlindən genişmiqyaslı xarakter alıb.

İslahatlar dövlət idarəçiliyi prinsiplərinin bütün sisteminin modifikasiya edilməsi və təkmilləşdirilməsi prosesidir. Onların mahiyyəti dövlət siyasətinin bütün strukturunun məzmununun təkamül yolu ilə yaxşılaşdırılmasından ibarətdir. İslahatlar cəmiyyətin siyasi, iqtisadi və sosial tərkib hissələrini təkmilləşdirməklə bərabər, həm də hakimiyyət ilə cəmiyyət arasında münasibətləri tamamilə yeni səviyyəyə çatdırır.

İlham Əliyev islahatların səviyyəsini qaldırmaqla daim ciddi dövlət lideri keyfiyyətini nümayiş etdirir. Bu nadir keyfiyyətlər heç də bütün müasir siyasətçilərə və ya dövlət başçılarına xas deyil. Təəssüf ki, dünyada islahatlar aparmaq əzmində olan dövlət başçıları çox deyil. Belə hesab edilir ki, islahatların müəyyən aspektləri ölkədə bəzi qüvvələri idarəetmə və hakimiyyət sistemində radikal dəyişikliklərə stimullaşdırır. Onlar belə hesab edirlər ki, insanların şüurunu oyatmamaq yaxşıdır.

“The American Interest” nəşrində Amerika Xarici Siyasət Şurası yanında Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru, “Azərbaycan müstəqillik günündən sonra” adlı kitabın müəllifi Svante Kornellin məqaləsi dərc edilib. Müəllif bu məqalədə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatları, onların regionda inkişafa təsirini təhlil edir.

S.Kornellin fikrincə, ölkədə cari islahatlar əsl vaxtına düşüb. Budəfəki islahatlar 2015-ci ildə neftin qiymətinin azalması ilə bağlıdır, hərçənd Azərbaycanda bundan əvvəl də islahatlar aparılırdı. Məsələn, 1999-cu ildə Norveç modeli üzrə Dövlət Neft Fondu yaradıldı. 2012-ci ildə Azərbaycanda “ASAN xidmət” işə salındı. Müəllif hesab edir ki, “ASAN xidmət” sayəsində vətəndaşlarla dövlət qulluqçuları arasında əlaqələr məhdudlaşdırılıb, korrupsiya faktları aradan qaldırılıb. “ASAN xidmət” bu gün də çox populyardır. S.Kornell qeyd edir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dövlət xidmətlərinin təqdim edilməsi zamanı korrupsiya üçün əlverişli şəraitin aradan qaldırılması üzrə “ASAN xidmət”in fəaliyyətini yüksək qiymətləndirib.

Müəllif qeyd edir ki, 2014-cü ildə neftin qiymətinin azalması nəticəsində Azərbaycanda iqtisadi vəziyyət pisləşib. İslahatlar da bundan sonra başlanıb. Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizinin inkişafı barədə Çinin və Avropa ölkələrinin planlarında Azərbaycanın iştirakı iqtisadiyyatın şaxələndirilməsinin aşkar metodu idi.

S.Kornell yazır ki, Prezident İlham Əliyevin islahatlara yanaşması köhnə təsisatları “təmir etmək” deyil, imkan daxilində yeni təsisatlar yaratmaqdan ibarət idi. Hökumət Mədəniyyət Nazirliyindən ayrıca Turizm Agentliyi yaratdı, viza prosedurları sadələşdirildi. Hazırda Azərbaycanda “ASAN xidmət” vasitəsilə idarə edilən elektron viza dünyada ən rahat sistem hesab olunub. Çinin, Cənubi Koreyanın, habelə bir neçə körfəz ölkəsinin vətəndaşları Azərbaycana gələndən sonra burada viza ala bilirlər. Bu, turizmin əhəmiyyətli dərəcədə inkişafına şərait yaradıb: 2008-ci ildə Azərbaycana 1 milyon turist gəldiyi halda, 2017-ci ildə bu göstərici 2,6 milyona bərabər olub. Kornell yazır ki, 2019-cu ildə turistlərin sayının 3 milyondan çox olacağı gözlənilir. Kosmopolit mühiti və parlaq mədəni həyatı ilə seçilən Bakı ərəb ölkələrindən çoxsaylı turistləri cəlb edir. Hazırda Bakı küçələrində Cənubi Asiyadan olan çoxlu turistləri görmək olar.

Azərbaycan ölkəni iki nəqliyyat dəhlizinin habına çevirməyi planlaşdırır: Aİ ölkələrindən Çinə tərəf uzanan Şərq-Qərb dəhlizi və Rusiyanı İran və Hindistanla əlaqələndirən Şimal-Cənub dəhlizi. Bu baxımdan Bakı ətrafındakı Ələt limanı və onun sərbəst iqtisadi zonası xüsusi əhəmiyyət kəsb edir. Rusiya, Mərkəzi Asiya və ya İrandan Ələtə gətirilən yük 2017-ci ilin oktyabrında açılmış Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu ilə qısa müddətdə Avropadakı təyinat məntəqələrinə göndərilə bilər.

Bu islahatlar nəticəsində Dünya Bankı özünün “Biznesin idarə edilməsi haqqında” hesabatında Azərbaycanın reytinqini 2018-ci ildəki 57-ci yerdən 2019-cu ildə 25-ci yerə yüksəldib. Dünya Bankı Azərbaycanda biznes qurulmasının asanlığını, tikinti işlərinin aparılmasına icazələrin alınması, mülkiyyətin qeydiyyatı, vergi və güzəştlərin ödənilməsi, gömrük prosedurları üçün şəffaf elektron sistemlər yaradılması üçün “bir pəncərə” sistemini xüsusi vurğulayıb. [3]

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə 2003-cü ilin noyabrından iqtisadiyyat yeni inkişaf relslərinə düşüb. 2018-ci ilə qədər heyrətamiz uğurlar qazanılıb. Bu, aşağıdakı cədvəldən də görünür.

| İqtisadi göstərici | 2003 | 2018 | Fərq |
|---|---|---|---|
| ÜDM (milyard manat) | 7.15 | 79.8 | +3.3 dəfə (real artım) |
| Adambaşına ÜDM (manat) | 872.7 | 8126.2 | +9.3 dəfə |
| Büdcənin gəlirləri (milyard manat) | 1.2 | 22.5 | +18.8 dəfə |
| İşsizlik səviyyəsi (%) | 9.2 | 4.9 | -1.9 dəfə |
| Yoxsulluq səviyyəsi (%) | 44.7 | 5.1 | -8.8 dəfə |
| Xarici valyuta şəklində ehtiyatlar (milyard ABŞ dolları) | 1.6 | 44.9 | +28.1 dəfə |
| Əhalinin gəlirləri (milyard manat) | 5.7 | 53.7 | +9.4 dəfə |
| Adambaşına gəlir (manat) | 700.7 | 5467 | +7.8 dəfə |
| Qeyri-neft sektorunda ÜDM (milyard manat) | 4.5 | 46.9 | +2.8 dəfə (real artım) |
| Xarici ticarətin həcmi (milyard ABŞ dolları) | 5.22 | 31.8 | +6.1 dəfə |
| İqtisadiyyata investisiyalar (milyard manat) | 4.25 | 25.88 | +6.1 dəfə |
| Orta aylıq əməkhaqqı (manat) | 77.4 | 544.6 | +7 dəfə |

Son 16 ildə iqtisadiyyata 250 milyard dollar məbləğində sərmayə qoyulub. Nəticədə bu gün Azərbaycan şaxələndirilmiş iqtisadiyyat sisteminə malikdir.

[1] (http://files.preslib.az/site/ialiyev/2003.pdf).
[2] “Azərbaycan” qəzeti, 29 iyul 2005-ci il.
[3] “Бакинский рабочий” qəzeti, 19 oktyabr 2019-cu il.

Ardı 8-9-cu səh.

# Azərbaycanın inkişafını uyğunlaşdıran

*Əvvəli 7-ci səh.*

Bu sahədə ciddi nailiyyətlər qazanılıb. Neft sənayesi ardıcıl inkişaf edib, müasir texnologiyalarla təchiz olunmuş onlarca yeni sənaye müəssisəsi tikilib və fəaliyyətə başlayıb. "2015-2020-ci illər üçün Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət Proqramı" əsasında ölkədə çoxsaylı sənaye parkları və sənaye məhəllələri, texnoloji parklar yaradılıb, mövcud istehsal obyektləri genişləndirilib. İnnovasiyalı istehsal iqtisadiyyatda, o cümlədən aqrar sahədə aparıcı istiqamətə çevrilir. İxrac üçün sənaye məhsulları istehsalı yüksək sürətlə artmaqdadır.

İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan verib. Pambıqçılıq, taxılçılıq, ipəkçilik, üzümçülük, çayçılıq, tərəvəzçilik, çəltikçilik və arıçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələri dirçəldilib. Meyvə - badam, fındıq, sitrus, xurma, zeytun, qoz, nar bağlarının sahəsi xeyli genişlənib. Aqroparklar ölkənin landşaftını tanınmaz dərəcədə dəyişib, xarici dövlətlərin Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbatı xeyli artıb.

Prezidentin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli nəqliyyat layihələri həyata keçirilib: Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, 2014-cü il sentyabrın 20-də təməli qoyulmuş "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. Dəyəri 40 milyard dollardan artıq olan bu layihə yüksək sürətlə reallaşdırılıb və 2018-ci il mayın 29-da Bakıda "Cənub qaz dəhlizi"nin, həmin il iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin reallaşdırılması qrafik üzrə davam edir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına başlanıb. 2017-ci il oktyabrın 30-da Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olub. Bu dəmir yolunun tikintisi 2007-ci ildə başlanmışdı. Azərbaycanın Rusiya, İran və Gürcüstan ilə sərhədlərinə qədər yeni magistral avtomobil yolları çəkilib. Azərbaycan böyük siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edən bu beynəlxalq layihələri reallaşdırmaqla Avrasiyanın çox mühüm tranzit və logistika mərkəzinə çevrilir.

Kosmik orbitə 3 peyk çıxarmış Azərbaycan dünyada sayı çox olmayan kosmik ölkələr klubuna daxil olub. 2013-cü il fevralın 8-də Azərbaycanın birinci, 2014-cü il iyunun 30-da ikinci, 2018-ci il sentyabrın 26-da isə üçüncü telekommunikasiya peyki orbitə çıxarılıb.

2003-cü ildən sonrakı dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və ya təmir edilib. Yüzlərlə tarixi bina, muzey, teatr və kitabxanada genişmiqyaslı yenidənqurma və təmir işləri aparılıb, onlar yeni avadanlıqla təchiz edilib. Ölkənin ali məktəblərində, elmi mərkəzlərdə, respublika Milli Elmlər Akademiyasının müəssisələrində də analoji işlər aparılıb. Ölkədə 16 il ərzində 15 min kilometrdən çox asfalt yol çəkilib, 443 körpü inşa edilib. Bakı Metropoliteninin 4 yeni stansiyası istifadəyə verilib. Cəmi iki il bundan əvvəl Xəzər dənizində ən iri beynəlxalq liman - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlayıb. Bu müddətdə Azərbaycanda altısı beynəlxalq olmaqla, 7 aeroport tikilib.

2003-2019-cu illərdə ölkədə 31 elektrik stansiyası tikilib istifadəyə verilib. Nəticədə Azərbaycan qonşu ölkələrə elektrik enerjisi ixrac etməyə başlayıb. Ölkənin yaşayış məntəqələrinin təbii qazla təmin edilməsi göstəricisi artaraq 51 faizdən 95 faizə çatdırılıb. Oğuz-Qəbələ-Bakı su kəməri xətti çəkilib, ən iri sutəmizləyici qurğu tikilib, regionlarda çoxsaylı subartezian quyuları qazılıb, yüzlərlə modul tipli sutəmizləyici qurğu istifadəyə verilib, əhalinin içməli su ilə fasiləsiz təchizatı təmin olunub.

Son 16 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş aparılıb. Ölkədə bütün çadır düşərgələri və "fin evləri"ndən ibarət qəsəbələr ləğv edilib, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilib. Şəhid ailələri, müharibə veteranları və əlilləri xüsusi qayğı ilə əhatə olunub. Onlara dövlət hesabına 5500-dən çox mənzil, 6 mindən çox minik avtomobili verilib.

Sosial sahədə islahatlar inqilabi xarakter daşıyır. 2019-cu il sentyabrın 1-dən etibarən pensiyalar, əlilliyə görə müavinətlər, tədris müəssisələrində təqaüdlər yüz faizdən çox artırılıb. Dövlət qulluqçularının, hüquq mühafizə orqanlarının işçilərinin, hərbi qulluqçuların və başqalarının əməkhaqqı artırılıb.

Ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən "ASAN xidmət" və DOST Azərbaycanın brendlərinə çevrilib.

İstedadlı müstəqil jurnalist Eynulla Fətullayev 2018-ci il fevralın 9-da "Haqqın.az" informasiya-analitik portalında dərc edilmiş məqaləsində yazır: "Dövlətçiliyin dirçəldilməsi, iqtisadiyyatın çiçəklənməsi, siyasi modernləşmə - Əliyev konsepsiyasının vəhdət təşkil edən bu üçlüyü iki prezidentin idarəçilik ruhunu xarakterizə edir. Parçalanma, məhvolma həddinə çatdırılmış, dəhşətli vətəndaş müharibəsi və erməni müdaxiləsi tonqalına atılmış ölkə sanki möcüzə sayəsində xilas edildi və qorunub saxlandı. Dünyanın ən narahat ölkələrindən birində sabitlik bərqərar oldu və bu sistem iqtisadi dirçəlişə, ümumi rifah cəmiyyətinin təşəkkülünə şərait yaratdı".

Daha sonra: "Taleyin və tarixin qismətindən Əliyevlər, indiki halda İlham Əliyev olmasaydı, Azərbaycan iflasa məhkum olardı. Axı, Azərbaycana yalnız inqilabi hərc-mərclik, qlobal özbaşınalıq və vətəndaş ayrı-seçkiliyi təklif edirlər. Azərbaycana dövlətçiliyi tamamilə torpağa gömməcək inqilabi liberalizm təklif edirlər. Ya Əliyev, ya da parçalanma. Hətta əsrin dörddəbiri qədər vaxt keçəndən sonra da bizim seçimimiz böyük deyil: keçmiş ilə gələcək arasında cəmi bir imza olmalıdır".[4]

## Postneft dövrünün islahatları

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev postneft dövründə iqtisadiyyatı bacarıqla idarə edərək ölkəni yeni inkişaf yollarına çıxarıb. 2016-cı ildə Azərbaycan iqtisadiyyatında xarici şokların və əsas ticarət tərəfdaşlarının resessiyasının təsiri altında baş vermiş qısamüddətli tənəzzül 2017-ci ildə sabitləşmə və 2018-ci ildə iqtisadi artımla əvəz olundu. Buna səbəb Prezident İlham Əliyev tərəfindən qısa müddətdə mühüm qərarların qəbul edilməsidir:

1. Xarici şokların təsiri altında olan iqtisadiyyatın restrukturizasiyası yeni iş yerləri yaratmağa və kütləvi işsizliyin qarşısını almağa imkan verdi;

2. Düzgün təşkil edilmiş makroiqtisadi əlaqələndirmə manatın sabitliyini və inflyasiyanın birrəqəmli olmasına nəzarəti təmin etdi;

3. Strateji yol xəritələri təsdiq edildi və inkişafın yeni iqtisadi modeli müəyyən olundu;

4. Ən vacibi, xarici şokların sosial rifaha potensial mənfi təsirlərinin qarşısı alındı.

İslahatların əsas istiqamətlərini bu cür qruplaşdırmaq olar:

1. İqtisadi islahatlar (vergi-gömrük, tikinti, enerji şəbəkəsinə qoşulma, sahibkarlığın dəstəklənməsi və s.).

2. Məhkəmə-hüquq islahatları (ədalət mühakiməsinin keyfiyyətinin, səmərəsinin və şəffaflığının artırılması).

3. Sosial islahatlar (institusional islahatlar və sosial paket).

4. Kadr islahatları.

Azərbaycan aparılan islahatların sayına görə təkcə 2019-cu ildə deyil, 2020-ci ildə də dünyada ən iri islahatçı ölkələr sırasına daxildir. Bu barədə Dünya Bankının "Doing Business 2020" hesabatının yayılmasından əvvəl dərc edilmiş bloqda bəhs edilir. Keçən il Azərbaycan 57-ci yerdə idi. O vaxt top-islahatçı olmaq asan idi. 25-ci mövqedə olan Azərbaycanın islahatların sayı ən çox olan ölkələr siyahısına düşməsi həqiqətən çətin idi. Hazırda ölkəmiz "Doing Business" biznes mühiti etalonundan 78,64 faiz həddinə çatıb, yəni, o, məqsədə yaxındır. Etalona yaxınlaşdıqca, top-islahatçı olmaq daha da çətinləşir. Lakin buna baxmayaraq, Prezident İlham Əliyev ölkəni inamla "Doing Business" zirvəsinə aparır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu antiböhran tədbirləri və kompleks islahatlar təbii ehtiyatlarla zəngin digər ölkələrlə müqayisədə daha səmərəli olub. Prezidentin rəhbərliyi ilə ölkədə sosial, siyasi və makroiqtisadi sabitlik, əhalinin sosial firavanlığı və davamlı iqtisadi artım təmin edilib.

Hazırda (2019-cu ildə) ölkənin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarından çox, xarici borcun məbləği isə ÜDM-in cəmi 17 faizi qədərdir. Azərbaycanın strateji valyuta ehtiyatları 5 il ərzində idxalın maliyyələşdirilməsi üçün kifayətdir. Tədiyyə balansının və konsolidə edilmiş büdcənin profisiti makroiqtisadi sabitliyin və davamlı inkişafın əsasıdır. 2019-cu ilin ilk 8 ayı ərzində ÜDM 2,4 faiz, qeyri-neft-qaz sektorunda 3 faizdən çox, qeyri-neft ixracının həcmi isə 17 faiz artıb. Xüsusi qeyd etmək lazımdır ki, qeyri-neft-qaz sənayesi 15,2 faiz, informasiya və kommunikasiya xidmətləri 17,6 faiz, kənd təsərrüfatı 6,2 faiz artıb. Hərçənd, iqtisadi inkişafın mövcud sürəti daha yüksək bazaya əsaslanır. Bütövlükdə 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin ÜDM-i 3,3 dəfə artıb.

2019-cu ilin əvvəlindən Azərbaycan iqtisadiyyatının imkanlarının çoxalması büdcənin gəlir hissəsinin 18 faiz artmasına gətirib çıxarıb. Prezidentin siyasi iradəsi ilə artan büdcə imkanları bilavasitə əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Bir məqam xüsusi əhəmiyyət kəsb edir ki, sosial təminat üzrə irimiqyaslı tədbirlər paketinin reallaşması Prezident tərəfindən müəyyənləşdirilmiş, maliyyə sabitliyini təmin edən büdcə qaydaları çərçivəsində həyata keçirilib. Başqa sözlə desək, inqilabi sosial paketin reallaşması inflyasiya təzyiqi yaratmadan və manatın sabitliyi şəraitində mümkün olub.

Qeyd etmək lazımdır ki, 2014-cü ilin ikinci yarısından başlayaraq neftin dünya bazarında qiymətlərinin üç dəfə azalması, tərəfdaş ölkələrdə tənəzzül və devalvasiya Azərbaycan iqtisadiyyatının kənar sarsıntılara uyğunlaşması zərurətini yaratmışdı. 2017-2018-ci illərdə ÜDM qeyri-neft sektorunun hesabına orta hesabla 2,3 faiz artıb. Bütövlükdə isə davamlı, uzunmüddətli, əhəmiyyətli və geniş əhatəli artımın təmin olunması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və beynəlxalq mövqelərinin qorunub saxlanması siyasətinin davam etdirilməsi dövlət üçün əsas çağırışlara çevrilib.

Prezident İlham Əliyev dərin struktur islahatlarına xüsusi diqqət yetirir. Bu islahatlar dünyada baş verən sarsıntılar fonunda sosial-iqtisadi göstəricilərin yaxşılaşmasında mühüm rol oynayır. Azərbaycanda kompleks islahatların növbəti mərhələsi 2016-cı ildə başlandı və 2019-cu ildə davam etdirildi. Milli iqtisadiyyatın perspektivləri barədə 2016-cı ildə qəbul edilmiş strateji yol xəritəsində əsas hədəf struktur islahatlarının davam etdirilməsi və daha səmərəli idarəetmə sisteminə keçid idi.

Struktur islahatlarının reallaşması ümumi inkişafa mane olan problemlərin aradan qaldırılmasında mühüm rol oynadı və əhalinin sosial problemlərini həll etməyə, biznes maraqlarını təmin etməyə, şəffaflığı artırmağa, müxtəlif sektorlarda inzibati prosedurların sayını və məsrəfləri azaltmağa, habelə dövlət xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa imkan verdi.

Beləliklə:

-biznesin qurulması üçün qeydiyyat prosedurlarının sayı üçdən birə, müddəti isə 3,5 gündən 12 saata düşüb;

-tikinti üçün bütün texniki spesifikasiyalar və icazələr sahibkarın iştirakı olmadan elektron formada təqdim edilir. Tikinti və istifadə üçün icazələr alınması pulsuzdur və internet vasitəsilə "bir pəncərə" prinsipi əsasında həyata keçirilir. Prosedurların sayı 18-dən 7-yə, onlara sərf edilən vaxt 116 gündən 38 günə, xərclər isə 6600 manatdan 3345 manata endirilib;

-elektrik şəbəkəsinə qoşulmaq üçün sifarişlərin elektron sistemi istifadəyə verilib, prosedurların sayı 7-dən 2-yə, bunun üçün tələb edilən vaxt 41 gündən 20 günə endirilib;

-daşınmaz əmlakın və kadastr işlərinin qeydiyyatı ilə bağlı problemlər üzrə apelyasiyalar üçün xüsusi müstəqil mexanizmlər yaradılıb, prosedurların sayı 3-dən 1-ə, bunun üçün tələb edilən vaxt 5 gündən 1 günə endirilib;

-kredit alınması üçün bütün növ girovlara icazə verilib, yüklənmə müqaviləsində əsas öhdəliyin maksimal məbləğini göstərmək imkanı yaradılıb;

-xırda investorların hüquqlarının müdafiəsi gücləndirilib. Səhmdarlar öz fəaliyyəti ilə vurduğu ziyana görə direktoru məsuliyyətə cəlb edə bilərlər;

-sosial sığorta üçün ödəmələrin həcmi 22 faizdən 15 faizə endirilib, ƏDV-nin ödənilməsinin inzibati proseduru təkmilləşdirilib və indi bu prosedur elektron formada həyata keçirilə bilər. Vergi yükü əhəmiyyətli dərəcədə azaldılıb, mikro və kiçik biznes subyektlərinə əlavə vergi güzəştləri təqdim edilir;

-xarici ticarətin iştirakçıları tərəfindən "Yaşıl dəhliz" sistemindən daimi istifadə etmək hüququ alınması üçün xüsusi qaydalar tətbiq olunur, bu hüquqların müvəqqəti dayandırılması, ləğv edilməsi və bərpası imkanları var. Gömrük nəzarəti və gömrük rəsmiləşdirməsi daha sürətlə və daha şəffaf həyata keçirilir, fiziki gömrük yoxlamaları minimuma endirilib;

-xırda iddialar və xırda iddialar üçün meyarlar barəsində sadələşdirilmiş prosedurlar qəbul edilib. Məhkəmə tənzimləməsi standartları yaxşılaşdırılıb. "Vasitəçilik haqqında" qanun qəbul edilib, müvafiq inzibati qaydalar işlənib hazırlanıb. Şikayətlərlə bağlı məhkəmə araşdırmalarının elektron xidmətinin tətbiq edilməsi sahəsində qanunvericilik təkmilləşdirilib;

-müflisləşmənin tənzimlənməsinin bərpası üçün kreditorların qruplara bölünməsi, hər qrupda ayrıca səsvermə və müəyyən qrupun bütün üzvlərinə vahid yanaşma tətbiq edilməsi barədə qanun qəbul edilib. Hərracların keçirilməsi vaxtı azaldılıb;

-beynəlxalq standartlara uyğun olaraq dövlət satınalmaları üçün qanunvericilik bazası təkmilləşdirilib (üç milyon dollara qədər dövlət satınalmaları yalnız elektron şəkildə həyata keçirilir). Ən müasir standartlar əsasında dövlət satınalmalarının vahid internet portalı və elektron satınalmalar modeli yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi prosedurları sadələşdirilib və tamamilə kompüterləşdirilib. Bundan əlavə, səmərəli idarəetmə sistemi yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi proseduru üçün zəruri vaxt 53 gündən 31 günə, tender təklifinin həcmi 5 faizdən 1 faizə endirilib və sair;

-aparılan islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə mövqelərinə müsbət təsir göstərib. Məsələn, Dünya Bankı tərəfindən dərc edilmiş "Doing Business 2020" reytinqində Azərbaycan islahatçı ölkələrin ilk iyirmiliyinə daxil edilib. Bütövlükdə, Azərbaycan "Doing Business 2020" reytinqində 190 ölkə arasında 34-cü yeri tutur. "Biznesin qurulması" indikatoruna görə ölkəmiz 9-cu yerdədir, yəni, 2017-ci ildəki mövqeyini qoruyub saxlayır. "Kredit alınması" göstəricisi üzrə Azərbaycan xeyli irəliləyib, 2017-ci ildə 22-ci yerdən 2019-cu ildə beşinci yerə çıxıb. "Tikinti üçün icazə alınması" göstəricisi üzrə 2017-ci ildəki 61-ci yerdən 2019-cu ildə 5-ci yerə çıxıb.[5] "Doing Business 2019" hesabatında Azərbaycan həyata keçirilmiş islahatların sayının ən çox olduğu dövlət hesab edilib. Yeni hesabatda ölkəmizin mövqeyi 2017-ci ildəki ilə müqayisədə 32 bənd yaxşılaşıb. Nəticədə Azərbaycan dünyanın 190 ölkəsi arasında 25-ci yeri tutur.

Dünya İqtisadi Forumu tərəfindən 2019-cu il üçün dərc edilmiş qlobal rəqabətqabiliyyətlilik indeksinə görə, Azərbaycan 11 bənd irəliləyərək 62,7 bal ilə 141 ölkə arasında 58-ci yeri tutur.[6] O, MDB-nin digər ölkələrini 12 göstəricidən 8-nə görə qabaqlayıb və Rusiya Federasiyası və Qazaxıstandan sonra liderlərin ilk üçlüyünə daxil olub. Ən yüksək tərəqqi əmtəə bazarları (+27), makroiqtisadi sabitlik (+23) və əməyin ixtisaslılığı (+17) göstəriciləri üzrə müşahidə olunub. Ərzaq bazarı daha yüksək qiymətləndirilib - 10-cu yer. Bu göstərici daxili rəqabəti, ticarətin açıqlığını, gömrük rəsmiləşdirməsinin sürətini və sair meyarları əhatə edir. Borcların ödənilməsi (+47), büdcənin şəffaflığı (+45), kreditlərdə fərq (+40), əməkdaşlar üçün xərclərin kompensasiyası (+39) və audit və hesabat standartlarının möhkəmliyi (+33) dinamikasında daha böyük tərəqqi müşahidə olunur.

Azərbaycanın beynəlxalq mövqelərinin yaxşılaşması dünya iqtisadiyyatına inteqrasiyanın dərinləşməsində mühüm rol oynayır. İslahatların həyata keçirilməsi sosial-iqtisadi infrastrukturun tam modernləşdirilməsinə və biznes mühitin yaxşılaşdırılmasına şərait yaradır. Onlar ölkə iqtisadiyyatına daha çox investisiya cəlb etməyə, iqtisadiyyatın strukturunu yaxşılaşdırmağa, yeni iş yerləri yaratmağa, əməyin peşəkarlığını və məhsuldarlığını artırmağa imkan verir. Bunlar Azərbaycanda həyatın bütün sahələrinin modernləşməsi prosesinin sürətləndirilməsi üçün ciddi amillərdir.

Prezident tərəfindən 2019-cu ildə təqdim olunmuş, əhalinin rifahı sahəsində inqilabi dəyişiklikləri təmin edən sosial islahatlar paketi 4,6 milyon nəfəri əhatə edib. Sosial paketin etibarlılığı onun maliyyə təminatı ilə səciyyələnir. Bu məqsədlə 2019-cu ilin dövlət büdcəsindən 2 milyard 79 milyon manat vəsait ayrılıb, 2020-ci ildə isə 2 milyard 791 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Qeyd edilən sosial paket çərçivəsində ölkədə minimum aylıq əməkhaqqı 93 faiz artırılaraq 130 manatdan 250 manata çatdırılıb. Əməkhaqqının artırılması ölkədə orta aylıq əməkhaqqına təsir göstərəcək, onu 15 faiz artıraraq bu ilin sonunda 625 manata çatdırmağa imkan verəcək. Bununla bərabər, Prezident sosial paket çərçivəsində pensiyaların və sosial müavinətlərin məbləğini ikiqat artırıb. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin yeni aylıq təqaüdləri təsis edilib: I qrup əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud olan 18 yaşa qədər uşaqlara qulluq edənlər üçün 50 manat, müharibə veteranlarına 80 manat. Minimum pensiyanın məbləği 2019-cu il martın 1-dən 160 manata, oktyabrın 1-dən 200 manata çatdırılıb. Bu, o deməkdir ki, ölkədə minimum pensiyanın məbləği 72 faiz artırılıb. Prezident məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətin həcmini 50 faiz, tələbələrin təqaüdlərini 20 faiz artırıb.

Prezidentin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən bu sahədə yaranmış problemlərin kompleks həlli ilə yanaşı, yeni, dünya miqyasında nadir mexanizm - xarici valyutada vaxtı keçmiş kredit borclarının ödənilməsi sahəsində dövlət dəstəyi mexanizmi yaradılıb. Bu fərmanın icrası nəticəsində fiziki şəxslərin banklara xarici valyutada 10 000 ABŞ dollarına qədər əsas kredit borclarının manatın devalvasiyası ilə əlaqədar artmış məbləği hesablanaraq ödənilib. Nəticədə 710,3 min kredit sazişi üzrə 629 milyon manat kompensasiya ödənilib.

Azərbaycan Prezidenti İlham Əliyevin qurucu fəaliyyətini qeyd edərək, bir faktı xüsusi vurğulamaq istəyirəm ki, hələ 2003-2008-ci illərdə, yəni, özünün birinci prezidentlik müddətində o illərin çağırışlarını nəzərə alaraq fəal hücumçu tədbirlər kursunu seçmişdi. İlham Əliyev özünün bütün fəaliyyəti ilə sübut edib ki, ölkənin daxili problemlərini ciddi və güzəştsiz həll etmək, Azərbaycanın xarici siyasətini həyata keçirərkən milli mənafeləri müdafiə etmək əzmindədir. Artıq həmin prezidentlik dövründə aydın oldu ki, İlham Əliyev bu və ya digər problemin həllinə öz prinsipi, öz yanaşması, öz baxışı olan müstəqil şəxsiyyətdir. Onun xarakteri Ümummilli Lider Heydər Əliyevin şöhrətindən bəhrələnməyə imkan vermirdi, buna görə o, siyasi varis kimi ona qalmış irsi daha da inkişaf etdirməyə çalışırdı.

Rusiyalı məşhur politoloq, Azərbaycan üzrə mütəxəssis Oleq Sıqanovun fikri ilə tam razıyam. O yazır: "Tamamilə aşkardır ki, bu gün Azərbaycan siyasətində potensial baxımdan effektivliyə görə İlham Əliyev şəxsiyyəti ilə uzaqdan-uzağa da olsa bərabər tutula biləcək başqa bir şəxsiyyət yoxdur. Məsələ alternativin olmamasında deyil, sadəcə, Azərbaycanın və onun xalqının mənafelərinə İlham Əliyevdən daha artıq dərəcədə uyğun gələ biləcək şəxs yoxdur".[7]

Bu fikir 2008-ci ildə söylənilmiş olsa da, 2019-cu ildə də öz aktuallığını itirməyib.

Bütün prezident seçkilərində (2003, 2008, 2013, 2018) İlham Əliyevin namizədliyi alternativsiz görünürdü, hərçənd başqa partiyalardan olan namizədlər vardı. Bunun bir neçə səbəbi var. Məsələn, 1988-ci ilin ortalarından 1993-cü ilin ortalarına qədər mövcud olmuş siyasi avantüradan təngə gəlmiş ölkə vətəndaşları Əbdürəhman Vəzirovu, Ayaz Mütəllibovu və Əbülfəz Əliyevi (Elçibəy) siyasi həyatdan uzaqlaşdıraraq dövlət idarəçiliyi sükanını böyük siyasi xadim və təcrübəli idarəçi Heydər Əliyevə etibar etdilər. On il sonra isə dövlət başçısı vəzifəsində fəaliyyətə başlamış İlham Əliyev Azərbaycan vətəndaşlarının nəzərində Heydər Əliyev siyasi kursunun sədaqətli davamçısıdır. Ölkənin neft və qaz hesabına əldə etdiyi milyardlarla gəlir, həmçinin son 16 ildə uğurlu daxili və xarici siyasət İlham Əliyevin hakimiyyətini möhkəmləndirib. O, haqlı olaraq ölkə Prezidenti vəzifəsində öz fəaliyyətinin nəticələri ilə fəxr edə bilər.

Prezident İlham Əliyevin dövlət idarəçiliyinin əsasını təşkil edən konkret prinsiplərin hər biri ölkənin inkişafının müəyyən sahəsini təmsil edir. Dövlətin strateji məsələlərin həlli üzrə praktiki siyasəti bu prinsiplər əsasında qurulur. Kitabın sonrakı fəsilləri bu prinsiplərə həsr ediləcək. Burada isə onlardan bir neçəsinin adını çəkəcəyəm.

Belə ki, ən mühüm prinsip ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsidir. Sabitlik olmadan müstəqil dövlət qurmaq və ölkənin ümdə problemlərini həll etmək mümkün deyil. Yalnız bu məsələni həll edəndən sonra sosial-iqtisadi məsələlərin həllinə, ölkənin ərazi bütövlüyünün bərpasına, demokratiyanın inkişafına, insan hüquq və azadlıqlarının müdafiəsinə, tarazlaşdırılmış xarici siyasət həyata keçirilməsinə başlamaq olar.

İctimai-siyasi sabitliyin bərqərar olması nəticəsində ölkə iqtisadi sahədə keçid dövrünü uğurla başa çatdırdı və onun liberal bazar iqtisadiyyatına keçidi təmin edildi. Nail olduğu yüksək iqtisadi inkişaf səviyyəsinə görə Azərbaycan "Doing Business"in hesablamalarına əsasən dünya ölkələri arasında "ən islahatçı dövlətdir".[8]

Rusiyalı müəllif Aleksandr Karavayevin fikrincə, İlham Əliyev dövlətin davamlılığının təcəssümüdür. Vətəndaşlardan soruşanda ki, ölkənin durmadan inkişaf etməsinin rəhni nədir, onların cavabı belə olur: bunun rəhni Prezident İlham Əliyevdir. Prezidentə bu cür münasibət sistemi birdən-birə yaranmayıb. İlham Əliyev bu etimad kapitalını uzunmüddətli gərgin səylər və böyük zəhmət sayəsində qazanıb.

Ümumiyyətlə, etiraf etmək lazımdır ki, İlham Əliyev nadir şəxsiyyətdir. Onun simasında həm islahatçı, həm sabitlik, həm də daxili siyasi tarazlığın saxlanması amili cəmləşib.[9]

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi irsinə sadiq qalaraq, iqtisadi, sosial və ekoloji amillər nəzərə alınmaqla, kompleks islahatlar keçirməklə Azərbaycanın davamlı inkişafını uğurla təmin edir.

Prezident dövlət idarəçiliyi sistemində də islahatlar aparır: dövlət orqanlarının strukturu təkmilləşdirilir, bu orqanların, həmçinin dövlət qulluqçularının sayı nəzərəçarpacaq dərəcədə azaldılıb, kadrların tərkibi Qərbdə və Cənubi Asiya ölkələrində ən yaxşı ali məktəblərdə təhsil almış gənc mütəxəssislər hesabına yenilənir. Yeni idarəçilər elitası formalaşır.

Futuroloqların proqnozlarına görə, 2025-ci ilə qədər sabit inkişaf edən ölkələrdə, o cümlədən Azərbaycanda "common brain" (hərfi tərcüməsi "ümumi beyin", "ümumi zəka" deməkdir) deyilən tamamilə yeni siyasi elita formalaşacaq. Bu, hər hansı radikallıqdan, dağıdıcı inqilabilikdən uzaq olan yüksək intellektli və praqmatik funksionerlərin ciddi strukturlaşdırılmış, iyerarxiya baxımdan nizamlanmış vahid komandası olacaq. Həmin komandaya yenə də birləşdirici siyasi lider İlham Əliyev başçılıq edəcək, o, idarəetmə sisteminin əsas rəhbəri funksiyasını yerinə yetirməkdə davam edəcək.

Heç də təəccüblü deyil ki, "informasiya cəmiyyəti"nin yaradıldığı əsrdə ölkənin idarə edilməsi müəyyən mənada "kompüter şəbəkəsində inzibatçılığı" xatırladacaq. Azərbaycanda artıq fəaliyyətə başlamış "elektron hökumət" dövlət məsələlərini səmərəli və operativ həll etməyə imkan verir.

[4] Эйнулла Фатуллаев. Росчерк Алиева между прошлым и будущим. Соц.сеть Haqqın.az, 9 февраля 2018.

[5] Азербайджан вошел в ТОП-20 реформаторских стран в рейтинге Doing Business-2020. - Report.az, 24 октября 2019 q. - https://report.az/ru/biznes/azerbaydzhan-voshel-v-top-20-reformatorskih-stran/

[6] Global Competitiveness Report 2019: How to end a lost decade of productivity growth. World Economic Forum, 2019 - https://www.weforum.org/reports/how-to-end-a-decade-of-lost-productivity-growth.

[7] Bax: "Известия" №179. Тематическое приложение Азербайджан, 25.09.2008 года.

[8] Bax: "Бакинский рабочий" qəzeti, 27 aprel 2017-ci il.

[9] Bax: Александр Караваев. Лидер всей властной системы. "Азербайджанские Известия" qəzeti, 17 aprel 2018-ci il.

# XXI əsrin çağırışlarına Lider

Beləliklə, Azərbaycanda yaradılmış dövlət idarəçiliyi sistemi keyfiyyətcə yeni idarəçi kadrlar üçün nəzərdə tutulmuş, tamamilə yeni əsaslar üzərində qurulmuş vahid mexanizm olacaq. Həm ölkənin daxili inkişafını, həm də xarici aləmlə əlaqələri nizamlayan mexanizmlər məhz bu sistemin tələblərinə uyğunlaşdırılmış uzunmüddətli dinamizmi xatırladacaq. Rəhbərlik sahəsinə təsadüfi və ya siyasi idarəçilik sistemindən bixəbər funksionerin gəlməsi həm ölkə əhalisi üçün, həm də əcnəbi investorlar üçün ciddi problemlər yarada bilər. Hətta bu sistemə qoşulmuş yüksək təhsilli kadrın zəruri keyfiyyətləri yoxdursa (əgər həmin şəxs radikallıq, destruktivlik kimi sistemsiz keyfiyyətlərə malikdirsə), o, dövlət idarəçiliyi prinsiplərinə öz yanaşmalarını tətbiq edə bilər. Bu, inkişafın siyasi kursuna mənfi təsir göstərəcək. Bu isə həm arzuedilməz, həm də bütövlükdə yolverilməzdir.

XXI əsrdə həm bəşəriyyətin, həm də konkret dövlətin qarşısında duran keyfiyyətcə yeni məsələləri keyfiyyətcə yeni siyasi elita həll etməlidir.

Bu, peşəkar həmfikirlər komandasıdır. Onun hər bir üzvü dövlət idarəçiliyinin konkret istiqaməti üzrə mütəxəssisdir. Geniş təhsilli, yüksək intellektual keyfiyyətlər, müəyyən idarəçilik təcrübəsi, işgüzar ünsiyyət vərdişləri, iyerarxik sistemə uyğunlaşmaq bacarığı - bütün bu və digər keyfiyyətlərin məcmusu komandanın hər bir üzvünə xas olmalıdır. Prezidentin komandasına müvafiq dünyabaxışına və mənəvi keyfiyyətlərə malik olan, İlham Əliyevi sözdə deyil, əməli işdə dəstəkləyən müasir təfəkkürlü və istedadlı təşkilatçılar gəlməlidirlər. Ən başlıcası, onlar əsl dövlətçilər olmalı, xalqın və dövlətin mənafelərini hər şeydən üstün tutmalıdırlar.

Siyasi ədəbiyyatdan elita nümunələri məlumdur: “Çikaqolu oğlanlar”, “Harvard komandası”, öz ideyalarını müxtəlif ölkələrin dövlət siyasəti formasında reallaşdıran həmfikirlərin digər kreativ qrupları.

Ekspertlərin fikrincə, Prezident İlham Əliyev dövlət idarəçiliyi prinsiplərinin dürüst sistemini qurub. Bu sistem XXI əsrdə qloballaşma proseslərinin fəallaşması və daim artan informasiya axını şəraitində milli mənafelərə uyğundur.

Bu prinsiplər sistemi ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş ölkənin inkişaf strategiyasına tam uyğun gəlir. Çox sevindirici haldır ki, milli lider və dövlət başçısı İlham Əliyevə operativ qərarlar qəbul etmək, çoxvariantlı idarəçilik və böhranlı vəziyyətlərin kollektiv nizamlanması modellərini tətbiq etmək, beynəlxalq əlaqələrin həyata keçirilməsində çoxpilləli manevrlərdən istifadə etmək, xaricdən informasiya təsirinin artmasını nəzərə almaq, idarəetmə prosesinin qapalı seqmentlərinin məxfiliyini təmin etmək kimi keyfiyyətlər xasdır.

Müasir şəraitdə xalq kütlələri qarşısına çıxmaq, mitinqlərdə çıxış etmək, KİV-ə müsahibə vermək kimi işləri, bir qayda olaraq təkcə liderlər özləri deyil, həm də onların imicmeykerləri, idarəçiləri, siyasi texnoloqları, politoloqlar, dövlət strukturlarının məsul işçiləri həyata keçirir və bütün bunlar aparılan işin tərkib hissəsi kimi reallaşır. Burada 1992-1993-cü illərdə ölkə ictimaiyyətini və onun hüdudlarından kənarda çoxlarını qıcıqlandırmağı öyrənmiş Azərbaycan müxalifətinin yürütdüyü populist qarşıdurma siyasətinə yer yoxdur, buna görə də mitinq burulğanına və yaxın keçmişin digər dağıdıcı hadisələrinə də yer yoxdur.

Azərbaycanda indiki siyasi və sosial-iqtisadi vəziyyətin təhlili göstərir ki, bu gün ölkədə praqmatik intellektuallardan ibarət komanda formalaşdırmağa qabil olan şəxsiyyət 2003-cü ilin oktyabrından hakimiyyətdədir. Azərbaycan xalqı onunla fəxr edə bilər. Bu, ölkədə daxili, ictimai, siyasi, iqtisadi və mədəni şəraiti çox gözəl başa düşən, energetika kimi mühüm sahədə zəngin təcrübə toplamış, qətiyyətli diplomatik vərdişlərə malik olan İlham Əliyevdir. Milli Olimpiya Komitəsinin prezidenti kimi İlham Əliyev özünü respublikada idman hərəkatının böyük təşkilatçısı kimi göstərib. O, bilavasitə Prezident Heydər Əliyevin rəhbərliyi ilə çox gözəl dövlət idarəçiliyi məktəbi keçib. Onun rəhbərliyi ilə ölkədə qazanılmış siyasi və sosial-iqtisadi nailiyyətlər, milli ideyaya sədaqət, təşkilatçılıq qabiliyyəti buna dəlalət edir ki, İlham Əliyev yeni minillikdə Azərbaycan xalqının ümummilli lideridir.

Bununla bərabər, İlham Əliyevin bütün dövləti fəaliyyəti onun dünyada həm müasir dövrün böyük siyasi xadimi, həm də görkəmli islahatçı kimi çıxış etməsinə əsas verir.

Beynəlxalq arenada tanınmış belçikalı siyasətçi An-Mori Lizii hələ 2010-cu ildə AZƏRTAC-ın xüsusi müxbiri ilə söhbətində demişdi: “Beynəlxalq arenada artıq islahatçı Prezident kimi tanınmış İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan modernləşib və inkişaf etmiş ölkəyə çevrilib.

Prezident İlham Əliyev təcrübəli dövlət başçısı və uzaqgörən siyasi xadim keyfiyyətlərini Ümummilli Lider Heydər Əliyevdən əxz edib. Heydər Əliyev SSRİ dağılandan sonra ağır vəziyyətdə olan Azərbaycanı inkişaf yoluna çıxartdı. Prezident İlham Əliyev bu gün öz ölkəsinin perspektivləri və işıqlı gələcəyi barədə düşünən dövlət başçısıdır. Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin siyasətini davam etdirərək Rusiya və Avropa ölkələri ilə yaxşı münasibətlər yarada bilib. Bu, inkişaf etməkdə olan Azərbaycan üçün çox mühüm məsələdir”. [10]

Radikal müxalifət tərəfindən İlham Əliyevə hücumlar zamanı istifadə edilən tezislərdən biri belədir: “Prezidentin oğlu ümummilli miqyaslı lider ola bilməz, çünki o, gərgin siyasi mübarizədə, mitinqlər burulğanında, müxalifət ilə iqtidarın qarşıdurmasında sınaqlardan keçməyib”. Həmişəki kimi, radikal müxalifət ictimaiyyəti çaşdırmağa çalışır.

İlham Əliyevin belə adlandırılan “inqilabi keçmişi”nin olmaması həm daxili ictimai rəydə, həm də xarici siyasətdə onun xeyrinədir. Radikal müxalifət başa düşə bilmir ki, bu gün İlham Əliyevin “XXI əsrdə tələb edilən yeni tipli lider” kimi tanınmasında məhz bu amil əsas şərtdir.

Hərçənd, qeyd etmək lazımdır ki, radikal müxalifətin nümayəndələri zamanın onların xeyrinə işləmədiyini çox yaxşı başa düşürlər. Həqiqətən, “radikallar”, “inqilabçılar”, “dağıdıcılar” yeni siyasi meyillər tərəfindən tarixin küncünə sıxışdırılır, onlar üçün fəaliyyət meydanı isə günbəgün daralır. Bu, təkzibedilməz faktdır. Azərbaycanın timsalında görünür ki, ən iddialı nümayəndələr, həmçinin öz təşkilatlarının çoxdan keçmişdə ilişib qaldığını başa düşənlər belə adlandırılan “milli radikallar” sıralarını tərk edirlər.

Amma hər halda özlərinin xaricdəki ağalarından pay alanlardan soruşmaq lazımdır ki, indiki Azərbaycanı İlham Əliyevdən yaxşı kim idarə edə bilər, kim öz xalqını dünya sivilizasiyasına qovuşdura bilər, öz xalqının maddi və mənəvi tələbatını daha yaxşı təmin edə və bu əsasda sabit dövlət yarada bilər. Bu halda legitim hakimiyyətlə “inqilabi savaşlarda” müxalifət sıralarında iştirak etməmiş V.Putinin və C.Buşun (oğul) nümunəsini nəzərə almaq lazımdır. Əslində, dünyada müdrik siyasi liderlər, fəaliyyəti XXI əsr cəmiyyətinin yaradılmasına yönəldilmiş şəxslərin axtarışı meyillərini Azərbaycan müxalifəti özü də yaxşı görür.

Görkəmli mütəfəkkir və filosof F.Hegel (1770-1831) yazırdı ki, böyük insanlar praktiki siyasi xadimlər olublar. Onlar, eyni zamanda, işin mahiyyətini, nə etmək və nə vaxt etmək lazım olduğunu başqalarından yaxşı anlayan, düşünən insanlar olublar. [11]

Prezident İlham Əliyev dövlət siyasətini ölkənin insan resurslarını, ictimai və sosial-iqtisadi resurslarını əsas götürərək qurur. Dövlət idarəçiliyi mexanizmlərinin təkmilləşdirilməsi ölkənin inkişafının konkret məsələlərinin həllinə yönəlib. Təbii ki, Prezident bu siyasəti həyata keçirərkən öz komandasına, yəni, onun yüksək etimad bəslədiyi və ölkənin dəyişdirilməsi ideyalarının həyata keçirilməsində ona səriştəli şəkildə kömək edən insanlara güvənir.

2003-cü ildən bəri ölkədə yürüdülən siyasətin mahiyyəti Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursuna zidd deyil, əksinə, Prezident İlham Əliyev dünyada cərəyan edən dəyişikliklər prosesinin intensivliyini nəzərə alaraq, bu kursu təkmilləşdirib, onun reallaşması metodikasına düzəlişlər edib. Heydər Əliyevin yürütdüyü müstəqil dövlət, onun iqtisadi, sosial və mədəni bazasının yaradılması siyasəti Azərbaycan xalqının ümidlərini tamamilə doğrultdu. Bu siyasət Prezident İlham Əliyevin dövlətçilik siyasətinin əsası, onun siyasi kursunun təməli oldu. O, prezidentliyi illərində bu siyasi kursdan kənara çıxmayıb. Əvvəlki dövlət idarəçiliyinin quruculuq xəttinə riayət edən dövlət xadiminin siyasətini dövlətçilik sənəti adlandırırlar. Bu tipli dövlət xadimlərinə o qədər nadir rast gəlinir ki, Otto Bismark (1815-1898) onların siyasətini incəsənət adlandırırdı.

Prezident İlham Əliyevin siyasəti milli maraqların reallaşmasına nail olmaq sənətidir. Onun əsas vəzifələrindən biri də mənəviyyatın bərqərar olmasıdır. Məsələ burasındadır ki, bu gün insanların müəyyən qrupunun fikrincə, təəssüf ki, insanın cəmiyyətdə sosial vəziyyətinin dərəcəsini yalnız maliyyə və maddi tərkib hissələr müəyyənləşdirir. Belə insanlar üçün mənəviyyat kateqoriyası öz sosial dəyərini itirib. Onlar qazanc əldə etmək, varlanmaq həvəsindədirlər. Bu, onların həyatının mənasıdır. Onlar üçün aqressivlik mədəniyyət norması, eqoizm isə ünsiyyət həddidir. Milli mədəniyyət beşiyinə baş vurmaq istəyi onlara yaddır.

2003-cü ilin oktyabrından başlayaraq bütün bu dövrdə İlham Əliyev xalqın mənəvi inkişafı, dini etiqad azadlığı, multikulturalizm və tolerantlıq ənənələrinin dəstəklənməsi siyasətinə çox böyük diqqət yetirib. Gənclərin sosial, təhsil və mədəni problemlərinin həlli məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq edilib, xüsusi Gənclər Fondu yaradılıb. Gənclər siyasəti dövlətin fəaliyyətinin prioritet istiqamətlərindən biri, dövlət idarəçiliyinin prinsipidir.

Siyasətçinin rolunun həqiqi miqyası konkret işlərin reallaşmasında üzə çıxır. Prezident İlham Əliyevin dövlətçilik fəaliyyəti (2003-cü il oktyabrın əvvəlindən) Azərbaycanın siyasi, iqtisadi və mədəni landşaftını dəyişib. Ölkə həyatının bütün sahələrində Azərbaycan xalqının daha yaxşı yaşamasını təmin etmək üçün stimul yaranıb. Xalq öz liderini tamamilə dəstəkləyir. “Praqmatizm”, “çeviklik”, “açıqlıq”, “müəyyənlik”, xarici siyasətdə “sistemli vektorluluq”, “milli maraqların ardıcıl təbliği”, “yüksək mənəviyyat”, “həssaslıq”, “təvazökarlıq” - bu keyfiyyətlər Prezident İlham Əliyev şəxsiyyətini səciyyələndirən anlayışların az bir qismidir.

O, müasir şəraitdə dövlət başçısı üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. İlham Əliyevə Azərbaycan xalqını öz arxasınca aparmaq missiyasını tarix, yeni dövr özü həvalə edib. Məhz o, ölkə tarixinin məsul mərhələsində müstəqil dövlətin inkişafını və cəmiyyətin bir formasiyadan digərinə keçidinin başa çatmasını təmin edə bilib. Azərbaycan onun zəkası və siyasi istedadı sayəsində müasir dünya nizamına xas olan mürəkkəb şəraitdə öz mövqelərini möhkəmlədib.

Həqiqi lider bütün sınaqlara sinə gərmək və getdikcə daha güclü, daha israrlı olaraq bu sınaqlardan çıxmaq üçün zəruri olan vərdişlərə malikdir. Milli lider olmaq, sadəcə, dövlət başçısı olmaqdan qat-qat artıqdır.

ABŞ-dan olan müəlliflərin fikrincə, bütün görkəmli liderləri birləşdirən cəhət onların dörd zəruri keyfiyyətidir. Birincisi - ümumi həllin axtarışına başqa adamları cəlb etmək qabiliyyəti. İkincisi - inandırma istedadı. Üçüncüsü - prinsiplərə sədaqət və dürüst dəyərlər sistemi. Dördüncüsü - adaptasiya etmək qabiliyyəti. Bu keyfiyyət iki əsas aspektə bölünür: vəziyyəti tez dərk etmək qabiliyyəti və xarakterin möhkəmliyi. Həmin müəlliflər yazırlar: “İlk növbədə, məhz xarakterin möhkəmliyi və vəziyyəti tez dərk etmək qabiliyyəti birlikdə həm çətin sınaqlardan salamat çıxmağa, həm də bu sınaqlardan zəruri ibrət dərsi almağa, daha güclü, daha israrlı və öz işinə sadiq olmağa imkan verir. Bu keyfiyyətlər ən gərgin vəziyyətə düşdükdə belə liderlərin sınmamasına, əksinə, başqalarının yalnız ümidsizlik gördüyü yerdə böyümək imkanı tapmalarına kömək edir. Həqiqi liderliyin mahiyyəti bundan ibarətdir”. [12]

Əsla şübhə yoxdur ki, İlham Əliyev XXI əsrdə siyasi lider üçün zəruri keyfiyyətlərə malikdir. Çiçəklənən müasir Azərbaycan onun əsəridir, millətin həqiqi lideri kimi onun iradəsinin, zəkasının və istedadının nəticəsidir. Öz əcdadlarının genlərini daşıyan bu cür şəxsiyyətlərin sayı çox deyil, belələri tək-tək olur. Bu, çox nadir haldır. Lakin onların azsaylı olmasına baxmayaraq, cəmiyyətin həyatının istənilən sahəsində lokomotiv rolu oynayırlar.

Prezident İlham Əliyev fitri liderlik istedadına malikdir. Doğrudur, bəzi tədqiqatçılar hesab edirlər ki, “liderlik vərdişləri fitri deyil. Onları formalaşdırmaq və inkişaf etdirmək olar”. Mənim fikrimcə, liderlik xüsusi keyfiyyətdir və heç də hər insan özündə bu keyfiyyəti formalaşdıra bilməz. Liderlik fərdin fiziologiyasının xüsusiyyətidir. Bu, başqa məsələdir ki, dövlət idarəçiliyi elmdir və bu elmi öyrənmək olar. Lakin idarəçilik elminin öyrənilməsi heç də həmişə insana sevinc gətirmir. Nahaq yerə demirlər ki, bundan ötrü “acı dərman içmək”, yəni, bu mərhələni yaşamaq lazımdır. Ona görə də möhtəşəm niyyətlərin həyata keçirilməsi liderdən xüsusi enerji və eyni zamanda, səbir tələb edir. Siyasi liderlər öz tərəfdarlarını ruhlandırır, onları həvəsləndirir, onlarda təşəbbüskarlıq keyfiyyəti yaradır. Lakin bu, həmin tərəfdarların lazımi istiqamətdə hərəkət etməyə məcbur olunması hesabına baş vermir. Məsələ ondadır ki, siyasi liderin çağırışları insanların nailiyyətlərə can atmaq, ümumi işdə iştirak hissi və özünə hörmət zərurəti, ictimai etiraf istəyi, özünü öz taleyinin sahibi hesab etmək və öz ideallarına uyğun yaşamaq imkanı kimi təbii ehtiyaclarını təmin etməyə imkan verir. Bu çağırışlar insan qəlbinin dərinliyinə nüfuz edir və cavab reaksiyası doğurur.

Həqiqi siyasi liderlər müxtəlif motivasiya texnologiyalarını mənimsəyirlər. Əvvələn, onlar gələcək barədə öz təsəvvürünü şərh edərkən müraciət etdikləri insanlara hansı mənəvi dəyərlərin xas olduğunu həmişə nəzərə alırlar. Bunun sayəsində çağırışlar öz tərəfdarlarının nəzərində daha əhəmiyyətli olur. İkincisi, siyasi liderlər tərəfdarlarının aparıcı heyətini öz niyyətinin həyata keçirilməsinin mümkün yollarının müzakirəsinə cəlb edirlər. Bunun sayəsində həmin adamlar hiss edirlər ki, onların fikrini eşidirlər və onlar cəmiyyətin həyatına təsir göstərirlər.

Həqiqi siyasi liderlər öz komandasının üzvlərinin şəxsi qabiliyyətlərini qiymətləndirir və onları həvəsləndirmək fürsətini əldən vermirlər. Bu, onlara həm uğur sevinci, həm də bunu başa düşmək imkanı verir ki, bu insanlar onları qiymətləndirən komandanın bir hissəsidir. Əgər siyasi lider bütün bu qaydalara riayət edərsə, onun fəaliyyəti komandası üçün ilham mənbəyinə çevrilir.

Cəmiyyət dəyişikliklərə nə qədər güclü məruz qalarsa, komanda üzvlərinin diqqət və mənəvi dəstək təzahürü bir o qədər əhəmiyyətlidir. Siyasi lider problem barədə öz təsəvvürünü komandasının üzvlərinə aşılamağa nail olanda komanda onun ideyasının canlı təcəssümünə çevrilir. Çünki komandanın üzvləri idarəçiliyin bütün səviyyələrində öz işgüzar qabiliyyətlərini üzə çıxarırlar. Bu, çox vacib və qiymətli nailiyyətdir, çünki əgər komanda salamat qalmaq və dəyişikliklər uğrunda mübarizədə möhkəmlənmək istəyirsə, onda təşəbbüslər kütlələrdən gəlməlidir. Qarşıya qoyulmuş hədəfə az səylə nail olmaq mümkün deyil.

İlham Əliyev böyük təşkilatçılıq və idarəçilik qabiliyyətlərinə malikdir, onu dövlətin mənafelərinə sədaqəti fərqləndirir. O, bütün varlığı ilə dövlətçidir. Bu, İlham Əliyevin çox mühüm siyasi keyfiyyətidir, xüsusən ona görə ki, dünya siyasət meydanında əsas oyunçular əvvəlki kimi yenə milli dövlətlərdir.

Bu gün aşkardır ki, dünya siyasətinin subyektləri praktiki olaraq hər yerdə ciddi sınaqlara məruz qalır, iqtisadi, siyasi, humanitar və ekoloji çağırışlarla, beynəlxalq terrorizm təhdidləri və başqa hallarla üzləşirlər. Dünyada yaranmış mürəkkəb vəziyyətin əsas səbəblərindən biri liderlik problemidir. Bir sıra dövlətlərdə yaranmış vəziyyət ona dəlalət edir ki, həmin dövlətlərdə rəhbərliyi həyata keçirən şəxslər bütövlükdə millətin maraqlarını deyil, müəyyən korporativ qrupların mənafelərini ifadə edirlər. Dünyada baş verən, heç də təsəlliverici olmayan hadisələr göstərir ki, həmin liderlərin geniş təfəkkürü və ən başlıcası, müstəqil idarəçilik fəaliyyəti üçün səriştəsi və qabiliyyəti yoxdur.

“Böhranlı vəziyyətlərdə cəmiyyətin xüsusi rəhbərlərə ehtiyacı olur. Artıq neçə onillikdir ki, Qərb ölkələrində yeni strateji ideyalar irəli sürməyə və reallaşdırmağa qabil olan Ruzvelt, Çörçill, yaxud de Qoll kimi “güclü” liderlər yetişmir. Köhnə metodlar (və köhnə liderlər) isə böhrandan çıxmağa kömək etmir, ehtimal ki, böhranı daha da dərinləşdirirlər”. [13]

Dövlət başçısını liderə çevirən, ilk növbədə, onun zəkası, səriştəsi və fəaliyyət əzmidir. Onun şüurunda millətin keçmişi, bu günü və gələcəyi cəmləşməlidir. Deyə bilərik ki, siyasi lideri təbii imkanlarla yanaşı, həm də həyati proseslər, dövr formalaşdırır. O, müasir dövrün və keçmişin parlaq zəkaları ilə dialoq vasitəsilə milli ideyanı dərk edir. Milli siyasi liderin əhəmiyyətinin bir meyarı da onun vətənpərvər və tərbiyəçi obrazıdır, o, öz xalqı ilə sıx bağlı olmalı, xalqın maraqları ilə yaşamalıdır.

Şübhəsiz, siyasi lider milləti oyatmaq və sıx birləşdirmək qabiliyyətinə malik olmalıdır. Dövlət başçısı yalnız o halda siyasi lider statusu əldə edir ki, millətin ona ehtiyacı olsun, millətin əksəriyyətinin ideyası və iradəsi konkret şəxsiyyətdə birləşsin və təcəssüm etsin, xalqın gözləntiləri bu şəxsiyyətdə əks olunsun. Millət həmin şəxsiyyətə lider və dövlət başçısı mandatını yalnız o halda təqdim edə bilər ki, bu şəxsiyyət öz iradi, mənəvi, siyasi göstəricilərinə, təşkilatçılıq qabiliyyətinə, intellektinə və sağlamlığına görə millətin ümidlərinə uyğundur. Əslində, siyasi lider daha yaxşı həyat uğrunda mübarizə aparmağa hazır olan millətin iradəsinin daşıyıcısıdır. Öz növbəsində, lider də millətinə, daha yaxşı həyata gedən yolda, hətta qeyri-populyar qərar qəbul edilməsinə görə də millətin onu dəstəkləyəcəyinə inanmalıdır. Yadda saxlamaq lazımdır ki, iradə və qüvvə məhz inam sayəsində yaranır. Deməli, inam, iradə və qüvvə milləti XXI əsr cəmiyyəti yaratmağa doğru hərəkət etdirən amillərdir.

Güclü xarakter, prinsipiallıq, səmimiyyət, məsuliyyəti öz üzərinə götürmək cəsarəti siyasi lider üçün istisnasız olaraq hamının xoşuna gəlmək arzusundan qat-qat vacibdir. Yalnız bu psixoloji xüsusiyyətlərin birləşməsi əsasında siyasi liderin yeni keyfiyyəti yaranır, bu keyfiyyət millətə sirayət edir, onun psixotipik portretini gücləndirir. Millətin öz hədəfinə nail olmasına yalnız əzmkarlıq və qətiyyət imkan verir. Millət öz istəyinə yalnız o halda inam qazanır ki, öz siyasi liderində fəaliyyətə hazırlıq, əzmkarlıq və qətiyyət görsün.

XXI əsrin əvvəlində İlham Əliyev əsl milli lider kimi müasir dövrün mürəkkəb sədlərini dəf edərək millətin daxili enerjisini ölkə qarşısında duran quruculuq məsələlərinin həllinə yönəltməyə, Azərbaycanı əsaslı şəkildə dəyişdirməyə müvəffəq olub. Onun yaradıcı dövlətçilik və siyasi fəaliyyəti Azərbaycan xalqına firavanlıq gətirir, sabit həyat yaradır. İlham Əliyevin təşkilatçılıq istedadı və uzaqgörənliyi, onun yürütdüyü quruculuq siyasəti sayəsində bu gün Azərbaycan regionda lider statusu qazanıb və dünya dövlətləri birliyində layiqli yer tutur.

Prezident İlham Əliyevin uzaqgörənliyi, ona xas olan enerji, nitqlərinin məntiqi, natiqlik qabiliyyəti və praktiki fəaliyyəti istənilən qərəzsiz adamı valeh etməyə bilməz. Ona xas olan daha bir nadir keyfiyyət də nəzərdən qaçmayıb. Tərbiyə edilməsi, yaradılması, inkişaf etdirilməsi mümkün olmayan bu keyfiyyət incə duyum, intuisiyadır.

Səmimi etiraf edirəm ki, Prezident İlham Əliyevin dünyada siyasi dəyişikliklər küləyinin güclə sezilən hərəkətini, ölkədə cəmiyyətin əhvali-ruhiyyəsini əsl vaxtında duyması, respublikanın regionlarında əhali ilə çoxsaylı görüşlərdə onların sosial xarakterli gizli niyyətlərini hiss etməsi məni həqiqətən valeh edir. Bu keyfiyyət yalnız təcrübəli və uzaqgörən siyasi xadimlərə xasdır. Bu cür güclü intuisiya heç də hər bir dövlət rəhbərinə xas olmur. Yeri gəlmişkən, psixologiya elmində intuisiya “kifayət qədər məntiqi əsaslar olmadığı şəraitdə çox vaxt praktiki olaraq ani şəkildə məsələnin həllinin axtarışından ibarət intellektual proses” kimi izah edilir. [14]

Aşkardır ki, intuisiya yalnız bu incə hissi ana südü ilə qanlarına, canlarına hopdurmuş az sayda insana xasdır. Bu cür uzaqgörənlik yalnız böyük dövlət xadiminə və siyasi xadimə xasdır. Tarix göstərir ki, yalnız son dərəcə güclü siyasi duyuma malik olan şəxslərin tarixə düşmək şansı var. İlham Əliyev bu müstəsna və nadir siyasi keyfiyyətə - duyuma malikdir. Bu mənada o, Heydər Əliyevin təkrarıdır, Heydər Əliyev də bu keyfiyyətə artıqlaması ilə malik idi.

Dünyanın aparıcı nəşrlərindən olan “Harvard Business Review” jurnalında (sentyabr 2000-ci il) dərc edilmiş “Tanınmış lider olmağın yolu” sərlövhəli məqalənin müəllifləri Robert Qoffi və Haret Cons yazırlar: “İntuisiya siyasi liderin əvəzedilməz keyfiyyətidir. Belə adamlar haqqında deyirlər ki, onlar şəraiti yaxşı hiss edirlər. Onlar ətraf mühitdən gələn siqnalları instinktiv olaraq qəbul edir və nə baş verəcəyini əvvəlcədən duya bilirlər, hərçənd bu hadisələrin bütün təfərrüatını onlara heç kəs izah etməyib.

O, ən kiçik eyhamların mənasını başa düşür və müşahidə qabiliyyəti az olan insanların nəzərindən qaçan cəmiyyətdə əhvali-ruhiyyənin cüzi dəyişmələrini izləyir. Bütün görkəmli şəxsiyyətlər kəskin intuisiyaya malik olan insanlardır”. [15]

Prezident İlham Əliyevə siyasi xadim üçün çox vacib olan bir keyfiyyət də xasdır: o, əvvəlki sərəncamın əhəmiyyətinin tükəndiyini, onun potensialının başa çatdığını yəqin edəndə çox fikirləşmədən əvvəl qəbul edilmiş qərarı dəyişir və ya ona müvafiq düzəlişlər edir. Bu, çox ədalətli, bəlkə də zəruri yoldur, ona görə ki, dünyada geosiyasətin dəyişkən xarakteri və həyatın özünün dinamikası ilə hesablaşmamaq olmaz.

Mən dəfələrlə fikirləşmişəm: Prezident İlham Əliyevin hansı şəxsi keyfiyyətləri onu digər dövlət başçılarından (indiki həmkarlarından) fərqləndirir, yeni dövrdə siyasi liderə daha hansı keyfiyyətlər lazımdır və sair. Mən yəqin etmişəm ki, Azərbaycan Prezidentinin xarakterində (yəni, fərdi xüsusiyyətində) onun şəxsiyyətinin və mənəvi əsaslarının təməlini təşkil edən cəhətlər obyektiv olaraq İlham Əliyevi XXI əsrin nəhəng dövlət xadimi və siyasi xadim kimi səciyyələndirir. Bu şəxsiyyət özünü xalqının və dövlətinin firavanlığına həsr edib.

İlham Əliyevin prezidentlik illəri bunu söyləməyə əsas verir ki, o, Azərbaycanın bənzərsiz rəhbəridir, Heydər Əliyevlə müqayisə edilə biləcək müstəsna şəxsiyyətdir. O, böyük siyasi xadimlər kimi nəzakətli və siyasi liderlər kimi mərd olması ilə seçilir, problemləri dərindən duymaq və ölkənin gələcəyini dəqiq təsəvvür etmək qabiliyyətinə malikdir.

İlham Əliyevə siyasi uzaqgörənlik xasdır: o, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün komandasının potensialından səmərəli istifadə edir, son dərəcə təmkinlidir, problemi hərtərəfli dərk edəndən sonra qərar qəbul edir.

İlham Əliyev dünya siyasətini və beynəlxalq iqtisadiyyatı praktikada sınaqdan çıxarılmış idarəçilik istedadı ilə, uzaqgörən və məqsədyönlü şəkildə öyrənir. Onun siyasi nailiyyətlərindən biri ölkədə əsası Heydər Əliyev tərəfindən qoyulmuş ictimai-siyasi sabitliyi qoruyub saxlamaqdır. O, paytaxtda və regionlarda insanlar üçün təhlükəsiz həyat şəraiti yaratmağa, ölkənin hərbi potensialını əhəmiyyətli dərəcədə inkişaf etdirməyə nail olub.

[10] “Бакинский рабочий” qəzeti, 1 iyun 2010-cu il.
[11] Вах: Гегель. Философия истории СПб., “Наука”, 1993 г., стр.82.
[12] Вах: Уоррен Беннис, Роберт Томас. Горнило лидерства. Журнал “Harvard Business Review”. Лидерство. Сборник. Перевод с английского. М.2018, стр. 139-140.
[13] Родюков А.Ф. К вопросу о роли личности в истории: диалектический и синергетический подходы. Вестник Пермского университета. Философия. Психология. Социология. 2013, выпуск 3, стр.76.
[14] Вах: И.М. Кондаков. Психология. Иллюстрированный словарь. 2-е издание. Санкт-Петербург. 2007, стр.228.
[15] Вах: Роберт Гоффи, Гарет Джонс. Как стать признанным лидером. Статья в журнале, “Harvard Business Review”. За сентябрь 2000 года. Включена в сборник. Лидерство. М. 2018, стр.110-111.

Ardı 10-cu səh.

# Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider

*Əvvəli 9-cu səh.*

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf etmiş ölkələr sırasına çıxıb, Bakı isə dünyanın ən gözəl şəhərlərindən birinə, çoxsaylı müxtəlif beynəlxalq sammitlər, konfranslar və forumlar keçirilən mərkəzə çevrilib. Prezidentin şəxsi fəaliyyəti sayəsində 2003-cü ildən sonra Bakı dünyada ən çox ziyarət edilən turizm mərkəzlərindən biri olub.

Görkəmli siyasi liderlərdən biri kimi dünyada tanınmış İlham Əliyev Heydər Əliyevlə yanaşı, son yüz ildə Azərbaycanın ən yaxşı lideridir. O, millətin lideri kimi artıq Azərbaycanın və müasir dünyanın çoxəsrlik tarixinə daxil olub.

Xalq-iqtidar birliyi platformasına əsaslanan İlham Əliyev ölkədə ictimai qaydanı möhkəmləndirib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını təmin edib, xalqın həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə nail olub. Azərbaycan vətəndaş sülhünün və ictimai asayişin möhkəmliyinə görə bütün MDB ölkələrindən irəlidədir. İqtisadiyyat, ölkə vətəndaşlarının sosial təminat sistemi dinamik inkişaf edir. Prezidentin yürütdüyü düşünülmüş xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu xeyli artıb, onun geosiyasi mövqeləri möhkəmlənib, qlobal məsələlərdə Azərbaycanın siyasi rolu danılmazdır.

Azərbaycanda demokratik təsisatların möhkəmlənməsinə və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş siyasət ardıcıl olaraq həyata keçirilir. Çoxpartiyalı siyasi sistem yaradılıb, siyasi plüralizm ictimai həyatın dəyişməz prinsipidir. Söz, mətbuat və informasiya, internet və sosial şəbəkələrin azadlığının təmin edilməsi dövlət siyasətinin mühüm istiqamətidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet telekanalı və 16 radiostansiya fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Prezident xalqın və dövlətin qarşısında çox böyük məsuliyyət hiss edir, səmimiyyət, sədaqət və vətənpərvərlik ona xas olan cəhətlərdir. Onun xarici siyasi fəaliyyətində milli maraqların təbliği və qorunması, dövlətlərarası münasibətlərdə nəzərdə tutulan hədəflərə nail olmaq əsas məqamdır. O, milli mənafelərin müdafiəsi məsələsində həmişə prinsipialdır, ölkəyə zərər vura biləcək hər hansı qərarlara və güzəştlərə imkan vermir.

Prezident vəzifəsində 16 illik fəaliyyətində İlham Əliyev Azərbaycanın şəksiz lideri kimi dövlət başçılarının və beynəlxalq təşkilatların rəhbərlərinin hörmət və rəğbətini qazanıb. İlham Əliyev şəxsiyyətinə münasibətdə bu yüksək hörməti təkcə onun beynəlxalq tərəfdaşları deyil, xarici siyasətçilər sırasından olan opponentləri də təsdiqləyir və eyni zamanda, onun şəxsi məziyyətlərini vurğulayırlar. Azərbaycan Prezidenti bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin və əlaqələrin tərəfdarıdır. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti BMT üzvü olan dövlətlərin, dünya ictimaiyyətinin nəzərinə çatdırmaq məqsədilə şəxsən böyük iş aparır. Bu, 2019-cu il oktyabrın 3-də Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun iclasındakı çıxışında və 2019-cu il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçılarının Sammitindəki çıxışında daha aşkar şəkildə təzahür edib. O, müsəlman dövlətlərinin beynəlxalq arenada uzlaşdırılmış fəaliyyətinə nail olmaq məsələsində uğurlu nümunə göstərib.

Xarici siyasətdə hücum mövqeyi tutan İlham Əliyev Azərbaycana qarşı daim əsassız iddialar səsləndirməyə və ölkəmizdə həyata keçirilən siyasəti qərəzli şəkildə tənqid etməyə “adətkar” olan beynəlxalq strukturların rəhbərləri ilə dialoqda Azərbaycanın mənafelərini güzəştsiz olaraq müdafiə edir. O, hökumətin üzvlərindən, digər rəhbər işçilərdən də mübariz mövqe tutmalarını tələb edir. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil alması, dissertasiya müdafiə etməsi və MDBMİ-də müəllimlik fəaliyyəti, diplomatiya tarixinə dair geniş biliklər, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, həmçinin Azərbaycan Prezidenti vəzifəsində fəaliyyəti, yüksək intellekti ona rəhbər missiyasını uğurla həyata keçirməkdə kömək edir.

Xarici siyasət elə bir sahədir ki, orada beynəlxalq strukturlar tərəfindən düzgün qərar qəbul edilməsinə Prezident İlham Əliyevin təsiri daha yaxşı görünür. Burada onun təfəkkürünün çevikliyi və diplomatik qabiliyyətinin yüksək dərəcəsi daha yaxşı nəzərə çarpır.

Prezidentin analitik təfəkkürü xarici siyasət taktika və strategiyasının formalaşmasına, kəskin şəraitdə səhvsiz qərarlar qəbul edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Dünyada mövcud problemlərin bütün elementlərinə dərindən nüfuz etmək, onların nisbətini və qarşılıqlı əlaqəsini, xarakterik xüsusiyyətlərini aşkar etmək məharəti İlham Əliyevə siyasi səhnə arxasında gizlinləri, ən başlıcası isə, dünya qüvvə mərkəzlərinin geosiyasi maraqları ilə səbəb-nəticə əlaqələrini görməyə imkan verir. O, dünyada və ya regional siyasətdə baş verən müxtəlif hadisələri sadə proseslər, yaxud təsadüfi, əhəmiyyətsiz hadisələr hesab etmir, problemin dərinliyinə varır, beynəlxalq qüvvələrin və ayrı-ayrı dövlətlərin əsas məqsədləri və siyasi maraqları ilə əlaqəni səhvsiz aşkar edir.

Prezidentin psixoloji portretini çəkməyə cəhd göstərsək, yekun xarakteristika olaraq bunu deyə bilərik ki, İlham Əliyev psixoloji baxımdan güclü şəxsiyyətdir. O, məntiqə əsaslanaraq qərar qəbul edən və işi ən səmərəli üsulla təşkil edən praqmatik təfəkkürlü intovertlərə (anlayan, düşünən və mühakimə yürüdən fərd) aiddir. Prezident sağlam düşüncəli, məsuliyyət hissinə malik olan ciddi adamdır. O, verdiyi sözün üstündə durur. Başladığı işi sona çatdırmaq qabiliyyətinə malikdir. Azərbaycan xalqı öz dövlətinin rəhbəri vəzifəsində məhz bu cür şəxsiyyəti və siyasi xadimi görmək istəyir, çünki o, xalqın mentallığına, istəklərinə və gözləntilərinə müvafiqdir.

Bu xarakteristikaya onu da əlavə etmək olar ki, İlham Əliyev liderlik qabiliyyətinə malik olmaqla yanaşı, təmkinli insandır, ifrat ajiotaja varmadan hər hansı arzuedilməz proseslərə, təbii kataklizmlərə, istehsal qəzalarına sakit münasibət bildirməyi, müxtəlif xoşagəlməz faktlara dözümlü olmağı bacarır, sağlam mühakimə yürüdür, bununla da ölkədə ümumi vəziyyətə müsbət təsir göstərir. İlham Əliyev öz intellektinə, şəxsi üslubuna, davranışına, temperamentinə, qərarlar qəbul edilməsində ona kömək edən obrazlı təfəkkürünə görə müasir dövlət başçılarının çoxundan fərqlənir. Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri keçmiş təcrübənin köhnəlmiş sxemləri ilə ağırlaşdırılmayan yeni prinsipial qərarlar axtarışında çox mühüm rol oynayır və bu halda öz qərarlarından irəli gələ biləcək nəticələrində səhvə yol vermir.

Ölkədə multikulturalizm siyasətinin həyata keçirilməsi, milli tolerantlıq ənənələrinin qorunması onun əqidəsinin güclü tərəfləridir. İlham Əliyev aldığı informasiyanı yadda saxlamaq baxımından nadir qabiliyyətə malikdir. Təfəkkürünün çevikliyi və sürəti onun çox mühüm xarakterik cəhətidir. Bəli, İlham Əliyev siyasi lider kimi çevik və sürətli təfəkkürə malikdir, lakin ölçülüb-biçilmiş və ehtiyatlı qərarlar qəbul etməyə meyillidir. Məsul və təxirəsalınmaz, o cümlədən xarici siyasi qərarlar qəbul etmək üslubu ölkə üçün ən üstün cəhətdir. Bu, Prezidentin qiymətli keyfiyyətlərindən biridir. Ehtiyatlılığı qətiyyətsizliklə eyniləşdirmək lazım deyil. Prezident İlham Əliyev kifayət qədər iradəli və qətiyyətli insandır. Əksinə, ehtiyatlılığa meyil etməsi zəruri hallarda cəsarətlə düzgün qərar qəbul etməsinə mane olmur. Belə misallar çoxdur. Təfəkkür çevikliyi onun problem barədə öz təsəvvürünü, bundan ötrü tutarlı əsaslar olduqda, dəyişməyə imkan verir. O, yeni ideyaları çox tez qəbul edir. Bu, onun novatorluq və innovasiyalara meyil etmək qabiliyyətinə sübutdur. Əməkdaşlarının onunla razılaşdırmaq istədikləri məsələni dərhal başa düşür və onun mahiyyətinə vararaq zəruri göstərişlər verir.

Şəxsiyyətlərarası münasibətlərdə İlham Əliyev etika normalarına riayət edir, yaşlı müsahibinə hörmət və ehtiramla yanaşır. Komanda üzvlərinin fikrini, onların məsləhətlərini diqqətlə dinləyir, lakin son qərarı özü qəbul edir. Tabeliyində olan işçilərlə münasibətdə yumşaq qətiyyətlilik prinsipini gözləyir, tələbkar olmaqla yanaşı, vəziyyəti süni şəkildə gərginləşdirmir, bu isə ahəngdar iş üçün çox vacibdir. Mən elə bir hal xatırlamıram ki, Prezident tabeliyində olan insanların ləyaqətini alçaltmış olsun. Başqasının halına acımaq qabiliyyəti çox güclü inkişaf edib, hərçənd, bunu nümayişkaranə və emosional şəkildə büruzə vermir.

Ölkə Konstitusiyasına müvafiq olaraq öz administrasiyasını yaradarkən Prezident bir məqama həmişə xüsusi diqqət yetirirdi ki, əməkdaşların intellektual səviyyəsi və mənəvi siması onların statusuna uyğun olsun. 2019-cu il oktyabrın 23-dən etibarən Prezident öz administrasiyasının heyətini yeniləşdirməyə, onun strukturunda islahatlar aparmağa başlayıb. Əlbəttə, bu islahatın mahiyyəti ondan ibarətdir ki, yeni işçilər varislik prinsiplərinə riayət etməklə yüksək tələblərə uyğun olsunlar, qarşıdakı illərdə Prezidentin həll etmək istədiyi məsələlərin xüsusiyyətini tez başa düşsünlər və ən başlıcası, Prezidentin yüksək etimadını qiymətləndirsinlər. Bu, çox vacibdir.

Aparılan genişmiqyaslı islahatlar nəticəsində ölkəmiz yeni, əhəmiyyəti heç də az olmayan aktual məsələlərin həllinə başlayıb. Ona görə çox vacibdir ki, Prezident komandasının hər bir üzvü buna hazır olsun, ona tapşırılmış iş sahəsi üçün yüksək məsuliyyət hiss etsin, problemlər yaratmadan bu məsələləri lazımi səviyyədə həll etsin, öz işinin peşəkarı, təvazökar insan olsun, əxlaq kodeksinə riayət etsin. Vahid ideya ətrafında sıx birləşmək Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş məqsədlərə nail olmağın zəruri şərtidir.

Qeyd etməliyəm ki, administrasiyanın əməkdaşları heç vaxt Prezidentin diqqətindən kənarda qalmayıblar. Prezidentin iş üslubunun çox dəyərli bir xüsusiyyəti var - administrasiya şöbələrinin rəhbərlərinə tapşırıqları bilavasitə özü verir, bu da ona şöbələrdə mənəvi, sosial-psixoloji mühiti duymaq, əməkdaşların peşəkar səviyyəsini və iş qabiliyyətini bilmək imkanı yaradır. Bu cür nəzarət metodu işçilərin öz funksiyalarını icra etmək məsuliyyətini artırır.

Tez-tez respublikanın regionlarına səfərlər edən, sənaye, kənd təsərrüfatı və mədəniyyət obyektlərinin, tibb mərkəzlərinin, məktəb binalarının, qaçqınlar və məcburi köçkünlər üçün qəsəbələrin və yaşayış evlərinin istifadəyə verilməsi mərasimlərində iştirak edən Prezident ölkədə vəziyyət barədə hərtərəfli məlumata malikdir. O, əhali ilə yaxın ünsiyyətdə olur, necə deyərlər, ilk mənbədən məlumat alır, bu isə insanların əhvali-ruhiyyəsini, onların iqtidara münasibətini hiss etməyə əsas verir və bütün bunlar Prezidentin idarəçilik fəaliyyətinə kömək edir.

Dünyanın güc sahibləri heç cür başa düşə bilmirlər: Prezident İlham Əliyev 16 il ərzində yetərincə mürəkkəb geosiyasi regionda Azərbaycana uğurla rəhbərlik etməyə necə nail olur. Elan olunmamış müharibə nəticəsində ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş ölkədə sosial partlayışın qarşısını almaq necə mümkün olub? O, ölkəsinin dövlətlərarası qarşıdurmalardan yan keçməsinə, siyasi sabitliyi təmin etməyə və Azərbaycanı uğurlu dövlətlər sırasına çıxarmağa necə nail olur? Öz maraqları naminə xalqlara onların milli ənənələrinə, mənəvi həyat tərzinə və dəyərlərinə zidd olaraq öz demokratiya modelini zorla qəbul etdirənlər üçün müəmmalı suallar çoxdur.

Prezident İlham Əliyev qüdrətli bir qüvvəyə - xalq ilə iqtidarın birliyinə güvənərək öz qurucu fəaliyyəti ilə bütün bu suallara cavab verir. O tələb edir ki, dövlət məmurları xalq ilə birgə olsunlar, çünki dövlət məmurları, o cümlədən Prezident də xalqın xidmətçiləridir. “Xalq bizə etimad göstərib və biz hər gün bu inamı və etimadı doğrultmalıyıq”. [16]

Prezident çox gözəl bilir ki, qarşıya qoyulmuş məqsədə çatmaq yolları barədə də strateji təsəvvür olmadan gələcəyi qurmağa başlamağın mənası yoxdur. Əhalidə ardıcıl surətdə vahid millətə mənsub olmağın davamlı şəkildə dərk edilməsi şüuru formalaşmadan Azərbaycanın siyasi inkişafını təmin etmək mümkün deyil. Ölkədə yaradılmış sağlam mənəvi-siyasi mühitin və ictimai münasibətlərin təsiri ilə insanlarda yeni təfəkkür formalaşır. Qeyd etmək lazımdır ki, Azərbaycanda məhz müasir ictimai-tarixi praktika ölkə vətəndaşlarının özlərinin yaratdığı obyektiv mənzərəni öz şüurlarında əks etdirmələrinə imkan verir.

Prezident İlham Əliyev Azərbaycanın xarici tərəfdaşlarını ölkənin seçdiyi demokratikləşmə yolunun dəyişməzliyinə inandırmaq üçün çox səy göstərib. O, qəti əmindir ki, hər bir xalq yalnız öz tarixinə, öz ənənələrinə və mədəniyyətinə əsaslanaraq cəmiyyəti demokratikləşdirməlidir. Yabançı demokratiya heç vaxt konkret milli şəraitə uyğunlaşa bilmir. Prezident İlham Əliyevin düşünülmüş siyasəti və siyasi istedadı sayəsində Azərbaycanın beynəlxalq arenada nüfuzu artmaqda davam edir. Azərbaycan hadisələri süni şəkildə sürətləndirmədən Qərbdə - ABŞ, Fransa, Almaniya, İsveç, İtaliya və digər ölkələrdə olduğu kimi, milli simalı demokratiyaya tərəf irəliləyir. Heç kəs bu faktla mübahisə etməz ki, həmin ölkələrdə demokratiyanın öz spesifikası var.

Prezident İlham Əliyevə xas olan bir xüsusiyyət də sakit qüvvə və müsbət əhvaldır. Hərçənd, o, həyatda çətin sınaqlardan keçib. Onun həyatının həmişə xoş keçdiyini, obrazlı şəkildə desək, xoşbəxt ulduz altında doğulduğunu demək olmaz. Ümumrusiya Dövlət Teleradio Komitəsinin teleaparıcısı Vladimir Solovyovun fikrincə, İlham Əliyev “çox mehriban, mükəmməl təhsilli, dərin zəkalı siyasi xadim, lakin deyərdim ki, başqa tipli siyasi və dövlət xadimidir... O, həm öz xalqı və ölkəsi, həm də öz atası qarşısında böyük məsuliyyət hiss edən dərin zəkalı insandır. Bu, ənənənin davamıdır. Mənə belə gəlir ki, yeni, gələcək Avrasiya İttifaqında Əliyevin çox gözlənilməz rolu, tamam fərqli hərəkətləri ola bilər”. [17]

2018-ci il aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçirildi. ABŞ-dan olan bir analitik mərkəz tərəfindən fevral-mart aylarında aparılmış sosioloji sorğu göstərdi ki, İlham Əliyev yenidən ölkənin prezidenti seçiləcək. Bu sorğu bütövlükdə təsdiqləndi: İlham Əliyev seçkilərdə iştirak edən seçicilərin 86,03 faizinin səsini toplayaraq 7 il müddətinə Azərbaycan Prezidenti seçildi. Əslində, həmin andan etibarən Azərbaycan tarixində xüsusi, yeni mərhələ başlandı. Prezidentin qarşısında yenə üç mühüm vəzifə dururdu. Birincisi, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş fəaliyyət xəttinə sadiqliyi təsdiq etmək. İkincisi, dövlətin inkişafının yeni mərhələsində daha mürəkkəb sosial-iqtisadi məsələlərin həllinə başlayarkən əvvəlki illər ərzində qazanılmış uğurları “diaqnozlaşdırmaq”, ölkəni yeni inkişaf yüksəkliklərinə aparan yolda əsas maneələri müəyyən etmək. Təbii ki, təhlil nəticəsində inkişafa əsas təhdidlər müəyyən olunacaq. Üçüncüsü, ölkə əhalisini yeni, daha mürəkkəb məsələlərin və planların həyata keçirilməsinə, maneələrin aradan qaldırılmasına və mövcud təhdidlərə qarşı mübarizəyə səfərbər etmək. Azərbaycan bütün bu məsələləri yerinə yetirəndən sonra XXI əsrin üçüncü onilliyində güclü və modernləşdirilmiş müstəqil dövlət kimi özünü qoruyub saxlamaq üçün hər cür imkana malik olacaq.

Qeyd etmək lazımdır ki, hər bir ölkədə siyasi liderliyin və hakimiyyət münasibətləri ənənələrinin mahiyyətinin spesifikası, ilk növbədə, dərin məna kəsb edən siyasi mədəniyyətin və siyasi psixologiyanın - dövlətçilik ideologiyasının və əcdadların dəyərlərinin formalaşması ilə müəyyən olunur.

Bütövlükdə siyasi liderlik anlayışı və onun dövlətdə hakimiyyət münasibətləri qurulmasında rolu öz növbəsində siyasi mədəniyyətin xüsusiyyətlərinin konseptual tərtibatında mühüm rol oynayan aşağıdakı tərkib hissələrlə müəyyən olunur:

a) Xalqın mədəni-tarixi inkişafının xüsusiyyətləri;

b) Cəmiyyətin siyasi sistemə müvafiq struktur quruluşu;

c) Hakimiyyətin və siyasi liderliyin qavranılmasında, cəmiyyətin baza dəyərlərinin konstruksiyasında metodoloji ideya rolu oynayan dünyagörüşü. Bu halda xalqın şüurunun etnik xüsusiyyətləri böyük əhəmiyyət kəsb edir.

İlham Əliyev dövlət başçısı kimi öz fəaliyyətində Azərbaycanın Konstitusiyasını rəhbər tutur, o cümlədən hakimiyyətin qanunverici, icra və məhkəmə hakimiyyəti qollarına bölünməsi prinsipinə əsaslanan Azərbaycan siyasi sisteminin xüsusiyyətlərini əsas götürür.

2018-ci ilin dekabrında Rusiya Prezidenti Vladimir Putin İlham Əliyevə doğum günü münasibətilə ünvanlandığı məktubda yazır: “Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız”. [18]

Həqiqətən tarix özü, ölkəmizdə cərəyan edən ictimai-siyasi hadisələr İlham Əliyev kimi dərin zəkalı və istedadlı siyasi xadimin timsalında Azərbaycan xalqına müstəqil inkişaf etmək üçün daha bir şans verib. Xalq inanır ki, o, istənilən sınaqları, onlar nə qədər mürəkkəb olsa belə, uğurla dəf edəcək. Xalq başa düşür ki, qarşıda milli əraziləri erməni işğalçılardan azad etmək, islahatları davam etdirmək və ölkəni modernləşdirmək uğrunda mübarizə dayanır. Yürüdülən siyasət Azərbaycanın düşmənlərdən müdafiəsinin təmin olunmasına yönəlib.

Uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri olan İlham Əliyev zamanla ayaqlaşır, ölkədə inkişaf səviyyəsini qabaqlayan və gələcəyə doğru irəliləmək üçün zəruri baza yaradan addımlar atır.

Məşhur yazıçı Çingiz Aytmatov Azərbaycan Prezidenti İlham Əliyevi qloballaşan dünyanın müasir liderinin etalonu kimi səciyyələndirib. Əlbəttə, İlham Əliyev birdən-birə lider etalonu və sadəcə lider olmayıb. Bundan əvvəl uzun illər boyu həyatın sınaqlarında möhkəmlənib, idarəçilik məharəti cilalanıb. Bütün bu adi həyati və siyasi aspektlər həmişə istedadla, iti zəka və yüksək mədəniyyətlə möhkəmlənib.

İlham Əliyev “Əsrin kontraktı”nın - Xəzərdəki neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin hazırlanmasına və imzalanmasına sanballı töhfə verib. Kontrakt 1994-cü ilin sentyabrında imzalanıb. 23 il keçəndən sonra - 2017-ci il sentyabrın 14-də Bakıda “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənilməsinin davam etdirilməsinə dair “Yeni Əsrin kontraktı” imzalandı. Kontraktın şərtlərinə görə, Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılıb. Neftdən gələn mənfəətdən Azərbaycanın payı 75 faiz olacaq.

Yüksək peşəkarlıq. Diplomatik duyum. Müasir liderin yüksək keyfiyyətləri. Məhz bu cəhətlər İlham Əliyevin siyasi karyerasında fərqləndirici və cəlbedici xüsusiyyətlərdir. O, bütün məsələlərə novator islahatçı kimi yanaşır. Dünyada baş verən proseslərin və dəyişikliklərin məntiqinə əsaslanan İlham Əliyev Azərbaycanın davamlı inkişafını sürətləndirən mühüm addımlar atır.

O, uğurlu və bənzərsiz şəxsiyyətdir. Zəngin insani dəyərləri, kübar davranışını, rasional təfəkkür tərzini, sarsılmaz vətənpərvərliyi, praqmatizmi və milli mentaliteti özündə birləşdirən bu insan Azərbaycanın ictimai və siyasi həyatına yeni nəfəs, müasirlik və intellektuallıq gətirir.

İlham Əliyev Ümummilli Liderin siyasi kursuna sadiqdir. O, Heydər Əliyevdən prinsiplərə sadiqlik, parlaq intellekt, cəmiyyət üçün açıqlıq, tolerantlıq, səmimilik, humanizm kimi keyfiyyətləri əxz edib. Qətiyyət, əzmkarlıq, zehni potensial və təşəbbüskarlıq ona xas olan cəhətlərdir.

İdarəçilik keyfiyyətləri, bu və ya digər problemin müzakirələrində fəal iştirak, 1950-1970-ci illərin Qərb liderlərinə xas olan imic və ən başlıcası, qüsursuz nüfuz Heydər Əliyev fenomeninin ən əsas amilləri idi. Bu gün eyni keyfiyyətlər Prezident İlham Əliyevi də səciyyələndirir. [19]

Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev yazır: “Çox təcrübəli dövlət xadimi, həssas diplomat və müstəsna istedadlı siyasətçi olan İlham Heydər oğlu Əliyev Azərbaycanı günbəgün inkişaf və firavanlıq yolu ilə irəli aparır. Dünyada çox mürəkkəb siyasi və iqtisadi şəraitə baxmayaraq, Azərbaycan həyatın bütün sahələrində sanballı nailiyyətlər qazanmağa müvəffəq olub, çünki Prezident İlham Əliyev özünün uğurlu daxili və xarici siyasəti ilə milyonlarla azərbaycanlının arzularını reallığa çevirir”. [20]

O, dövlətə rəhbərlik etdiyi illər ərzində özünü siyasi strateq, gərəkli icraçıları öz ətrafında birləşdirməyi, hədəflər müəyyənləşdirməyi, onların qarşısında vəzifələr qoymağı, cəmiyyəti sıx birləşdirən proqram hazırlamağı və onun uğurla həyata keçirilməsini təmin etməyi bacaran böyük təşkilatçı və idarəçi kimi göstərib. O, milli lider kimi hakimiyyətin geniş ictimai bazasının maraqlarını birləşdirməyi bacarır. Bu xüsusiyyətləri qiymətləndirərkən təkcə milli lider kimi onun şəxsi keyfiyyətlərini deyil, həm də həll edilməli ümumi dövləti vəzifələri ifadə etmək qabiliyyətini vurğulamaq lazımdır. Bu halda İlham Əliyevin xüsusi yaradıcı keyfiyyətlərini yadda saxlamaq lazımdır.

Deyilənlərə bunu da əlavə etmək olar ki, Prezident İlham Əliyev siyasi lider olmaqla özünü müstəsna səriştəli dövlət xadimi kimi göstərir, təkcə ölkə əhalisinin mütləq əksəriyyətinin deyil, həm də dünyada 155 dövlətin başçılarının nəzərində şəksiz yüksək nüfuz və dəstək qazanıb. O, ölkə Prezidenti üçün çox zəruri olan, milli dəyərlərə müvafiq yüksək keyfiyyətlərə malikdir.

“Mən İlham Heydər oğlu ilə ilk dəfə görüşmürəm, o, çox genişmiqyaslı dövlət xadimi təsiri bağışlayır, hazırda Avropada beləlləri azdır. Əslində, ona dəstək reytinqi də buna sübutdur. İlham Əliyev ilə ünsiyyət böyük və dərin təsir bağışlayır. O, müstəqil düşünən, gözəl danışan, yüksək təhsilli, fiziki və mənəvi baxımdan sağlam adamdır. Düşünürəm ki, bu cür Prezidenti olmaqda Azərbaycanın bəxti gətirib”. Prezident İlham Əliyevin şəxsiyyətinə və xüsusi keyfiyyətlərinə bu cür qiymət verən məşhur jurnalist, siyasi televiziya şərhçisi, “Rossiya seqodnya” agentliyinin baş direktoru Dmitri Kiselyovdur. [21]

İlham Əliyevin müasir dövrdə Azərbaycan millətinin həqiqi lideri olmasına təkcə müxtəlif siyasi tədqiqatçıların subyektiv müşahidələri deyil, həm də onun praktiki fəaliyyətinin nəticələri dəlalət edir.

Gələcək nəsillər müasir Azərbaycanın inkişaf tarixini öyrənərkən XXI əsrdə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və inkişafında, milli ideyanın reallaşdırılması üçün Azərbaycan millətinin sıx birləşməsində mühüm rol oynamış İlham Əliyevin tarixi rolunu qeyd edəcəklər. Prezident İlham Əliyev hakimiyyətdə olduğu illər ərzində Azərbaycan xalqının sevgisini və dərin hörmətini qazanıb. Prezident ilə xalqın bu qarşılıqlı hissləri İlham Əliyevə qüvvət və əminlik verir ki, onun ölkəni apardığı yol, sadəcə yol deyil, doğru yoldur. Məhz bu yol Azərbaycan xalqını daha yaxşı gələcəyə çatdıracaq.

❖ ❖ ❖

Burada şərh edilənlərin hamısı mənim Prezident İlham Əliyevin Administrasiyasının rəhbəri vəzifəsində işlədiyim 16 il ərzində müşahidələrimin nəticəsidir.

[16] Bax: “Бакинский рабочий” qəzeti, 28 yanvar 2017-ci il.

[17] Bax: Беседа телерадиоведущего ВГТРК Владимира Соловьева с Президентом Азербайджана Ильхамом Алиевым. “Вестник Кавказа” 12 апреля 2017 года.

[18] Bax: “Бакинский рабочий” qəzeti, 25 dekabr 2018-ci il.

[19] Bax: “Бакинский рабочий” qəzetinin 25 dekabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş “Ильхам Алиев - президент всех азербайджанцев” sərlövhəli məqalə.

[20] Bax: “Бакинский рабочий” qəzeti, 25 dekabr 2018-ci il.

[21] Bax: Дмитрий Киселев. Азербайджану повезло с Президентом. “Бакинский рабочий” qəzeti, 29 oktyabr 2016-cı il.



# İmadəddin Nəsimi - 650

# Cahana sığmayan mütəfəkkir şair






### *Dünya duracaq yer deyil, ey can, səfər eylə!*

Dünya duracaq yer deyil, ey can, səfər eylə!
Aldanma anın alına, andan həzər eylə!

Bir halə qərar eyləməz əyyam, keçər ömr,
Ey əhli-nəzər, baxma bu halə, nəzər eylə!

Payəndə degil dövləti, ey xacə, cahanın,
Əsbabinə aldanma, gəl andan güzər eylə!

Gər aşiq isən sidq ilə şol dilbər üçün, gəl
Can ilə cahan ortaya qoy, tərki-sər eylə!

Düşdü saçının zülmətinə könlüm, ilahi,
Şol hali pərişanə bu şami səhər eylə!

Çün hüsnünə xətm oldu bu gün dövri-məlahət,
Ey fitnələrin xatəmi, şəqqül-qəmər eylə!

Gər Musiyi-Imran kimi şol narə sataşdı,
Gəl, tabişini göstərü şərhi-şəcər eylə!

Dünya evinin səltənəti beş gün imiş çün,
Bünyadını yıx, ər kimi, zirü zəbər eylə!

Şol püstədəhanın xəbərin bildi Nəsimi,
Şirinlərə şol tüngi-şəkərdən xəbər eylə!

### *Yandırdı eşqin bağrımı, səndən mana dərman gərək*

Yandırdı eşqin bağrımı, səndən mana dərman gərək,
Gərçi yolunda aşiqin canü dili suzan gərək.

Düşdüm yenə eşq oduna, büryan yürək, giryan gözüm,
Hər kim ki, düşdü eşqinə, büryanü həm giryan gərək.

Sun saqiya, kasən rəhiq, çal mütriba, eşq əzgüsün
Kim, məst olan bu badədən qəltanü həm heyran gərək.

Qalu bəladə can sana qılmışdı iqrar, ey sənəm,
Imdi aramızda bizim şol əhdü şol peyman gərək.

Şövqən tərani sirrini mən söyləyəydim, neyləyim,
Məhrəm bu Turin sirinə Musa ibn Imran gərək.

Hər kim vücudu şəhrini gəzdivü gördü şəhnəsiz,
Yarğu anındır, ey sənəm, ol sahibi-divan gərək.

Könlüm quşu əsfəldədir, vəqt oldu pərvaz eyləyə,
Simurği-qafə qürb olan ərş üstünə cövlan gərək.

Mən qul olanın quluyam, altun olanın puluyam,
Hər kim bu yolda quldürür aləmdə ol sultan gərək.

Görsət üzünü bir kərə, ta kim, Nəsimi can verə,
Çün eydi-əkbərdir üzü, yüz can ona qurban gərək.

### *Külli məkanın gövhəri, gövhəri-kanmısan, nəsən?*

Külli məkanın gövhəri, gövhəri-kanmısan, nəsən?
Uşbu süfati-hüsnilə cani-cahanmısan, nəsən?

Ərşilə fərşü kafü nun səndədir, ey mələk, bu gün,
Kimsə bu sirrə irmədi, şərhü bəyanmısan, nəsən?

Kövnü məkana baxmazam, çün səni buldum, ey sənəm,
Iki cahan içində sən kövnü məkanmısan, nəsən?

Musa kimi didarını gördü əzəldə gözlərim,
Yaxma məni bu narə gəl, şəm'i-zəbanmısan, nəsən?

Dəhri-zaman içində heç bulmadı kimsə bir dəxi
Sənciləyin, bu lütf ilə dəhri-zamanmısan, nəsən?

Səndə bulundu, gövhərin mə'dəni sənsən, ey sənəm,
Uşbu cahan içində sən gənci-nihanmısan, nəsən?

Qaşların ilə kirpigin qəsd edər üştə canıma,
Bağrımı dəldi navəkin, tirü kamanmısan, nəsən?

Boyunu tubaya sənin nisbət edən nə dil ola,
Uşbu qərar ilə əcəb, sərvi-rəvanmısan, nəsən?

Düşdü Nəsimi eşqinə, sayruvü xəstə neyləsin,
Kəndi həyatı kəndidən cismi-rəvanmısan, nəsən?

### *Bu can pərvanədir, yanır camalın şəmi tabından*

Bu can pərvanədir, yanır camalın şəmi tabından,
Könül darülqərar oldu pərişan zülfü tabından.

Həyatı Xızr ilə Isa bilir, arif necə buldu,
Rümuzi-eşq ilə irdi dodağın eyni-abından.

Əcəb cimi, səadətdir kimə kim, pərdə rəf oldu,
Dü aləm doldu şövqündən, günəş çıxdı hicabından.

Münəccim, zahid inanmaz ki, sənsən əhsəni-təqvim,
Əzəldən ta əbəd oldu əyan hüsnün kitabından.

Üzün nuru şol atəşdir kim, anı bilmədi zahid,
Şəcərdən Musaya inni-inəllahdır xitabından.

Susuz, həm ac, yuxusuz bəriyyə çəkdirir hüsnün,
Girəm Beytül-həram içrə, qılam ta səcdə babından.

Məni şol müddəi sanır irağam yə'ni tapundan,
Zəhi cahil ki, qəflətdən oyanmaz qaldı xabından.

Nəsimi necə vəsf etsin ki, hüsnün binəhayətdir,
Tutuldu dili əflakın, sual etdim, cavabından.

**● Klassik irsimiz**

**Nəsimi bəlkə də yeganə şairdir ki, onun təkcə həyatı, yaradıcılığı deyil, ölümü, mübarizlik istedadı da ədəbiyyatın mövzusu olmuşdur. Onu tarixdən silmək üçün fitva verən cahangirlər əslində dahi söz ustadını daha da əbədiləşdirmiş, sirr və sehrini daha da artırmışdılar.**

**Nəsiminin Şərq poeziyasında, fəlsəfi düşüncə tarixində, ədəbi-bədii yaddaşda, o cümlədən Azərbaycan ədəbiyyatında bir obrazı var. Öz idealı, inamı, dərk etdiyi həqiqət uğrunda vüqarla şəhid olan filosof-şair obrazı. Onun adının qarşısında işlənən "eşq şəhidi", "eşq mücahidi", "həqiqət carçısı", "dərisi soyulan şair", "İnsan himninin müəllifi" kimi bədii təyinlər şairin bir qədər əfsanəvi, bir qədər real olan obrazını təqdim edən cəhətlərdir. Nəsiminin adına hələ öz çağdaşı, tələbəsi olmuş türk şairi Rəfiidən başlamış müasir dövrümüzə qədər bir çox İraq, türkmən, özbək şairlərinin əsərlərində rast gəlinir. Azərbaycan ədəbiyyatında isə elə bir söz ustadı tapmaq çətindir ki, onun yaradıcılığında Nəsiminin adına rast gəlinməsin.**



# Dünya mənim sədəfimdir, mən dünyanın gövhəriyəm

Rəfii "Bəşarətnamə" əsərində Nəsimidən, onun türk şairləri arasındakı nüfuzundan, onların yaradıcılığına təsirindən söz açırdı. Osmanlı şairlərindən İntabi Raşid də Sultan Əbdülməcid xana söylədiyi mədhiyyəsində şairin faciəsini təsvir edirdi. Daha sonralar Şah İsmayıl Xətai, Sarı Aşıq, Qul Nəsimi, Məhəmməd Sübhi öz əsərlərində şairin adını ehtiramla xatırlayırlar. Məşhur türkmən şairi Məxtumqulu və müasiri Xivəli Durdu Şeyx öz deyişmələrində Nəsimini dəfələrlə yad edirdilər.

XX əsr Azərbaycan ədəbiyyatında da Nəsiminin istər adı çəkilən, istərsə də bədii obrazı yaradılan ədəbi nümunələr çoxdur. Rəsul Rzanın "Son gecə", Qabilin "Nəsimi", Nəbi Xəzrinin "Mənim babam baxan dağlar", Söhrab Tahirin "Karvan gedir" poemaları, Səməd Vurğunun "Azad ilham", İslam Səfərlinin "Nəsimi", Fikrət Sadığın "Böyük Nəsimiyə", Əli Kərimin "Şəhidlik zirvəsi", Əli Tudənin "Nəsimi", İsa İsmayılzadənin "Heykəl Nəsiminin monoloqları", Məmməd İsmayılın "Nəsimi", Musa Yaqubun "Şirvan alverçisi və Nəsimi", Cabir Novruzun "Nəsimi" şeirləri, Bəxtiyar Vahabzadənin "Fəryad" mənzum pyesi sözü və fikri cahillər tərəfindən anlaşılmayan mütəfəkkir şair Nəsimiyə həsr olunmuşdur.

Bu ədəbi nümunələri incələyərkən şahidi oluruq ki, Nəsimi mövzusuna müraciət, onun bədii obrazının yaradılması iki səbəbdən doğur. Birinci səbəb Nəsimiyə - həqiqətin və sözün uğrunda mərdanəliklə mücadilə aparan şairə hörmət və ehtiramdan, məhəbbətdən qaynaqlanırsa, ikinci səbəb dahi şairin obrazından istifadə etməklə öz epoxalarının siyasi-ideoloji təqib və təzyiqlərinin yaradıcı insanların, düşüncə və fikir adamlarının duyğularına olan təsirlərini ifadə etmək istəyindən doğurdu. Məsələn, Səməd Vurğun "Azad ilham" şeirində, Bəxtiyar Vahabzadə "Fəryad" pyesində sələflərinin çıxılmaz durumunu əks etdirməklə həm də öz çağlarının azad sözə vurduğu buxovu, qoyduğu yasaqları göstərmək istəmişlər.

## İnsan və zaman

Nəsimi haqqında əsər yazmaq Bəxtiyar Vahabzadəyə həm də insan və zaman, şəxsiyyət və dövr, hökmdar və şair, insan və onun idrakı haqqındakı fəlsəfi düşüncələrini ifadə etmək üçün lazım olmuşdur. Əsərdə müəllifin, həmçinin müxtəlif təriqətlər, fəlsəfi cərəyanlar, təlimlər haqqında geniş bilgilərə malik olduğu görünür. Bu, müəllifin qəhrəmanlarının nitqində, ifadə etdikləri fəlsəfi mühakimələrdə, həm də hadisələrin cərəyanında özünü göstərir.

Nəsimidən istər nəzəri-estetik irsində, istərsə də bədii əsərlərində qürurla, iftixarla danışan, onun həyat tərzini, yaşamını, hətta edamı zamanı sərgilədiyi cəsarəti gənc nəsillərə nümunə göstərən Səməd Vurğun "Azad ilham" şeirində yazır:

*Nəsimi zahidlə durdu üz-üzə,*
*Söylədi: haqq adlı bir divan quraq.*
*Atdı pəncəsini gecə-gündüzə*
*Boğdu həqiqəti sadə fırıldaq...*
*Zahidin barmağın kəssəniz əgər,*
*Tanrı dediyinə arxa döndərər...*
*Bu miskin aşiqə baxın da bir az,*
*Diri soyulsa da dözər, ağlamaz.*

Şair elə bu əsərində özünün zamanı ilə Nəsiminin yaşadığı dövrü müqayisə edir. İlk görüntü belə mənzərə yaradır ki, şair mənsub olduğu dövrün sözün, düşüncənin azadlığı üçün yaratdığı şəraitdən çox razıdır.

Vurğunşünas alim Aslan Salmansoy isə bu əsər haqqında yazır: "Sovet dövründə şeiri təhlil edən bütün tədqiqatçılar bu məqamı qabartmış, ondan "yeni həyatın, yeni ictimai quruluşun gözəlliklərini vəsf edən əsər" kimi söz açmış, demək olar ki, hər tərənnüm parçasının, misrasının ardınca gələn təəssüf, narahatlıq, nigarançılıq, qorxu bildirən parçalara, misralara məlum səbəbə görə "diqqət" yetirməmişlər".

Amma "Kaman qaşlarını çatma, günəşim", "Sən ey kinli baxış, tənəni burax" kimi misraların iç qatına diqqət yetirsək, Səməd Vurğunun da öz sələfi kimi təhlükələrdən uzaq olmadığının şahidi olarıq.

Nəbi Xəzri "Mənim babam baxan dağlar" poemasında Nəsiminin məzarını ziyarət edərkən keçirdiyi kövrək hisslərdən bəhs edir:

*Gözümdə şimşəyi çaxdı zülmətin,*
*Bu günə nə qədər*
*Yol gəldim, babam.*
*Vida ayağında sən titrəmədin,*
*Mənsə görüş vaxtı kövrəldim, babam.*

## Edamını gözləyən şair: "Son gecə"

Nəsimi haqqında yazılan əsərlər içərisində Rəsul Rzanın "Son gecə" poeması bir çox dəyərlərinə görə seçilən poetik nümunələrdəndir. O, "Son gecə" əsərində edamını gözləyən filosof şairin zindandakı son gecəsini təsvir edir. R.Rza son gecənin qəmli dastanına başlamamışdan əvvəl Nəsiminin uyuduğu məqbərənin təsvirini verir. Şair üçün bu, kiçik məqbərə yaxınlığında ucalan, harın fatehləri, neçə-neçə cahangirləri, qanlı döyüşləri, vahiməli gecələri yola salmış məşhur qaladan daha şöhrətlidir. Bura tarixin səcdə etdiyi məqbərədir, bu məqbərədə bir qərib şair uyuyur. Rəsul Rza bu qərib şairin zindandakı son günlərini təsvir edir. Ölümünü gözləyən şairin gözlərində "ömrü varaqlanır", xəyalında keçdiyi gülsüz-çiçəksiz səhralar, Şamaxı, Naxçıvan, Təbriz, Bakı, "çətin sınaq günləri", "ölümdən betər ömür", "sərt üzlü həyat", "Ya haqq" deyən müridlər" canlanır və son gecə... Nəsimi həyatının bu məqamında da həmin Nəsimidir. Əqidəsinə, inamına, idealına, dərk etdiyi həqiqətə sadiq, həyatını rahatlıqla ölümə dəyişməyə hazır olan mücahid. R.Rza Nəsiminin daxili yaşantılarını, düşüncələrini, duyğularını təqdim etməklə həm də onun əzəmətini göstərirdi. Şair ondan "tövbə et, günahından keçsinlər" deyə xahiş edən zindan gözətçisinə deyir:

*"Qoca!*
*Böyük həqiqətə,*
*doğru sözümə tövbə deyimmi?*
*hər yanda*
*zülmü, səfaləti*
*görən gözümə tövbə deyimmi?*
*Ülvi gözəlliyə - Kəbəmə,*
*ləkəsiz məhəbbətə,*
*insan adına bağlı həqiqətə*
*tövbə deyimmi?*
*Mən deyirəm Allahın*
*canlı təcəssümü*
*sənsən, mənəm*
*Allahın damlası*
*İnsan özüdür.*
*İnsan düşüncəsi,*
*doğru sözüdür.*
*Bax, budur Allah...*

Qabilin "Nəsimi" poemasında da şairə tövbə etmək təklif olunur. Yenə cavab eynidir:

*Mən zəka sahibi, kəlam sahibi,*
*Ürəyi sövdalı ilham sahibi,*
*Peyğəmbər övladı, islam sahibi*
*Bəs sizdən, bəs məndən soruşmaz aləm,*
*Tövbə edirəmsə, niyə edirəm?*

Nəsimi insanın böyüklüyünə qətiyyətlə inanırdı. O insanın ki, özündə zülməti və nuru, əqli və cahilliyi, həm iblis, həm mələk xislətini birləşdirir. Nəsiminin edamına əmr verən, ölüm hökmünü imzalayan da insan idi, onun əvəzinə dar ağacına çıxmaq istəyən də insan idi. Amma Nəsimi o insanın qələbəsinə inanırdı ki, o, ləkəsiz məhəbbəti, ülvi təmənnası ilə Allaha qovuşmuş olsun, özünü Yer üzündə onun bir zərrəsi hesab edə bilsin.

## Ölümdən betər ömür

Nəsimi haqqında yazılan bədii nümunələrin ən irihəcmlilərindən biri də Qabilin "Nəsimi" poemasıdır. Poemanı həm həcminə, həm müraciət olunan mövzunun əhatəliliyinə görə epik roman, mənzum roman, dastan, mənzum dastan, hətta Nəsimi haqqında bədii salnamə də adlandırırlar. On il ərzində ərsəyə gələn on iki min misralıq poemanı müəllif xeyli tarixi mənbələrə, ədəbi qaynaqlara, ədəbi-bədii faktlara, Nəsiminin irsinə əsaslanmaqla, Türkiyə, İran, Misir, Suriya və Hələbə səyahətlər etməklə, böyük zəhmət hesabına ərsəyə gətirmişdir.

Poemanın sonunda Nəsiminin Şirvanşah İbrahimə, Şahi-Xəndan türbəsinə, Fəzlullah Nəimiyə, Cəlaləddin Rumiyə, Qaraqoyunlu Qara Yusifə "məktublarından" parçalar verilir. Poetik məktublardan biri Xaqani Şirvaniyə ünvanlanıb. Şair öz sələfinə böyük acıyla yazır:

*Sən yanıb qurtardın axıra kimi....*
*Zorla söndürülür... nakam Nəsimi.*

Qeyd edək ki, Qabilin "Nəsimi" poeması 1976-cı ildə Dövlət mükafatına layiq görülmüşdür.

Xəlil Rza "Nəsimi" şeirində mübariz şairin qələmini Azərbaycan bayrağının "ağac qulpu" adlandırır. Azərbaycanın Nəsiminin timsalında hüdudları aşdığını, sərhədlərə sığmadığını vurğulayır, dünyanın sultanlara, cahangirlərə yox, Nəsimiyə qaldığını bəyan edir.

Musa Yaqub "Şirvan alverçisi və Nəsimi" əsərində kövrək və duyğulu bir ovqat yaratmışdır. Nəsimi Hələb bazarında gəzərkən "Şirvan ipəyi, Şirvan ipəyi" deyə səslənən bir qoca görür. Həsrət yükündən əyilmiş qəddini düzəltməyə çalışan şair satıcıya yaxınlaşır, Şirvanı soruşur, Girdimanı, Pirqulunu xəbər alır, qar üçün darıxdığını, Şirvan dağlarında qar qalıb-qalmadığını soruşur. Qoca tacir isə alış-verişini düşünür, ipəyini satmağa çalışır. Vətən həsrətindən köksü köz-köz olan Nəsimi ondan bir arşın Şirvan ipəyi alıb bağrına basır, qoxulayır. Bu bir arşın ipək şair üçün Vətənin bir parçasına çevrilir. O sanki Vətənin çiçək dolu çəmənlərini, bənövşəsini, laləsini, ağaclarını qucaqlayır. Qoca "hələ belə ipək sevən görməmişdim" deyir. Şair isə ipəklə danışır, onu vətəndən gəlmiş "bir əsim külək" , "bir ələim bulud" , "bir yamac yaşıllıq", "el səsi" , "bir gözəl nəfəsi" hesab edir. Musa Yaqub ömrünü qürbətdə keçirən şairin yaşantılarını, vətənlə bağlı duyğularını dolğun bədii löhvələrlə ifadə etmişdir.

Səyyarə Məmmədli "Söz" şeirində Nəsiminin timsalında sözün cəzalandığını, sözün şaqqalandığını, sözün "soyulduğunu" deyir. Şairə Nəsimi sözünün soyulduqca altından başqa sözün göründüyünü, sözün dərinliyini, alt qatlaracan keçdiyini və axıb-axıb durulduğunu, əsrlərin qaranlığını aydınlatdığını vurğulayır.

Cabir Novruzun "Nəsimi" şeirinin də mövzusu şairin cəsarəti, vüqarı, mərdanəliyi, ölümün gözünə dik baxması haqqındadır.

Əli Kərim "Şəhidliyin zirvəsi" əsərində yaradıcılığı, idrakı ilə fəth etdiyi zirvəni, mərdliyi, dönməzliyi ilə əbədiləşdirən, sahib olduğu zirvədən bir misra da enməyən, haqqın işığına tapınan Nəsiminin ecazından bəhs edir.

## "Məhşər"

Nəsimi haqqında yazılan əsərlərin içərisində İsa Hüseynovun (Muğanna) "Məhşər" romanını xüsusi qeyd etməliyik. Ədəbiyyatşünas alim Akif Hüseynovun "Məhşər haqqında qeydlər" məqaləsində dediyi kimi, yazıçı tarixi həqiqəti təkcə qələmə almamışdır, həm də mənalandırmışdır. Belə ki, bizə tarixi qaynaqlardan və mənbələrdən məlum olan faktlar əsərdə olduğu kimi deyil, yazıçı fantaziyasının tül örpəyində təqdim olunur.

Romanda iki qütb üz-üzədir, bir tərəfdə dünyanı silahla, qılınc-qalxanla, vahimə və hökmlə fəth etmək istəyən Teymurləng, digər tərəfdə bütün bəşəriyyəti özünün inandığı idealın, sevgiyə, barışa söykənən ali mənəvi ruhun ətrafında birləşdirmək istəyən Fəzlullah Nəimi və onun layiqli müridi İmadəddin Nəsimi. Və maraqlıdır ki, yazıçı bu iki qütbün qarşıdurmasından, mübarizəsindən əziyyət çəkən, narahat olan, itirənlər timsalında bütün ömrünü fikir və düşüncələr içərisində keçirən, ziddiyyətli qərarlar verməyə məcbur olan Şirvan hökmdarı İbrahim şahı və şirvanlıları vermişdir.

Biz Nəsimi haqqında yazılmış digər əsərlərdə adətən Nəsimini ölüm ayağında, edam zamanı öz yenilməz vüqarı ilə qəhrəman kimi görürük. "Məhşər" əsərində isə yazıçı şairin ölümünü vermir. Oxucu onun vüqar və əzəmətini əsər boyu apardığı mübarizələrdə, öz mühakimələrini elan edəndə görür.

Tanınmış yazıçı Hüseynbala Mirələmovun "Son səfər" povesti İmadəddin Nəsimiyə həsr olunmuş əsərlərdən biridir. Tarixi mövzuda yazdığı bədii əsərlərlə qazandığı təcrübə və dövrün dərindən öyrənilməsi Hüseynbala Mirələmova Nəsimi haqqında yeni bir əsər meydana qoymasına şərait yaratmışdır.

■■■

Biz Nəsimi haqqında yazılmış bədii əsərləri nəzərdən keçirdikcə şairin həm əfsanəviləşmiş, həm də gerçəkləri ifadə edən bədii obrazını gördük. Bəzi əsərlərdə tarixi mənbələrlə uzlaşmayan məqamlara, sovet ədəbiyyatşünaslığının ictimaiyyətə təqdim etdiyi Nəsimiyə də rast gəlindi. Bu, XX əsrin işıqları altında görünən Nəsimi idi. Ancaq onu da qeyd etməyi lazım bilirik ki, XX əsrin bədii ədəbiyyatındakı Nəsimi elmi ədəbiyyatdakı Nəsimidən bir boy uca göründü. Bəlkə də bədii ədəbiyyatdakı Nəsimi elmi ədəbiyyatdakı Nəsimidən daha real, daha az təhrif olunmuşdur. İndi də - XXI əsrdə də Nəsimi haqqında əsərlər yazılır və ümid edirik ki, şairin bu gün yaradılan bədii obrazına bütün rakurslardan baxanda Nəsimi özü kimi görünəcək.

***Aygün BAĞIRLI,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent***

**● Yubiley tədbirləri**

## İmadəddin Nəsimi dünya dillərində

**TÜRKSOY da böyük Azərbaycan şairinin anadan olmasının 650-ci ildönümü şərəfinə 2019-cu ili "Nəsimini anma ili" elan edib.**



Bu nüfuzlu beynəlxalq mədəniyyət təşkilatı şairin qəzəllərini 15 dildə (Azərbaycan, qazax, qırğız, özbək, türk, türkmən, alman, rus, fransız, ingilis, ispan, italyan, rumın, tacik və Ukrayna) Ankarada nəfis tərtibatla və yüksək poliqrafik səviyyədə nəşr etdirib. "İmadəddin Nəsimi dünya dillərində" adlı bu kitab əlamətdar yubileyə dəyərli töhfədir.

Yeni nəşrin tərtibçisi və redaktoru olan Azərbaycanın TÜRKSOY-dakı rəsmi nümayəndəsi Elçin Qafarlı kitabın tərcüməsinə həmin ölkələrdən təcrübəli mütəxəssislər cəlb edib. Ön sözün müəllifi AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlidir.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov kitaba yazdığı təqdimatında təşkilat tərəfindən 2010-cu ildən etibarən hər ilin türk dünyasının tanınmış simalarından biri ilə bağlı olduğunu diqqətə çatdırır. O, bu sırada İmadəddin Nəsiminin xüsusi yeri olduğunu vurğulayaraq yazır: "Şərqin hər üç ədəbi dilində əsərlər yazan bu qüdrətli şair qələmə aldığı bənzərsiz qəzəlləri ilə daha çox tanınmaqdadır. Yaradıcılığındakı səmimiyyət, humanizm, həyatın gözəlliklərindən zövq almaq, şeirlərində ifadə etdiyi fəlsəfi düşüncə onu dünya ədəbiyyatının ən görkəmli, mütərəqqi adamları ilə yaxınlaşdırır və böyük mütəfəkkirin dünyagörüşünün universal miqyasını göstərir. Böyük şairin nəsihətləri və təlimləri sadəcə türk dünyası üçün deyil, bütün insanlığın yol göstəricisidir".

## Frankfurt Kitab Yarmarkasında "Nəsimi-650"

**71-ci Frankfurt Beynəlxalq Kitab Yarmarkasında dahi Nəsiminin 650 illiyi ilə bağlı "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" adlı ədəbi-bədii tədbir təşkil edilib.**




Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, ölkəmizin Almaniyadakı səfirliyi və Avropa Mədəniyyətlərarası Əməkdaşlıq Forumunun birgə təşkilatçılığı ilə gerçəkləşən mərasimdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Nəsimi şəxsiyyətinin, yaradıcılığının ölkəmizdə və xaricdə təbliğinin vacibliyindən, "Nəsimi ili" çərçivəsində keçirilən çoxsaylı tədbirlərdən bəhs edib. Xüsusi vurğulanıb ki, Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə məhz Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.

Bəli, Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılıb, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılıb. Nəsimi irsinə qayğı Prezident İlham Əliyev tərəfindən bu gün də davam etdirilir. Dövlət başçısının böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamlarına əsasən bu il Azərbaycanda və onun hüdudlarından kənarda şairin 650 illiyi təntənəli şəkildə qeyd edilməkdədir.

Almaniyada Nəsimi yaradıcılığının tədqiqatçısı Mixael Hess, alman şairi Raynxard Moritsen, Alman-Azərbaycan Ziyalılar Cəmiyyətinin sədri Naibə Şirinova və yazıçı Orxan Nəsimi irsinə dövlət qayğısından və millət sevgisindən söz açıblar. İmaddədin Nəsimi ilə bağlı yeni nəşr olunan kitablar qonaqlara təqdim edilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Gəncə Dövlət universiteti fəlsəfə doktoru proqramı əsasında 2019-cu il üçün aşağıdakı ixtisaslara dissertant qəbulu üzrə *müsabiqə elan edir*

**1. RİYAZİYYAT - 12**
a) Analiz və funksional analiz - 1202.01- ödənişli əsaslarla - 1 yer.
b) Diferensial tənliklər - 1211.01- ödənişli əsaslarla - 1 yer.

**2. KİMYA - 23**
a) Analitik kimya- 2301.01-büdcə hesabına - 1 yer.
b) Üzvi kimya - 2306.01- büdcə hesabına - 1 yer.

**3. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Zoologiya-2401.01-büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.

**4. İQTİSAD ELMLƏRİ - 53**
a)Ümumi iqtisadiyyat - 530801-büdcə hesabına - (MDu üçün 2 məqsədli yer) - 3 yer.

**5. COĞRAFİYA - 54**
a) Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası-5408.01- büdcə hesabına- 1 yer, ödənişli əsaslarla - 1 yer.
b) Meteorologiya-5411.01 - ödənişli əsaslarla - 1 yer.

**6. TARİX - 55**
a) Ümumi tarix-5502.01-büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.
b) Vətən tarixi - 5503.02 - büdcə hesabına -1 yer, ödənişli əsaslarla - 1 yer.

**7. FİLOLOGİYA ELMLƏRİ - 57**
a) Dil nəzəriyyəsi-5704.01-büdcə hesabına- 1 yer.
b) Azərbaycan dili-5706.01-büdcə hesabına -1 yer, ödənişli əsaslarla - 1 yer.
c) Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik -5714.01 - büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.
e) Dünya ədəbiyyatı-5718.01-büdcə hesabına -1 yer.

**8. PEDAQOGİKA - 58**
a) Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01 - büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.
b) Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi-5804.01-büdcə hesabına - 1 yer.

**9. SİYASİ ELMLƏR - 59**
a) Siyasi nəzəriyyə- 5908.01- büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.

**10. PSİXOLOGİYA - 61**
a) Eksperimental psixologiya-6106.01-büdcə hesabına - 1 yer.
b) Ümumi psixologiya-6107.01-büdcə hesabına - 1 yer.

**11. FƏLSƏFƏ - 72**
a) Ümumi fəlsəfə- 7203.01-büdcə hesabına - 1 yer.

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Gəncə Dövlət universiteti fəlsəfə doktoru proqramı əsasında 2019-cu il üçün aşağıdakı ixtisaslara doktorant qəbulu üzrə *müsabiqə elan edir*

**1. RİYAZİYYAT - 12**
a) Analiz və funksional analiz - 1202.01- büdcə hesabına -əyani 1 yer.

**2. KİMYA - 23**
a) Qeyri- üzvi kimya - 2303.01- büdcə hesabına - əyani 1 yer.
b) Üzvi kimya - 2306.01 - büdcə hesabına - əyani1 yer.

**3. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Ekologiya-2426.01-büdcə hesabına- əyani 1 yer,

**4. İQTİSAD ELMLƏRİ - 53**
a) Ümumi iqtisadiyyat -530801- büdcə hesabına - əyani 1 yer, ödənişli - əyani 1 yer.

**5. TARİX - 55**
a) Ümumi tarix-5502.01-büdcə hesabına- əyani 1 yer.
b) Vətən tarixi - 5503.02 - büdcə hesabına - əyani 1 yer.

**6. FİLOLOGİYA ELMLƏRİ - 57**
a) Dil nəzəriyyəsi- 5704.01-büdcə hesabına -əyani 1 yer.
b) Azərbaycan dili - 5706.01 - büdcə hesabına - əyani 1 yer.
c) Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik -5714.01- büdcə hesabına - əyani 1 yer.
e) Azərbaycan ədəbiyyatı-5716.01-büdcə hesabına- qiyabi 1 yer.
ə) Dünya ədəbiyyatı-5718.01-büdcə hesabına- əyani 1 yer.

**7. PEDAQOGİKA - 58**
a) Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 5801.01 - büdcə hesabına - əyani 1 yer, ödənişli - əyani 1 yer.
b) Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi-5804.01-büdcə hesabına - əyani 1 yer.

**8. PSİXOLOGİYA - 61**
a) Ümumi psixologiya - 6107.01 - büdcə hesabına - əyani 1 yer.

**9. SƏNƏTŞÜNASLIQ - 62**
a) Kulturologiya və onun ümumi məsələləri - büdcə hesabına - əyani 1 yer.

# Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Gəncə Dövlət universiteti elmlər doktoru proqramı əsasında 2019-cu il üçün aşağıdakı ixtisaslara dissertant qəbulu üzrə *müsabiqə elan edir*

**1. MEXANİKA - 20**
a) Bərk cisimlər fizikası - 2211.01 - büdcə hesabına - 1 yer.

**2. BİOLOGİYA ELMLƏRİ - 24**
a) Genetika - 2409.01 - büdcə hesabına - 1 yer.

**3. COĞRAFİYA - 54**
a) Tarixi coğrafiya, siyasi rekreasiya coğrafiyası - 5402.01- büdcə hesabına - 1 yer.
b) Meteorologiya - 5411.01- ödənişli əsaslarla - 1 yer.

**4. TARİX - 55**
a) Ümumi tarix - 5502.01 - büdcə hesabına - 1 yer.

**5. FİLOLOGİYA ELMLƏRİ - 57**
a) Azərbaycan dili - 5706.01- büdcə hesabına - 1 yer, ödənişli əsaslarla - 1 yer.

**6. SİYASİ ELMLƏR - 59**
a) Siyasi nəzəriyyə - 5908.01 - büdcə hesabına - 1 yer.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**
- Rektorun adına ərizə;
- Kadrların şəxsi-qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə); diplom əlavələri (təsdiqlənmiş formada);
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üzrə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Qəbul qaydalarına uyğun olaraq sənədlər 28 dekabr 2019-cu il tarixinədək şənbə və bazar günlərindən başqa hər gün saat 9:00-dan 17:00-a kimi GDu-da qəbul edilir.**

**Ünvan: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**

**Tel: (+99222) 266-01-88 Elm və innovasiyalar şöbəsi**

**REKTORLuQ**

11 dekabr Beynəlxalq uşaq Televiziya və Radio Günüdür

# Efirin, ekranın ən tələbkar dinləyiciləri və tamaşaçıları...

Gələcək onlarındır. Sabaha inamın gücü uşaqların bu gün xoşbəxt, ümidli, sağlam olmaları ilə ölçülməlidir. Bunun üçün balacaların firavan yaşamaları kifayət deyil. "uşaqların beyni ağ kağız kimidir" deyirlər. Oraya yazılanlar heç vaxt unudulmur. Eşitdikləri, gördükləri uşaqların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Bu mənada 1994-cü ilin aprelində Birləşmiş Millətlər Təşkilatının uşaq Fondunun (uNICEF) Kann şəhərində elan etdiyi bu bayram - Beynəlxalq Televiziya və Radio Günü böyük əhəmiyyət daşıyır. Hər il dekabrın 11-i qeyd olunan Beynəlxalq Televiziya və Radio Günü böyüklərin yadına salır ki, balaca dinləyicilərə və tamaşaçılara laqeyd yanaşmaq olmaz.

## Unudulmayan verilişlər...

Sevgi və səmimiyyətlə balaca dinləyicilərin, tamaşaçıların diqqətini, məhəbbətini qazanmaq mümkündür. Necə ki, bu günün orta və ahıl yaşlıları kiçik yaşlarında dinlədikləri, baxdıqları uşaq verilişlərini yaddan çıxarmayıblar. Azərbaycan radiosunun məşhur "Biləyən"i onların çoxunun uşaqlığına yoldaş olub. Bu gün də sevimli Biləyənin bu çağırışını unutmayıblar:

*Biləyənəm, biləyən,*
*Bilikləri məndə bil,*
*Əlini ver dost olaq,*
*Mən biləni sən də bil.*

Sonra uşaqların əziz Savalan babası balaca dinləyicilərini salamlayırdı: "Salam, mənim istəkli nəvələrim, nəticələrim". Diktor Ofeliya Sənani Biləyəni, aktyor Sadıq Hüseynov isə Savalan babanı öz məlahətli səsləri, şirin sözləri ilə dinləyicilərə o qədər sevdirmiş, doğmalaşdırmışdılar ki, yüzlərlə, minlərlə uşaq bu verilişi səbirsizliklə gözləyirdi. Əyləncəli olduğu qədər də maarifpərvər "Biləyən" dinləyicilərə maraqlı məlumatlar verirdi.

İllər öncə müsahibəmizdə aktyor Sadıq Hüseynov öz yaradıcılığından danışarkən bu verilişi xüsusi qeyd etdi. O, "Biləyən"in çox məşhur veriliş olduğunu, redaksiyaya saysız-hesabsız məktublar gəldiyini yada saldı. O vaxtadək də istedadlı aktyor kimi tanınan, sevilən Sadıq Hüseynov Savalan babanı öz yaradıcılığının zirvəsi hesab edirdi.

uşaq verilişlərindən danışarkən "Piri babanın nağılları" adlı televiziya verilişini və onun qəhrəmanı "Xoruz baba"nı da unutmaq olmaz. Aktyor Hüseynağa Sadıqov bu rolu balaca tamaşaçılara çox sevdirmişdi. O, ifa etdiyi hər rolu məşhurlaşdırmaq istedadına malik idi. Teatrda, kinoda, eləcə də radio və televiziyada böyük uğurlar qazanmış bənzərsiz sənətkar idi. Ancaq Hüseynağa Sadıqovun da zəngin yaradıcılığında "Piri babanın nağılları" televiziya verilişinin özünəməxsus yeri var idi. Kiçik yaşlı tamaşaçılar ona "Xoruz baba" deyə müraciət edirdilər. Akyor buna alışmışdı və incimirdi.

Azərbaycan televiziyasında yayımlanan "Piri babanın nağılları" da "Biləyən" kimi yalnız balacaları güldürüb əyləndirmirdi. Bu veriliş də uşaqların dünyagörüşünün formalaşması, biliklərinin artması baxımından faydalı idi...

## Uşaqlar hansı verilişlərə baxmaq istəyirlər?

Doğrudur, dövr dəyişib. Razılaşmalıyıq ki, o verilişlərə baxan, dinləyən uşaqlar indikilərdən fərqli idilər. Onların əyləncələri həmyaşıdları ilə oynamaq, məşğuliyyətləri kitab, qəzet, jurnal oxumaq, imkan düşdükcə teatrlara getmək, günlərinin müəyyən hissəsini, əlbəttə ki, valideynlərinin məsləhəti, nəzarəti ilə televiziya və radio qarşısında keçirmək idi.

Müasir dünyamızda texniki tərəqqi, internetin inkişafı uşaqların da həyatına sirayət edib. Evdə, küçədə, istirahət məkanlarında, avtobusda, metroda, hətta kiçik yaşlı uşaqların belə çoxunun əllərində mobil telefon görmək olar. Əksəriyyəti müxtəlif oyunlar oynamaqla, izləməklə məşğuldurlar. Ancaq internet oyunlarına aludəçilik uşaqlara sevimli cizgi filmlərini unutdurmur. Və yenə də televiziyalar kiçik yaşlı tamaşaçılar üçün cəlbedicidir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il mayın 19-da imzalanan "uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində deyilir: "uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir".

Ölkəmizdə uşaqlara diqqət və qayğı getdikcə artmaqdadır. Həyata keçirilən bir sıra dövlət proqramları, layihələr, eləcə də inşa olunan, əsaslı təmir edilən məktəblər, uşaq bağçaları, yaradılan idman kompleksləri onların hər birinin daha yaxşı böyüməsi, təhsil alması, düzgün tərbiyələndirilməsi, dünyagörüşünün formalaşması, intellektual səviyyəsinin yüksəldilməsi, dövlət, cəmiyyət, ictimaiyyət və xalq üçün əsl vətəndaş kimi yetişdirilməsinə şərait yaradır. Bu gün respublikamızda fəaliyyət göstərən radio və televiziya kanalları da dövlət və xalq üçün olduqca əhəmiyyətli olan məsələlərdə öz töhfələrini verməlidirlər. Beynəlxalq uşaq Televiziya və Radio Günü bu vacib məsələyə diqqəti yönəldir.

Ölkəmizdə radio və televiziya kanallarının sayı az deyil. Onların əksəriyyətinin uşaqlar üçün ayrıca redaksiyası var. 2015-ci il aprelin 1-dən isə ilk uşaq telekanalı - "ARB Günəş" fəaliyyət göstərir. Televiziya cizgi filmləri və maarifləndirici proqramlar təqdim edir.

Təəssüf ki, Azərbaycanda televiziya kanalları artsa da, uşaq verilişlərinin sayı və keyfiyyəti qənaətbəxş deyil. Televiziya kanallarının çoxu cizgi filmləri nümayiş etdirməyə üstünlük verirlər. Bununla kiçik yaşlı tamaşaçıları qarşısında öz vəzifələrini bitmiş hesab edirlər.

Bu gün bir çox ölkələrin, elə qonşularımız Rusiyanın, Türkiyənin müxtəlif telekanallarında uşaqlar üçün daha dolğun, zəngin proqramlar nümayiş etdirildiyini görürük. Faydalı işlərdən öyrənmək, nümunə götürmək lazımdır. Azərbaycanın gələcəyi olan uşaqlar maraq göstərdikləri verilişləri çox axtarmamalıdırlar.

uşaqların yaşını, maraq dairələrini nəzərə alaraq, onların psixologiyasına, dünyagörüşünə uyğun, baxımlı verilişlər hazırlamaq respublikamızın radio və televiziyalarının yaradıcı heyətlərinin mənəvi borcudur. uşaq proqramları ayrılmış vaxtı doldurmaq naminə hazırlanırsa, maraq doğurmayacaq. Çünki böyüklər qədər həyat təcrübələri zəngin olmasa da, uşaqlar yaxşını, pisi ayırmağı bacarırlar. Onlar bu dünyanı, insanları öz təmiz duyğularının işığında görə bilirlər. Ona görə də uşaqlar bayağı ünsiyyəti və qeyri-səmimi münasibəti dərhal hiss edirlər. Əgər televiziya və radiolar uşaqların diqqətlərini cəlb edəcək, maraq doğuracaq verilişlər hazırlasalar, onların tamaşaçıları və dinləyiciləri olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***


## "Holcim Azərbaycan" ASC

### təchizatçı şirkətlər bazasını artırmaq məqsədilə aşağıda göstərilən xidmət üzrə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən şirkətləri əməkdaşlıq etməyə dəvət edir

Aşağıda qeyd olunan bina və qurğuların texniki qiymətləndirilməsi

1. Klinker anbarı
2. Üyütmə binası
3. Sement siloslari 12 və 14

Maraqlı tərəflər yuxarıda göstərilən xidmətin adını qeyd edib, şirkətin profayl məlumatlarını 24 dekabr 2019-cu il tarixədək offer-aze@lafargeholcim.com elektron ünvanına göndərə bilərlər.

"Holcim Azərbaycan" ASC-nin tələblərinə uyğun olan sirkətlərə əlavə məlumat veriləcək.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu aşağıdakı LOT-lar üzrə *kotirovka sorğusu elan edir*

**LOT 1.** Ümumi təyinatlı (inzibati işçilər üçün) işçi geyimlərinin satın alınması.
**LOT 2.** Xüsusi təyinatlı işçi geyimlərinin satın alınması.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 18 dekabr 2019-cu il saat 18:00-dan gec olmamaq şərtilə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına təqdim etməlidirlər. Təklif olunan qiymət kotirovkaları malları (işlərin, xidmətlərin) qiymət dəyərindən başqa bütün vergi və rüsumlar, nəqliyyat və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

Hər bir iddiaçı yalnız bir qiymət kotirovkası təqdim edə bilər və onun öz kotirovkasını dəyişməsinə icazə verilmir.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri Tender komissiyası tərəfindən qəbul olunmur və açılmadan geri qaytarılacaqdır.

Tələb olunan mallara (işlərə, xidmətlərə) ən aşağı qiymət kotirovkası təqdim etmiş iddiaçı ilə satınalma müqaviləsi bağlanacaqdır.

Kotirovka təklifləri AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında **19 dekabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

Kotirovka sorğusu ilə əlaqədar suallar TSK2019@oilfund.az ünvanlı elektron poçta göndərilə bilər.

**Əlaqə telefonu: (+994 12) 498-77-53, əlaqələndirici şəxslər: LOT 1 üzrə Elşad Bağırov (dax.:1010), LOT 2 üzrə Nailə Məmmədli (dax.:9005).**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi inzibati binada server otağının tələb olunan standartlara uyğun avadanlıqlarla təchiz olunması üzrə malların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

*Maraqlanan təşkilatlar +99412 525-50-26 (daxili: 9307) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 16 dekabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.*

## bakcell abunəçilərinin nəzərinə

"Bakcell" MMC abunəçilərin nəzərinə çatdırır ki, 21.12.2019-cu il tarixdən etibarən şirkətdən yeni nömrə əldə edən korporativ müştərilərə "Business Freedom" tarifi əvəzinə "Business Sapphire +" tarifi təklif olunacaq.

## BİLDİRİŞ

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Digər maşın və avadanlıqların satın alınması məqsədi ilə 28 sentyabr 2019-cu il tarixində elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Lotus Co" MMC" tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Avadanlığın satın alınması məqsədilə 28 sentyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Nur-SS" MMC" tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə əzizi

**İSMAYIL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev "Azərbkolxozlararası Sağlamlıq" Respublika Birliyi sədrinin müavini Rəhim Hacıyevə qardaşı

**İSMİXAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Bənövşə Cəfərovaya anası

**XALİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8898
Sifariş 4128
Qiyməti 40 qəpik